-bəy verən atın dişinə baxma, **verilən pulu sayıb al**. (**atın dişinə baxmaq**: atın yaşı dişindəki xallardan bəllənər)**.**

sayıçı sayçı. sançı. sanaçı. neçəlikçi. neçəkçi. kantitçi. kantitəçi. kəmiyyətçi.

sayıq sadə**. -sayıq olsan doğru yoldan azarsan**, bülbül kimi sayran dilin lal olar.

sayıq **sayığ. 1.** örtüsüz. yalabıq. çalabıq. sərik. qəbih. qəbeh. - **olumsuz** alışqı. - **olumsuz** alışqı. **1. sərik.** alçaq. qəbih. olumsuz. kötü. yaramaz. pis. koruz. korus. koruc. korunc. koruq. koruqlu. çoruqlu. qorus. qorsuc. çök. çöküc. düşüc.

sayıq **sayığ. 1.** yayığ. bayığ. olağan. alışılmış. sınaşıq. basmaqalıb. -çalış heç nə **olağan** durum almasın. -sizin bu işin **olağan** görünmür. **1.** olmasın. qəbih. sərik. sakınc. azığ. qəbahətli. **1.sayınğ. sıyıq. sayqı. -**sınsa sınır, qalmaz sayıq. **1.**ayıq. qayuğ. üşgən. quşqun. yanıq. oyanıq. ehtiyatlı. möhtat. (# yayıq. cayıq).

sayıqan **sayığan. -atasın sayığan**, oğlu sayğılar. (atasına hörmət göstərən, oğlundan görər hörmət). (atasın sayan, oğlu sayalar)**.**

sayıqlamaq sarsaqlamaq. sanrığmaq. səfehləmək. xərivləmək. xərifləmək. xəvirləmək. gəvirləmək. kəvirləmək. gərivləmək. gərifləmək. kirifləmək. gərifləmək. (> **xeref** (fars)}. ağzına gələni danışmaq. -**xərifləmə** bəsdi. -o qocaldıqca **kərifləyir**, sayma.

sayıqlamaq **sayığlamaq.** sayıl bayıl qonuşmaq. saçma sapanlamaq. sapıq supuqlamaq.

sayıl **-ayıl sayıl edmək:** düşünmək.

sayıl incəl. işgəl. incəcik. işgəcik. qurmay. ədəbli. müəddəb. tərbiyəli.

sayıl **saylı**. əslək. əsnək (**əsləк** < **əsmək**). əylək. əğlək. axlağ. yağlağ. qolay. tör yörük. onğat. oğat. onat. sərik. yayıq. yasıq. yalpıq. basıq. yumşaq. dinc > **diş**.

sayıl sayrı. sovrıl. sovrı. kəsələk. kəsilək. kösələk. kosalaq. qocalaq. korlu. kəsəl. kəsil. kəsalətli. xəsdə. düşgün. çökəl. sayrı. sırğav. sızğav. sizgəv. məriz. məriz əhval. salıvər. səlivər. -iki il salıvar yatdı, sözü yatdı, özü batdı.

sayıl qırtıl. qırıt. qırıl. sayı vergisi.

-**sayıl bayıl**: **sayır bayır**: səyir çəyir: zayıl çayıl: çavıl. -**sayıl bayıl qonuşmaq**: sayığlamaq. saçma sapanlamaq. sapıq supuqlamaq.

sayıla -**sayıla bilən:** saylam. saydam.

sayılan **-nərsənin ən böyük başlığı sayılan qurum, bur qurumun oturduğu yer:** qataq. qatlaq. ana ocağ, dərnək. ana mərkəz. mərkəzi komitə.

sayılan **saylanan.** sayqı dəğər. seçilən. qiymətli. -seyyidlər içində sayılan seyyidimiz var.

sayılan -**bir para atların qoltuğunda çıxan, uğursuz sayılan qıvrıq tüklər:** qoltuğ yeləği.

sayılar **-**tuxum cücə, **güzün gələr sayılar**.

sayılır **-**dönəm dözər əğriyə düzə, **sayılır cücə qalırsa güzə**. (**dönəm**: zaman)

-birikdiğən gücün sayılır, birikməğən gücün dağılır.

-dilsiz elin atı eşşək **dəvəsi köşşək sayılır**.

-duyarsızlıq, saymamazlıq, anlamazlıq dinclik görünsədə, **alçaqlıq sayılır**.

-yaxşı olsa bəydən, **yaman olsa quldan sayılır**. (iş iyi çıxarsa, bəydən görülür, kötü çıxarsa quldan görülür).

sayıllıq incəlik. incilik. inclik. işgəlik. işgilik. qurmaylıq. ədəblilik. müəddəblik. tərbiyəlilik.

sayılmasa - **yaşlılıların sözü sayılmasa olmaz** (saymasan yaşamın güc keçər), söğüt dalından eşilən ip çətin çözülər. -yaşlı savı qoyulmaz, kağıl bağı yozulmaz. **(kağıl**: (< **kav**). bağ (ip) eşmədə işlənən yumşaq, əsnək söğüt qolu, dalı).

sayılmaz **-bu evrəndə yeni könə sayılmaz**, əsgi qəhbə yaş qocasına baxmaz. (bu dünyanın say sanası bəllənməz. **(say sanası**: hesab kitabı**).**

-izsiz diri sayılmaz, kölgəsiz bulut.

-bura haq qapısı qaytı doğru sayılmaz, **çirkin gözəl birbirindən sayrılmaz**. (**sayrılmaz**: seçilməz). (**qaytı**: qələt). (baş yarqıc odur. tanrı qapısı hamını alqılar, qəbul edər)

-göydə ulduz sayılmaz, yoxdu yerdən sağılmaz.

-keçən günlər ömür gündən sayılmaz, yaşam durmaz, durmuş sürər çağ ötər.

sayılmış **-**çatılcağın bilməyən, **itmişlərdən** sayılmış. (**çatılcağın**: barılcağın. mənzilini. amacını).

sayılsa **-**hər dərdin var dərmanı, **ölüm dərman sayılsa**!.

sayıltı **-gerçək sayıldı hər nə**, doğduğu çağ yalanlar.

sayım -**sayım sayım**: **qıyım qıyım**: **qəyim qəyim**: **qayım qayım**: arım arım. aram aram. ağır ağır.

sayıma **-**sayma cücə qozağda. (**qozağda**: yumurtada.çıxmamış cücə).

sayın qatran. qanalı. onsuq. sevimli. görəz. pişgir. dişgir. dəğşin. dəğişgən. dəğingin. (geran qiymət).

- onay sayın: onar, onluq sanay, hesab. **(onay:** onluq. ondənə bir yerdə).

sayın onurlu. gilə. qotan. kotan. böyük. kökərək. kökələk.

sayın **sayğın**.ərkin. ərkim. əziz cənab. ali cənab. sərkar xanım. şərifə. möhtərəmə. -**ərkin** teymur bəy. -**ərkin** atam: əziz atam. -**ərkim** gülü bəğim: sərkar gülü xanım.

-dilindi varlığın sənin, dilsiz varlıq nəyivə gərək, öykün oyun, **sayın sanağın**, dil oylanış, usuş qanış kişiyə gərək. {dil oylanış (sözlə duşünmə) birgə yaranmış}. (**usuş qanış**: düşünüb qanma)**.**

-o nəmə dörd ayağı, **ayaq sayın** üçdə barmaq, **barmaq sayın** otuz dırnaq. (**sayın**: hər) (**üçdə**: üç dənə) (tapmaca). (**bir il. -dörd çağun (fəsil). -hər çağunda üç ay. -hər ayda otuz gün**)**.**

sayın 1. (# **qayın:** (< **qay**: pis). **gayın**. alçaq. gədə). 1. sayqılı. sayqulu. əziz. ərcmənd. ərcli. əriş. ərin. möhtərəm. **1.** sayqılı. sayqulu. umruq. umurlu. diqqətli. ehtiyatlı. -**sayqılı** gözə çöp düşməz. -**sayqılı** başı, yarmaz **daş**. (sayqılı **baş**, yarmaz **daş**) **. 1. sayqaq**.

sayının -**təkərlənən bir sayının toplamı:** qat. qata. qatı. - altı, qoqquz, oniki, onbeş sayıları, üç sayısının **qatlarındandır**.

sayınq **sayınğ. sayıq. sıyıq. sayqı. -**sınsa sınır, qalmaz sayıq.

sayınmaq olasınmaq. olsınmaq. tutunmaq. fərz edilmək.

sayınsızmaq **qağınsamaq**. **payınsamaq**. narınsamaq. xor görmək. kiçimsəmək. önəm verməmək.

sayıntılar məfruzat.

sayıntırtmaq **sayındırtmaq. sayıtmaq**. görütmək. görsətmək. mütəvəccih edmək.

sayır -**sayır bayır**: **sayıl bayıl**: səyir çəyir: zayıl çayıl: çavıl. -**sayıl bayıl qonuşmaq**: sayığlamaq. saçma sapanlamaq. sapıq supuqlamaq.

sayırlamaq ayrıclamaq. ayırlamaq. qıyratmaq**.** qıratmaq. əyarlamaq. dalqıclamaq. dəğərləmək. dəğərlətmək. qərarlatmaq. ölçütmək. oranlatmaq. oraclatmaq. orcalatmaq. duraclatmaq. durcalatmaq.

sayısayına **saysayına.** qaraqarsına**.** ayaqayağına. izi izinə. daldalına. nuxdəbənuxdə.

sayısı **-sayısı kaç:** qaçlı. qaçalı. neçəli. kaçınçı. neçənci. hançı sayıdan. neçə nümrəli. - kaçlı qarandaş istirsiz. - kaçlı qatta otururusuz.

sayış oran. orantı. hesab.

-üstündə saysana, sayış, hesab kitab görüləməz: qayranqaç. qayranqaş. qayranc. qayraş. ilgisiz. başısoyuq. başısoğuq. dalqaçı. ipsiz. - **qayranqaçın** biridir: işə yaramazın biridir.

sayış kisə. hesab.

sayışçıl ödəvçil. üstündə hesab gedməli kimsə.

sayışla kəsəsiylə. qıyrat qıyrat. qıyratıya. qıyratla. ölçüylə. ölçülü olaraq. oranla. oranlayaraq. hesabla. -atam söz verirsə, **kəsəsiylə** verir.

sayışlamaq ölçmək. dəğərləndirmək. hesablamaq. hesab edmək. - siz bu balaca uşağı nə **ölçürsüz**.

sayışlamaq kisələmək. sandıqlamaq. durcalamaq. duraclamaq. orcalamaq. oraclamaq. hesablamaq.

sayışlı tutumlu. ölçülü. umruq. umurlu. diqqətli. hesab kitablı.

sayışlı qıltarlı. qıldarlı. qıltarıl. qıldarıl. qırtarlı. kirdarlı. kirdarıl. sakınqan. səlqəli. öləçli. ölçülü. qıyratlı. qıyraclı. qıyranlı. bölçəli. bulçalı. qılıclı. qılqıclı. qılğıc. qılfıc. qılınclı. qılqınclı. qılışlı. qılqışlı. hesab kitablı.

sayışmazına korlamasına. korlamasıya. saymazıya. saymazına. sanamazına. sanamazıya. durcamazına. oranmazına. görməzinə. baxmazıya. hesablamazına. hesablamadan.

sayışsız oransız. oracsız. orcasız. duracsız. durcasız. sanqılıqsız. sanquluqsuz. sanaqılıqsız. sanaquluqsuz. (sayılmayacaq dək çox olan). hesabsız.

sayışsızlıq qazqınlıq. azqınlıq. acqınlıq. aşırılıq. dəngəsizlik. ölçüsüzlük. yarqısızlıq. başıboşluq. hesabsızlıq. kontırolsuzluq. muvazinəsizlik. məntiqsizlik.

sayıt sayıt. sayalı. qolay. -**görən, sayıt dəğişir**, görülən qayıt, dəğişməz. (**qayıt**: qatıq. çətin). (gördüyün, qıldığın işi düzəltməkdənsə, kəndivi düzəlt).

sayıt **qayıt**.

sayıta **-nə sayıda:** kaçlıq. kaçalıq. neçəlik. nə ölçüdə. nə dərcədə. nə oranda. nə qıyratda. nə sanada. nə nümrədə. nə şumarədə. - **kaçalıq** paket istərsiz. **kaçalıq** başmaq geyirsiz. - **kaçlıq** içgidir.

sayıta -**çox sayıda:** qırx. çox sayıda. -**qırx** kərə gəldim. -**qırx dərədən su gətirmək**: bir sürü gəzəklər, mahanalar oranlamaq, uydurmaq. -**qırx evin pişiyi**: birçox yerlərə girib çıxan. birçox yerlə ilişgisi olan. -**qırx ikindi**: bir para bölgələrdə, uzun sürə, yağan yağmur. -**qırx evin ipini çəkmək**: qırx evi dolandırmaq. -**qırx sırım**: **qırx nərdüvan**: dik yoxuş. -**qırx darağda bezi olmaq**: hər nədən birazı olmaq. -**qırx ildə bir**: handan hana. -**qırxından sonra saz çalmaq**: iş işdən keçəndən sonra. -**qırxlara qarışmaq**: 1. ərişmişlərə qarışmaq. itmək. köçmək. ölmək.

sayıtan **-hançı sayıdan:** qaçlı. qaçalı. neçəli. kaçınçı. neçənci. sayısı kaç. neçə nümrəli. - kaçlı qarandaş istirsiz. - kaçlı qatta otururusuz.

sayıtqan kəndini saydıran.

sayıtmaq 1. saydırtmaq. **1**. **sayındırtmaq.** görütmək. görsətmək. mütəvəccih edmək.

sayız ölçü. ölçüm. boy.

sayqa qayda. çəkə. usul. norm. düzən. - işlər **qaydasında** mı?.

sayqaç saça. saçqa. əksik.qıyratsız. paysız. paysaç. qırtıl. qağraz. qağrız. qaqarız.

sayqaq **sayğaq**. sayağ. cayğaq. qayğaq. bayğaq. bayağ. (payğaq. payağ). cahil. (# **ayğaq**).

sayqaq **sayın**.

sayqal **sayğal**. itibarlı. -dünyanın ən sayğal saytlarından **'turuz'** dur.

sayqal ə'dadi. şumari.

sayqalamaq sayqamaq. qıvatmaq. qutlamaq. təbrikləmək. mübarəkləmək.

sayqalı **-sayqalı dos ağrışmaz**, sayqasız dos barışmaz. (**ağrışmaz**: inciməz). (**sayqalı**: hesablı). (**sayqasız**: hesabsız).

sayqamaq 1. saymaq. qazımaq. qazmaq. önəmsəmək. önəmləmək. 1. saymaq. saylamaq. qazımaq. qayımaq. qayırmaq. önəmsəmək. önəm vermək. - yanına geddimdə məni heç **qazımadı**.

sayqamaq sayqalamaq. qıvatmaq. qutlamaq. təbrikləmək. mübarəkləmək.

sayqar **-**bu gün günü, **sayğar dosdun**, yarın gəlsə gec olur. (bu gün çağıdır, yo mluyacaqsan dosduvu yoxla, yoxsa yarını güdsən olsunki gec ola).

sayqarmaq samramaq (deyib durmamaq). sadalamaq. -ağzına gələni samrap yürmə.

sayqarmasa **-sayğarmasa qaranğunu yaxtıdan**, gündən günə batar baxtın, qaybaxtın!. (**yaxtıdan**: işıqdan) **(batar baxtın qaybaxtın**: korbaxlığın artar)**.**

sayqasız **-**sayqalı dos ağrışmaz, **sayqasız dos barışmaz**. (**ağrışmaz**: inciməz). (**sayqalı**: hesablı). (**sayqasız**: hesabsız).

sayqaşmaq **sayğaşmaq**. salğaşmaq. sayaşmaq. sağaşmaq. sakınlaşmaq. sağınlaşmaq. oturuşmaq. yatışmaq. sakitləşmək. durmaq. susmaq. dinmək. kirişgəmək. kirişgənmək. girişgəmək. girişgənmək. geygişmək. geyginmək. geyişgimək. geyişginmək. kirimək. girimək. geyimək. keyimək. kehimək. -ağrısı keçdi **girişgədi.** -bala biraz **geyiş** görüm neynirəm. -yağışda heç **girimək** bilmir.

sayqaylamaq sayqaymaq. hörmət qoymaq.

sayqaymaq sayqaylamaq. hörmət qoymaq.

sayqı **1.sayıq. sayınğ. sıyıq. -**sınsa sınır, qalmaz sayıq. 1.sılağ**.** əzizlik. -**sılağ toyuza qayıtsın**: əzizlik, sayqı cəmizə qismət olsun. (nərsə üçün gələnlərdən tansayış, təşəkkür diləyi).

-sayqı göstərmək: omuzda daşımaq.

-əzizlik, sayqı cəmizə qismət olsun: sılağ toyuza qayıtsın. (nərsə üçün gələnlərdən tansayış, təşəkkür diləyi).

-sayqı qalxsa ortadan, sevgi qalmaz orunda. (**orunda: orunda**. yerində)

-sayqı saxlar sevgini, sevgi qorar sayqını. (**qorar: qorurar**)

-sayqı sevgi doğurur,**sevgi sayqı**

-sevən könül **sayqı gözlər sevəndən**.

-sevən sayar sayqı qoyar dilinə, verməz yada kəndi yurdun, kəndi varın kiminə.

-sevgi sayqı qovuşsa, ölməz evrən yaradar.

-sevgi yolu **sayqı sılaq döşəli**.

-sevgi yolu **sayqı yolundan keçmiş**.

-sayqı bulaq, sevgi onun ırmaqı.

-sayqı sınırsız olmaz, sevgi sınırğa sığmaz.

-borcu varsa bir kişinin kişiyə, **sayqı dəğər biçməyidir son sana**. (**son sana**: son sözdə)**.**

sayqı qılınış. bəğəniş.

-kiməsədən danışırkən sayqı olaraq, "kəndin" çoxunluğ şəkili işlənir: kəndiləri. özləri. -**kəndiləri** gələcəklər. -**kəndiləri** buyurdu.

. -**sayqı duymaq:** qıllanmaq. qılınmaq. hörmət edmək.

-sayqı göstəriş görsətməyə çalışmaq: qıbışlanmaq. qıllanmaq. qıllavınmaq. qanış yanış edmək. qılınmaq.

-sayqı duyulur: gərimli. girgin. girgün. güvənilir.

-gedəni at, **sayqıva sayqı**. unut itsin.

sayqı **-**qız maraq gözlər, **qadın sayqı**. **(maraq:** təvəccüh**).**

sayqı **-sayqı edməli:** sayqır. **-**sayqı dəgəyən istəyin olsun, **sayqır gərəyən ərdəmin olsun**.

-sevgisiz sayqı yaranmamış, sayqısız sevgi duranmamış.

-sayqı yoxsa sevgi ölər duranmaz**.** (**duranmaz**: yaşayanmaz).

-sayqı dəgəyən istəyin olsun, sayqır gərəyən ərdəmin olsun. (**sayqır** : sayqı edməli).

sayqı **-sayqı üçün əğilmə**, ayaq gələr sırtın üstə əzərlər.

-sığır sayqı sılamaz. (**sayqı sılamaq: sayqı sıylamaq**: kəsinliklə hörməti iyi qarşılamaq. qatı ehtiram, gözətiş göstərmək)

-dərik varsa, **sayqı duysa**, dəğər bilsə, sevgidirsə, can qurban. (**dərik varsa**: dəğər verilə bilirsə. qədirşinaslıq varsa). (**sevgidirsə**: sevilməlidirsə)**.**

-başa 'içinə görə' sayqı bəslənir, göyçəyə üzünə görə.

-sayqı dəğər: sayılan. saylanan. seçilən. qiymətli. -seyyidlər içində sayılan seyyidimiz var**.**

-sevgi bassa dəngini, **sayqı onun dəngidir**. (sevgi çəkidə əin tapmaq istəsə,

sevgi dartılırsa, sayqı ilə dəhdəş (dəngdaş. həmərziş) gəlir). (demək sayqı ilə sevgi yarışda).

sayqı -**sayqı qayqı duymaq**: sevib döğünmək.

sayqıl **-dadını bilsən ağızda onu sayqıl sən ümüt**, umuqun yolda durubdur oda bəklər yarını. **(ümüt: umut).**

sayqılar **sayğılar. sayalar.** hörmət edər**. -**atasın sayığan, **oğlu sayğılar**. (atasına hörmət göstərən, oğlundan görər hörmət). (atasın sayan, oğlu sayalar).

sayqılı **sayqulu**. 1. sayın. əziz. ərcmənd. ərcli. əriş. ərin. möhtərəm. 1. sayın. umruq. umurlu. diqqətli. ehtiyatlı. -**sayqılı** gözə çöp düşməz. -**sayqılı** başı, yarmaz **daş**. (sayqılı **baş**, yarmaz **daş**).
-**sayqılı qayqılı**: seçimli incimli. kövərək gözənək. özlü gözlü. çox güdəril, güdürül, güdülü, saysallı, diqqətli.

sayqılıq **-**sağlıq dilə çox yemə, **sayğılıq dilə çox demə**. (**sayğılıq:** astlıq. mətanət. izzət).

sayqılıq **-sayqılıq bilik:** sayqıdan, hörmətdən olan bilgi**. -sayqılıq bilik**, əkdiyə ilik. (**əkdiyə ilik**: tərbiyətə cirgə)**.**

sayqılınan **sanqılınan**. hesaba salınan. önəmsənən**. -**sanaqılma gördüyün işlərivi, sanaqıl sanqılınan işlərivi. (**sanaqılmaq**: hesablamaq). (**sanqılınan**: **sayqılınan** hesaba salınan. önəmsənən)**.**

sayqılını **-sayqıdəğməz sayqılını tez tozar**, yaman yoğsa yeğlərimiz tez pozar, gəzinsəndə sayqıdəğərlə gəzin, iyilikdən iyilərə yad qalsın. (**yoğsa**: qarışsa. yaxlaşsa)**.**

sayqımaq **sayğımaq**. saymaq. sıymaq. sıylamaq. saltamaq. qayqırmaq. qanğırmaq. sanğırmaq. aldırmaq. önəmsəmək. usmaq. hörmət göstərmək.

sayqın **sayğın. sayın.** ərkin. ərkim. əziz cənab. ali cənab. sərkar xanım. şərifə. möhtərəmə. -**ərkin** teymur bəy. -**ərkin** atam: əziz atam. -**ərkim** gülü bəğim: sərkar gülü xanım.

-**çox aydın, sayqın, dəqiq**: dan dan. don don. sanayın. -görəvlərin biləsinə **don don** bildirdim.

sayqını **-çox demə sayqını**, çox yemə sağlığı qoru.

sayqını **-**sayqı saxlar sevgini, **sevgi qorar sayqını**. (**qorar: qorurar**).

sayqır sayqı edməli**. -**sayqı dəgəyən istəyin olsun, **sayqır gərəyən ərdəmin olsun**.

sayqırma **sayğırma. sayma. -saxlayırsan qayğırma, saxlamırsan sayğırma**, duyan sözə aldırma, güvən olsun kəndüvə, mən nökərəm fəndüvə.

sayqısın - **birin sayqısın ödəmək**: sayqı görəvi olaraq birinin görüşünə gedmək, qulluğunda bulunmaq.

sayqısız gərcik. sözü uzaldan. söz yanıtan. sözə qarşılıq verən. qopuq.

sayqısız **-**sayqısız sevgi duranmamış**.**

sayqısız **-**sevgisiz sayqı yaranmamış, **sayqısız sevgi duranmamış**.

sayqısızlıq -**dəğməz kişi sevdinsə, sayqısızlıq gördünsə**, unut sil at yadından.

sayqısızlıqa -**ən kiçik sayqısızlığa, qopuluğa belə dözəməmək:**qısqanmaq. qısırqanmaq. qısırqalanmaq. qısırqamaq. qısmıqlanmaq. -türk oğlu yurdun **qısqanır.**

sayqıtəqər **sayqıdəğər.** saynığ**.** ərcmənd.

sayqıtəqərlə **-**sayqıdəğməz sayqılını tez tozar, yaman yoğsa yeğlərimiz tez pozar, **gəzinsəndə sayqıdəğərlə gəzin**, iyilikdən iyilərə yad qalsın. (**yoğsa**: qarışsa. yaxlaşsa)**.**

sayqıtəqməz **-sayqıdəğməz sayqılını tez tozar**, yaman yoğsa yeğlərimiz tez pozar, gəzinsəndə sayqıdəğərlə gəzin, iyilikdən iyilərə yad qalsın. (**yoğsa**: qarışsa. yaxlaşsa)**.**

sayqıva **-**gedəni at, **sayqıva sayqı**. unut itsin.

sayqıyla -**əlləri sinədə birləşdirib, sayqıyla durmaq:** qavşırmaq. qavıştırmaq.

sayqu **-sevgiyə sayqu**, sonuna qayqu, könülə duyqu gərək.

sayqulu **sayqılı**. 1. sayın. əziz. ərcmənd. ərcli. əriş. ərin. möhtərəm. 1. sayın. umruq. umurlu. diqqətli. ehtiyatlı. -**sayqılı** gözə çöp düşməz. -**sayqılı** başı, yarmaz **daş**. (sayqılı **baş**, yarmaz **daş**).

sayla saysal. özən. umursun. umursan. kəndinə gəl. başın topla. ağlın başıva al. diqqət ed.

saylab **-**dözləb susan almış, **saylab susan qanmış**, sevibdə susan yanmış.

saylab -**saylab seçmək**: seçib almaq.

saylam 1. sayıla bilən. saydam. 1. seyrək.

saylama saylama. önəmsəmə**. -keçən günü sanama**, **gəlməzləri saylama**. indi yaşa, indi tut.

saylamaq irdələmək. təkşirmək. təkşirəmək. yoxlamaq. dənətləmək. sınamaq. sərmələmək. araşdırmaq. sınamanclamaq. sınamaşlamaq. arat duratmaq. təftiş edmək. kontrol edmək. incələmək. tədqiq edmək. -kitabları **sərmələmək**.

saylamaq qılı qırx yarmaq. çox özənlə incələmək. titizlik göstərmək.

saylamaq seçmək. hesaba qoymaq. **-**duran günün **saylansın**, keçən günlər **saylanmaz**.

saylamaq 1. müəyyən edmək**. 1**. seçmək. tanlamaq.

-**saylab seçmək**: seçib almaq.

-**çox saylamaq, əzizləmək:** kölgəsinə körpəcə salmaq. (**körpəcə**: köprəcə. döşəkcə. döşgəc).

saylamaq 1. ölçmək. incələmək. - bu iş yenidən **ölçülməlidir**. 1. saymaq. sayqamaq. qazımaq. qayımaq. qayırmaq. önəmsəmək. önəm vermək. - yanına geddimdə məni heç **qazımadı**.

saylamata **saylamada.** oylamada. rə'y olmada. intixabatda -**bir oylamada, saylamada** (rə'y olmada. intixabatda) **qarşılıq, muxalifət göstərən oy, səs, rə'y:** qızıl oy. qırmız oy.

saylanan **sayılan**. sayqı dəğər. seçilən. qiymətli. -seyyidlər içində sayılan seyyidimiz var**.**

saylanış 1. tə'yin. 1. seçiş. seçim. -**doğal saylanış**: təbii seçim. tənazüi bəqa'.

saylanıvermək başqalarından seçilmək. ayrılı vermək. dalqıcıtmaq.

saylanıymaq saysalınmaq. izlətilmək. izdətilmək. iztətilmək. izərtilmək. gözlətinmək. incətilmək. qıloyunmaq. qıloylamaq. sincikinmək. maraqla, umurla, diqqətlə baxdırılmaq. -bu soru, dibdən **izlətilməlidir**.

saylanmaq **sanlanmaq. sanalanmaq.** fikirləşmək. xiyallanmaq.

saylanmaz seçilməz.

-duran günün saylansın, keçən günlər saylanmaz. (**saylamaq:** seçmək. hesaba qoymaq).

saylansın **-**dilək budur sizlərə, **yaxşı yaman saylansın**.

-duran günün saylansın, keçən günlər saylanmaz. (**saylamaq:** seçmək. hesaba qoymaq).

saylar sılar**.** silər. -kişi sılar aş verər, tarı sılar baş verər. (**kişi**: adam). (**baş**: us. ağıl)**.**

saylav intixabat.

saylayıb -**saylayıb paylamaq:** səfehləyib yamanlamaq.

saylı **sayıl**. əslək. əsnək (**əslək** < **əsmək**). əylək. əğlək. axlağ. yağlağ. qolay. tör yörük. onğat. oğat. onat. sərik. yayıq. yasıq. yalpıq. basıq. yumşaq. dinc > **diş**.

saylı əriş. ərin. hörmətli. möhtərəm.

saylıq saflıq. xilus. səfa. təharət. iffət.

saylım saydam. saydım. sıydım. sıylım. qayqın. qayqan. liz. daraca. dərik. yoğuz. yuğuz. yasıq. yasıt. sav. saf. silmə. (yapır. yapın. yasır. yasdan. yayvan. hamar. əngəbəsiz). şəffaf. (ləğzəndə).

saylınmamaq saymamaq. saysalmaq. kəndini bıraxmaq. uğraşmamaq. özənməmək. umursunmamaq. umursanmamaq. diqqət, e'tina edməmək.

saylınmamaq saysalmamaq. halamamaq. önəmsəməmək. usmamaq. aldırmamaq. qıloymamaq. aldırış, təvəccüh, diqqət edməmək. umursunmamaq. umursanmamaq. sincikməmək. taxınmamaq. omuz silkələmək.

sayma **1.sayğırma. -saxlayırsan qayğırma, saxlamırsan sayğırma**, duyan sözə aldırma, güvən olsun kəndüvə, mən nökərəm fəndüvə. **1.** aylanaver. samamazlıqdan gəlmək. belə sayma. -bir qaydırın çox tanozlu aşından, **əl**

uzatma aylanaver daşından (**qaydırın**: **qaydarın**. nakəsin. namərdin). (**tanozlu**: minnətli. minnətdar). (**daşından**: dışından. qırağıından)**.**

-atdımı kiçik sayma!. -yaşam iki atdımlar arası yaşanır.

-sayma, bağışla, unutda mutlu ol.

-susursa dilsiz, saymırsa kor, **dinmirsə axmaq sayma**.

sayma -**sayma gülüm yaşam durmuş sənin çün**, başqaları sanğa görə düşünüyün düşünsün.

sayma -**dəng sayma:** bir tutma. sınaşama. sınarama. sınğarama. qiyas.

saymaq -**boşa saymaq:** puçlamaq. qaramsarlıq, pesimistlik edmək.

-**alçaq saymaq:** yergiləmək. dəğər verməmək. yerikləməmək. istəməmək. həvəs edməmək. iğrənmək. zəhləsi gedmək.

saymaq -**gec saymaq:** geciksinmək. geciksimək. ağırsınmaq. ağırsımaq. bir nəyi, gedişi ağır yapılı sanmaq.

-kəndini nərsə saymaq: **kəndini bəğənmək**: **kəndini dev aynasında görmək**: kəndin çox yekə görmək. özünü başqalarından irəli, ərdəmli, önəmli, üstün görmək. şişinmaq. qurranmaq.

saymaq olasıtmaq. olasnıtmaq. tutmaq. fərz edmək. fərz edinmək.

-iyi saymaq: iygərmək. uyğarmaq. yaxcı qiymətləmək. bəğənmək. -o atasının sözün **iygərməz**. -hər nə yava eşidirsən **iygərirsin.** -sən mənim sözümü **iygərmisin**.

-uzaq saymaq: ıraqlanmaq**.** -yorqun olan qonşuluğu **ıraqlanır**. -burdan bizə çox yaxındır, nəyə **ıraqlanırsın**.

-it saymaq: (söğüş) itləmək.

saymaq 1. özənsəmək. önəmsəmək. gözdə tutmaq. tikizə almaq. aldırmaq. güdmək. bəsləmək. keçindirmək. umursunmaq. umursanmaq. diqqət

göstərmək. 1. (öylə düşünmək) fərz edmək. qəbul edmək. -sizi dos **saydım**. **1.** riayət edmək. -yatanları **saymadan** çığırır. 1. qulaqasmaq. önəm vermək.

saymaq 1. sayğımaq. sıymaq. sıylamaq. saltamaq. qayqırmaq. qanğırmaq. sanğırmaq. aldırmaq. önəmsəmək. usmaq. hörmət göstərmək.. 1. sayqamaq. qazımaq. qazmaq. önəmsəmək. önəmləmək. 1. sayqamaq. saylamaq. qazımaq. qayımaq. qayırmaq. önəmsəmək. önəm vermək. -yanına geddimdə məni heç **qazımadı**.

- ödəv bilmək, saymaq: borc bilmək.

saymama saymazlıq. savsıqlıq. keçinmə. keçişmə. keçiniş. keçiş. güzəş. görməməzlik. gözyumma. tolerans. anlayış (uyqanış). xoşgörü. xoşqaraş. xoşqarac. xoşaldış. aldırmama. qolaygörü. qolayçılıq. qıssa gəlmə. başısoyuğluq. aldırmazlıq. yumşaqlıq. önəmsəməmə. önəmsəməzlik. önəm verməzlik. umursamazlıq. gəvşəklik. asırqalıq. yasırqalıq. acırqalıq. əsirgəlik. oysallıq. uysallıq. səhlənkarlıq. salağarlıq. salığarlıq. qısrıtlıq. qıtsırlıq. ehmalkarlıq. ehmal. musamihəkarlıq. mudara (sıypa).

saymamaq **. 1.** saysalmaq. saylınmamaq. kəndini bıraxmaq. uğraşmamaq. özənməmək. umursunmamaq. umursanmamaq. diqqət, e'tina edməmək. **1.** qıcırqanmaq. qıycırqanmaq. qaycırqanmaq. qatıncamaq. qasıncamaq. qısıncamaq. qızınmaq. qısınmaq. ilgi, təvəccüh edməmək. gözü götürmək.

saymamaq -**pis saymamaq**: yergiləməmək. alçaq tutmamaq.

saymamaq 1. kəmimək. kəmmək. kəmişmək. - varlı yoxsul **kəmişdi**. 1. sanğırmamaq. qayışmaq. qarşı gəlmək. qanğırmamaq. aldırmamaq. önəmsəməmək. 1. qavurmaq. qağurmaq. qoğmaq. atmaq. atlatmaq. atqıtmaq. rədd edmək. eşitməmək.

- sanğı, sınğı, könül ürək, qonuş sanış **saymamaq, bilməmək**: hər nəyə qarşı bildiyin yapmaq, qırıcı davranmaq.

saymamaq qulaqasmamaq. önəm verməmək.

saymamazlıq **-**duyarsızlıq, **saymamazlıq**, anlamazlıq dinclik görünsədə, alçaqlıq sayılır.

saymanta **saymanda.** hesabda**. -**at aylanda, **bay saymanda**. (**aylanda**: dolanşığında. alanda. meydanda).

saymasan **-** yaşlılıların sözü sayılmasa olmaz (**saymasan yaşamın güc keçər**), söğüt dalından eşilən ip çətin çözülər. -yaşlı savı qoyulmaz, kağıl bağı yozulmaz. **(kağıl**: (< **kav**). bağ (ip) eşmədə işlənən yumşaq, əsnək söğüt qolu, dalı).

saymasan gözdən atsan. gözdən edsən. yığmasan. bıraxsan. **-gözdən atsan yamanı**, taxca gəzər yalanı.

saymasan **-iş çabanı saymasan, yaluğ üzü gülərmiş**, yer arıtıb sürməsən, barı üzə çıxarmış. (**yaluğ**: **yalğu**: kişi)**.**

saymasanta **-**ölüm yağlı yavan tanımaz, **sən ölümü saymasanda**, ölüm səni unutmaz.

saymati **-**könül buyruq götürməz. duyma dedim duymadi, **sevmə dedim saymadi**. {duyma dedim duymadı, sevmə dedim duymadı. (eşitmə dedim eşitmədi, sevmə dedim dinləmədi, saymadı (eşitmədi)}.

saymayan sayanoq. -**gəlirin sayanoq** , gedirin bilənoq.**{**gəlirin biləmən , gedirin biləməz. (**biləmən**: sayaman. hesablayamayan). (**gedirin**: xərcin)}**.**

saymaz **-**yaşam deyilən **sevilən saymaz**, dedigin yapmaz, buruğun qanmaz, duranı götürər, yatanı unudar.

-su küzədə, gün bacada, dosd ürəkdə durur, içi gülməz, dosdu saymaz, durmuşundan olur. (**durmuşundan**: yaşamından)**.**

-doğma saymaz: doğçalamaz. -elə sınmış qanadım uçamağa artıq tov yox, **nə bileydim yadav ölkə qonağun doğçalamaz**.

-varlı bizi saymaz, yoxsul bizi qoymaz. {qoymaz (gözdən qoymaz)}. (aşlı bizi tapmaz, işsiz bizi qoymaz).

saymaz **-**toxlar deyər acalmaz, aclar deyər toxalmaz, yaşlar deyər qocalmaz, **evrən saymaz yaş neçə, gündüz ola ya gecə.**

saymazın -**heçnə saymazın, sanmazın:** delibereman. başı salıq.

saymazına saymazıya. sanamazına. sanamazıya. korlamasına. korlamasıya. durcamazına. oranmazına. görməzinə. baxmazıya. sayışmazına. hesablamazına. hesablamadan.

saymazıya saymazına. sanamazına. sanamazıya. korlamasına. korlamasıya. durcamazına. oranmazına. görməzinə. baxmazıya. sayışmazına. hesablamazına. hesablamadan.

saymazlıq saymama. savsıqlıq. keçinmə. keçişmə. keçiniş. keçiş. güzəş. görməməzlik. gözyumma. tolerans. anlayış (uyqanış). xoşgörü. xoşqaraş. xoşqarac. xoşaldış. aldırmama. qolaygörü. qolayçılıq. qıssa gəlmə. başısoyuğluq. aldırmazlıq. yumşaqlıq. önəmsəməmə. önəmsəməzlik. önəm verməzlik. umursamazlıq. gəvşəklik. asırqalıq. yasırqalıq. acırqalıq. əsirgəlik. oysallıq. uysallıq. səhlənkarlıq. salağarlıq. salığarlıq. qısrıtlıq. qıtsırlıq. ehmalkarlıq. ehmal. musamihəkarlıq. mudara (sıypa).

saymazlıq -**söz saymazlıq edmək**: boşlağlanmaq. səhlənkarlıq edmək.

saymırsa **-**susursa dilsiz, **saymırsa kor**, dinmirsə axmaq sayma.

saymıyan **-**yalançını dos görən, uzun gedməz üzülür, **ulların saymıyan**, yaşam sürməz, sürünür.

saymıyasan **-olsunki səni saymıyasan** gəldi gedər dünyanı, ama gəlsə mənə xoşdur, demərəm yox , çevirəm devranı. (**gəlsə mənə**: nəsib olsa mənə).

sayna 1. **saynı**. təşəkgür. 1. şükrən.
-**saynalar**: təşəkgürlər. -çox **saynı** edirəm: çox **saynırım**: çox təşəkgür edirəm.

saynaq **saynağ**. sanrığ. kovsaq. kavsaq. kavsalaq. kovsalaq. kavlaq. kovlaq. ağılsız. qarsala. qatsala. kovsuk. oğsuq. yoxsuq. başıboş. axmaq. kirik. girik. qırıq. qıtıq. güdələk. güdlək. kovtum. kovtulum. hoytulum. quşdurum. kütdülüm. gay. gəy. xay. keh. gic. girəcula. başsız. usqıt. gickəsəmə. giciksimik. gicsıq. gicqan. səfeh. ussuz. huşsuz. qınto. qınta. qıntal. qantal. kovtum. səfeh.

saynalar təşəkgürlər.

saynaşmaq sərnəşmək. açığa çıxmaq. numayiş olunmaq. səhnəyə gəlmək.

saynı **sayna**. təşəkgür. -**saynalar**: təşəkgürlər. -çox **saynı** edirəm: çox **saynırım**: çox təşəkgür edirəm.

saynıq **saynığ.** sayqıdəğər**.** ərcmənd.

saynırım təşəkgür edirəm. -çox **saynırım**: çox **saynı** edirəm. çox təşəkgür edirəm.

saynız sayrız. sanğır. sanğız. anğıra (> niyaran. nigəran. nagiran). qayğın. çapqır.

saynızınmaq sayrızınmaq. sanğırınmaq. sanğızınmaq. çapqırınmaq. qayğınmaq. qaytınmaq. qeydinə qalmaq. niyaran (nigəran. nagiran) qalmaq.

sayram sapram. qırmaşlı. qırnaşlı. qırtış. qıncıq. qıncıvırlı. qıncıq. oğşaq. ovşaq. oxşaq. uyşaq. oynaq. cilvəli. nazlı. işvəli. qıncıvlı. qıncıvırlı. qırcıvlı.

qırcıvırlı. qırcan. qırçam. qırçap. qırnaq. qılıcaq. **sapram qadın**: görgüv xanım. **(görgüv:** möhtəşəm). **sapram yapı**: möhtəşəm bina.

sayran **-**sayıq olsan doğru yoldan azarsan, **bülbül kimi sayran dilin lal olar**. (**sayıq**: sadə).

sayraşar **-sayraşar quşlar**, gülüşər güllər, təki gəl saluğun düşərsə sənin. (**gəl saluğun**: gəlmə xəbərin).

sayrı **. 1.** sırğav. sızğav. sizgəv. kəsələk. kəsilək. kösələk. kosalaq. qocalaq. korlu. kəsəl. kəsil. kəsalətli. sovrıl. sovrı. sayıl. sayrı. xəsdə. düşgün. çökəl. məriz. məriz əhval. salıvər. səlivər. -iki il salıvar yatdı, sözü yatdı, özü batdı. **1.** sayıl. sovrıl. sovrı. kəsələk. kəsilək. kösələk. kosalaq. qocalaq. korlu. kəsəl. kəsil. kəsalətli. xəsdə. düşgün. çökəl. sayrı. sırğav. sızğav. sizgəv. məriz. məriz əhval. salıvər. səlivər. -iki il salıvar yatdı, sözü yatdı, özü batdı.

sayrı qırçal. qırçan. qırçıl. qırçav. qırça. qırçava. qırçov. qırço. qırqın. qırıl. qırqın. qırşır. qırşar. qırşın. qırşan. qırkəsəl . qıncan. xəsdə. xəstə. sağsız. çalığ. azağ. düşgün. çökəl. sağlamsız. korlu. çökəl. kəsəl. naxoş. məriz.

sayrıq sovruğ. çor. xəstəlik. çökəzlik. çökətlik. səkəl. sökəl. sökəllik. kəsəl. kötülük. uğursuzluq. yıxım. çöküş.

sayrılıq 1.azağ. azağlıq. korluluq. çökəllik. kəsəllik. xəstəlik. çökəzlik. çökətlik. çalığlıq. sırğavlıq. sızğavlıq. sizgəvlik. naxoşluq. mərizlik.**1.**alqınlığ. kirəçlik. kəsəllik. xəsdəlik. korluluq. çökəllik. alazlıq. alızlıq. mərizlik. naxoşluq.

sayrılıq kəsəllik. çökəllik. sağsızlıq. xəsdəlik. korluluq. düşgünlük. qırşanlıq. qırsanlıq. qırnalıq. qırnaclıq. qırnazlıq. qırnıq. qırşan. qırsan. qırnac. qırnaz. naxoşluq. mərizlik. -eşq **çalığı**.

sayrılmaq 1.çorlamaq. korlamaq. sıxtışınmaq. sıxıntıya uğramaq. pozulmaq. xarablanmaq. **1.**sayrımaq. alqınlamaq. kirəçləmək. kəsəlləmək. xəsdələmək. çökəlmək. alızlamaq. alızlımaq. alazlamaq. alazımaq. sırğavlamaq. sızğavlamaq. sizgəvləmək. yamanlamaq. yamanlanmaq. mərizləmək. naxoşlamaq.

sayrılmaq **sayrımaq**. 1. salqınmaq. solqunmaq. düşgünmək. qıncalmaq. qıncanmaq. qırşırmaq. qırşarmaq. qırşınmaq. qırşanmaq. azağmaq. azağlamaq. azığmaq. azığlamaq. çökəlmək. sağlamsızlanmaq. qırçalmaq. qırçalamaq. qırçanmaq. qırçanlamaq. qırçılmaq. qırçılanmaq. qırçavmaq. qırçavlamaq. qırçavamaq. qırçavalmaq. qırçovmaq. qırçovlamaq. qırqınmaq. qırqınlamaq. qırılmaq. qırınmaq. kəsəlləmək. kəsəllənmək. sağsızlamaq. xəsdələmək xəsdələnmək. naxoşlamaq. mərizləmək. 1. qırnıqmaq. qırşanmaq. qırsanmaq. qırnacmaq. qırnazmaq. qırnıqlamaq. qırşanlamaq. qırsanlamaq. qırnaclamaq. qırnazlamaq. sırqalmaq. sızqalmaq. kəsəlləmək. kəsəllənmək. xəsdələmək. xəsdələnmək. düşgünmək. qıncalmaq. qıncanmaq. qırşırmaq. qırşarmaq. qırşınmaq. qırşanmaq. düşgünmək. düşgünləmək. çökəlmək. naxoşlamaq. mərizləmək.

sayrılmaz sayrılmaz. seçilməz. -bura haq qapısı qaytı doğru sayılmaz, çirkin gözəl birbirindən sayrılmaz. (**qaytı**: qələt). (baş yarqıc odur. tanrı qapısı hamını alqılar, qəbul edər).

sayrımaq sayrılmaq. alqınlamaq. kirəçləmək. kəsəlləmək. xəsdələmək. çökəlmək. alızlamaq. alızlımaq. alazlamaq. alazımaq. sırğavlamaq. sızğavlamaq. sizgəvləmək. yamanlamaq. yamanlanmaq. mərizləmək. naxoşlamaq.

sayrımaq **sayrılmaq. 1.** qırnıqmaq. qırşanmaq. qırsanmaq. qırnacmaq. qırnazmaq. qırnıqlamaq. qırşanlamaq. qırsanlamaq. qırnaclamaq. qırnazlamaq. sırqalmaq. sızqalmaq. kəsəlləmək. kəsəllənmək. xəsdələmək. xəsdələnmək. düşgünmək. qıncalmaq. qıncanmaq. qırşırmaq. qırşarmaq. qırşınmaq. qırşanmaq. düşgünmək. düşgünləmək. çökəlmək. naxoşlamaq. mərizləmək. **1.** salqınmaq. solqunmaq. düşgünmək. qıncalmaq. qıncanmaq. qırşırmaq. qırşarmaq. qırşınmaq. qırşanmaq. azağmaq. azağlamaq. azığmaq. azığlamaq. çökəlmək. sağlamsızlanmaq. qırçalmaq. qırçalamaq. qırçanmaq. qırçanlamaq. qırçılmaq. qırçılanmaq. qırçavmaq. qırçavlamaq. qırçavamaq. qırçavalmaq. qırçovmaq. qırçovlamaq. qırqınmaq. qırqınlamaq. qırılmaq. qırınmaq. kəsəlləmək. kəsəllənmək. sağsızlamaq. xəsdələmək xəsdələnmək. naxoşlamaq. mərizləmək.

sayrız saynız. sanğır. sanğız. anğıra (> niyaran. nigəran. nagiran). qayğın. çapqır.

sayrızınmaq saynızınmaq. sanğırınmaq. sanğızınmaq. çapqırınmaq. qayğınmaq. qaytınmaq. qeydinə qalmaq. niyaran (nigəran. nagiran) qalmaq.

saysal sayla. özən. umursun. umursan. kəndinə gəl. başın topla. ağlın başıva al. diqqət ed.

saysalınmaq saylanıymaq. izlətilmək. izdətilmək. iztətilmək. izərtilmək. gözlətinmək. incətilmək. qıloyunmaq. qıloylamaq. sincikinmək. maraqla, umurla, diqqətlə baxdırılmaq. -bu soru, dibdən **izlətilməlidir**.

saysalış -**çox özən, saysalış, umur, diqqət, e'tina ilə:** özənə uzana. sarıla sarğana.

saysallı -**çox güdəril, güdürül, güdülü, saysallı, diqqətli:** sayqılı qayqılı. seçimli incimli. kövərək gözənək. özlü gözlü.

saysalmaq saymamaq. saylınmamaq. kəndini bıraxmaq. uğraşmamaq. özənməmək. umursunmamaq. umursanmamaq. diqqət, e'tina edməmək.

saysalmamaq saylınmamaq. halamamaq. önəmsəməmək. usmamaq. aldırmamaq. qıloymamaq. aldırış, təvəccüh, diqqət edməmək. umursunmamaq. umursanmamaq. sincikməmək. taxınmamaq. omuz silkələmək.

saysan **-azı saysan kopalar**. (**kopalar**: çoxalar)**.**

saysana -**üstündə saysana, sayış, hesab kitab görüləməz:** qayranqaç. qayranqaş. qayranc. qayraş. ilgisiz. başısoyuq. başısoğuq. dalqaçı. ipsiz. - **qayranqaçın** biridir: işə yaramazın biridir.

saysana hesab kitab. -**saysanam bitdi**: hesab kitab bitdi, təsviyə oldu.

saysanası **say sanası. -**bu dünyanın say sanası bəllənməz. **(say sanası**: hesab kitabı). (evrəndə yeni könə sayılmaz, əsgi qəhbə yaş qocasına baxmaz).

saysayına **sayısayına.** qaraqarsına**.** ayaqayağına. izi izinə. daldalına. nuxdəbənuxdə.

saysız qaparatsız. önəmsiz. ussuz. əhmiyyətsiz. əhəmmiyyətsiz.

sayşac sayac. kisəçi. sanaqıl. sanaqıc. orac. hesabdar. sanaqıllıq. sanaqulluq. hesabdari.

saytam **saydam**. saydım. saylım. sıydım. sıylım. qayqın. qayqan. liz. daraca. dərik. yoğuz. yuğuz. yasıq. yasıt. sav. saf. silmə. (yapır. yapın. yasır. yasdan. yayvan. hamar. əngəbəsiz). şəffaf. (ləğzəndə).

saytam **saydam.** saylam. sayıla bilən.

saytan soytan. soltan. oynaq. qeyri sabit.

saytanlıq saltasızlıq. salıtsızlıq. soytanlıq. soltanlıq. oynaqlıq. qeyri sabitlik. sübatsızlıq.

saytı **saydı.** sanadı. -**sanadı yaşın sana gəlmədi**, uçuran başı sapa gəlmədi, qanadı oddan, köməyi yeldən, tutmaq istədim qapa gəlmədi. (**qapa gəlmədi**: tutulamadı).

saytım **saydım.** saydam. saylım. sıydım. sıylım. qayqın. qayqan. liz. daraca. dərik. yoğuz. yuğuz. yasıq. yasıt. sav. saf. silmə. (yapır. yapın. yasır. yasdan. yayvan. hamar. əngəbəsiz). şəffaf. (ləğzəndə).

saytıran -**kəndini saydıran:** sayıtqan.

saytırtmaq **saydırtmaq.** sayıtmaq.

sayuz **-**kit qəmuz qayğuz **bizikkimdən sayuz**. (bizi öz dərdizə ortaq bilin). (**kit**: qussə).

sayvan seyvan. seyhan. səhra. gen. açıqlıq. qırqı. çöl. bayır. dışıt. dəşt. (**sayvanlıq**: **seyhanlıq**. çöllük). -susuz yazılara, açıq yerlərə '' **gen** '' deyilir.

sayvanlı -**çatılı, sayvanlı eyvan:** çıpa. çıppa. çıpla.

sayvanlıq **seyhanlıq**. çöllük.

saz **-**(tapmca). -o nədir yetmişiki dil bilir (saz)

-oyunla saz, qız ilə naz ayrılmaz.

-dişim evdə, könül şad, sevim içdə, dəmim çağ, **pulum cibdə, kefim saz**.

-ox atılmış, yay asılmış, **saz qırılmış, tel düşülmüş**.

saz kova. savaqıç. savqıç (içi savıq, boş). ney. giliz. qamış. qazıq. qındıra. -**savaqıç qələm**: ney qələm.

saz qazıq. qamış. kova. kovuq, oyuq çubuq. qındıra.

-saz çalmaq: qazımaq. qazmaq.

saz kovuz. koluz. kəviz. kəluz. qamış. qındıra. kova.

-**qırxından sonra saz çalmaq:** iş işdən keçəndən sonra.

sazan -**sazan balığı**: gavur balığı.

sazanta **sazanda**. qazçı. qazac. qazqır. qazuçu. qazaçı. qaraçı. çalıcı. çalan.

sazıtı -**bağda ərik varıdı, dosluqlarda sazıdı**, bağda ərik qutuldu, dusluqlarda qırıldı.

sazlamaq barıtmaq. -ocaq **barıtmaq**.

sazlamaq sağlamaq. qurmaq.

sazlaşmaq əslənmək. yumşanmaq. köndənmək. çöndənmək. yöndənmək. uysanmaq. uysalmaq. duyar başlanmaq. uzlanmaq. uslanmaq. durulmaq. qoyalmaq. qoyulmaq.

sazlıq qamışlıq. çalılıq. qamışlıq. qazıqlıq. qındıralıq. kovalıq. gəpəz. gür. gübüz. gürəmpə. gürlük. gürüz.

sazlıq **qazıqlıq**. **qamışlıq**. **qındıralıq**. **kovalıq**. 1. qamışın yetişən yeri. 1. duzaq. koraz. çətinlik. quyqarlıq. çıpıt.

sazlıq 1. kovuzluq. kovalıq. qamışlıq. 1. qıran. qıranğ. qamışlıq. qazıqlıq. kovalıq. qındıralıq. **1.** qıyaq. bataqlıq. qəmişlik. qamışlıq. qazıqlıq. kovalıq. qındıralıq.

sebmək istəmək. sövülmək. uzanmaq. çəkmək. iştahlanmaq. dadınmaq. uçuşlamaq. özləmək. uçuçlamaq. uçşulamaq. közəkləmək. köznəkləmək. əsəvləmək. əsvələmək. həvəsləmək.

seç **-seç amaca doğru yol**, əğri amac oğru yol.

-yaşamında seçilmə, **seç yaşa**.

-sevgi əkdin, söygü dərdin qadası, **düz tuxum yer seç biçirərsin lalası.**

-gözəl seçmə **gözəllədən seç**

-yaşamda seçim ana yasa, **ya seç, ya seçil**.

-ürəkdən sev, **başınla seç**. {könül duysun başın tutsun. (tutsun: yönəlsin. təsmimləşsin)}.

seç **-seç seçimin, tut yolun, yoxsa seçim yar yolun**, seçimlə olsa yolun, yaşam dadı min artar. (**yar** : aç. yarat)

-özün ol. doğulmada seçim yox, **kim olduğun seç barı**.

-sevgivə **düşdüyün seç.**

seçə **-kəndi gözündə seçə bilməz dirək**, başqa gözündə , seçə bilmiş qılı**.**

-qul olmağa öğrəşən, çətin tapa düz yolu, **sevilməyə aldanan, seçə bilməz doğrunu**.

-yaşamında kəndi yolun seçməyən, **çətinki o ölməyinə yol seçə**. (yaşın necə sürmüşlügün bilməyən, ölməyidə düşər düşməz olarmış)**.**

seçə -**anlama gücünə, əğri doğrunu seçə bilməyən yeni yetmə:** qıtoğ. qıtoy. qıtuy. korquş. koralmış quş. (**koralmaq**: alqı, duyqu, duyum, sezim**,** hiss axışın, bacarığın itirmək. bihiss olmaq).

seçəməqin **-**yollar sərik yaşamda, **seçilməgin seçəməgin sənlə yar.**

seçəməmiş **-**gicov min kərə yanılmış, **bir kərə seçəməmiş.**

seçən **-damcı (az) ışığ seçən göz:** koramıq. damarıq. qaramıq. qaramuq.

-yaşamda sevdiyi yeri, durumu seçən: xoşaşut. yoşaşut. (xoşnaxud). (xoşnişin).

seçən **-**ər ərdəmi dosdunan, **boydaş seçən xanımdan**.

-sıçan yaşır, seçən yaşır karvan durmaz yolundan, seçimli dur yaşamda, dən götürqıl yoldaşın. **(dən dənğ**: uyqun).

-evliliyin süycüsünü **yanlış seçən**, subay qalan dadanmaz. (**süycüsünü**: dadlılığın. ləzzətini). (**subay**: əşsiz. bekar)**.**

seçənəq **seçənək**. seçim. yeğləş. yeğləmə. ixtiyar. opsiyon. opşın.

seçənəqlərte **seçənəklərde.** seçim gozinələrin içində.

seçəni **-**yaşamaq vergi, yaşadan sənsin, **iyisi kötüsü, yoranı seçəni sənsin**.

seçənin **-**qazaş itiş bir oyun, hamı ona bir qoyun, çalış ona yol qoyun**, yol seçənin düzlügü, yol sonunda bəlgürür.**

seçənlərin **-seçənlərin dəğərin** seçimləri bəlqürür.

seçənlərinti **-yaşam seçənlərindi.**

seçənlərintir **-**yazı budur qazma alıb dərin quyu qaz gilən, çürük iplə ağırdaşla ol quyuya düşmə qıl. **yaşam seçənlərindir**!. (taşutsuz böyük qazanc olmaz) (taşut: daşut. risk. xətər). (yaşam budur su verməsən quruyar, könül olsa qolay yerdən qol atar).

seçənməti **-**gecə gözü seçər qıldan qılı, günüz gözü , **seçənmədi düzü oğrudan**.

seçənməyib **-seçənməyib əkməyən**, istədiyin biçənməz.

seçənməz **-**acıq dadı bilməyən, **bal dadını seçənməz**.

-kəndinə don seçənməz, özgələrə don biçər. (boş, qanıqsız danışan)**.**

-yamançılıq seçməyən, eykuçılıq seçənməz. (**eykuçılıq**: yaxşıçılıq)

-yamançısın bilməyən, **eykuçusun seçənməz**. (**yamançısın**: yamanlıq edənin).(**eykuçusun**: yaxşılıq edənin).

seçənməzlər -heçkəzin bir axmaqla dalaşma, **görənlər sənlə onun arasın seçənməzlər**. (**arasın**: fərqin).

seçənmir **-açıq gözlə seçənmir** , qapıq gözlə axdarır. (çıxarsızlıqla koranlığdan, kütlükdən əksiyi olmayan)**.**

seçənmir **-**kimləri var yaxcıları görənmir, **dadlı acı iyi pisi seçənmir.**

seçəntə **-seçəndə sən boydaşı**, olsun iyik iç daşı. (**boydaşı**: yaşam yoldaşı). (**daşı**: **dışı**)**.**

seçər **-**ana dansa ana dilin, **bala seçər dana dilin**!**.**

-gecə gözü seçər qıldan qılı, günüz gözü , seçənmədi düzü oğrudan.

-hərkəs bir yaşam seçər, seçdiyi yaşamın töləvin ödər.

-tanrı barını doğduğu dildə seçər, diləyin qılığında onilə biçər!. (**barını**: hamını. məxluqatı) (**biçər**: mukafatlandırar)

-ıraq duran ortanı seçər. {hər nəyə qapılırsan kor elər. (**kor elər**: korlar)}.

seçərəq -**yeməyi istəksizcə, sinəsizcə, yenisizcə, meylisizcə seçərək, qurddalayaraq yemək.** kəsləmək.

seçərliq **seçərlik**. seçitlik. muxtariyyət. qocabaşlıq. yöntəmənlik. yönətim üçün seçilmiş olan başaqlıq.

seçərsən **-bu bir seçim, hanqı dili seçərsən**, ol dilədə nökərsən.

-dərdsiz kişi dərdli sözün dinləməz, axmaq, sözdən dəğər almaz anlamaz, **bulqun bolsan söz anlamın seçərsən**. (**bulqun**: arif).

seçərsin **-nə sevdiyin seçərsin**, nə sevənin.

seçi -**ayrım, seçi saçı, fərq, təbyiz, təbi'z qoymaq:** qayırmaq. gözgəmək. qorzamaq. qorlamaq. qorumaq. dalqıtmaq.

seçib **-seçib ayırıb çıxarmaq, atmaq, daşlamaq:** kəmimək. kəmmək. kəmişmək. (əndaxdən. kənar qoymaq). - malların yarısında çoxun **kəmmişdilər**. - bu il öğrəncilərin çoxu **kəmmişdi**.

seçib **-seçib yürüb duran** barqına çatmış, özgələrin tutan avara qalmış. (**barqa**: baraq: mənzil. amac. amal) (**özgələrin tutan:** özgəsinə uyan: özgəsin güdən başqaların sözünə, yoluna baxan, uyan kişi).

-çevrəni bəzər, özü lüt gəzər, türk oğlu türk olursa dana, **çet dilin seçib kəndini əzər.** (**çet**: yad. qıraq).

-yaşayıb seçməkdə var, **seçib yaşamaqda**, dünya çox gendir.

seçib -**seçib almaq:** saylab seçmək.

-**nərsəni seçib ayırmaq:** qıraqlamaq. yanlamaq.

seçiq -**açıq seçik, anlaşılması güc nərsə:** qarışıq.

seçiq -**ayrıq seçik götürməz:** mütəmayiz olanmaz**.** təmyiz olunmaz. -sevmək ilə güvənmək ayrıq seçik götürməz.

-gözdə olan **seçik görünür**. (gözdə olan gözəl görünür).

seçil **-**yaşamda seçim ana yasa, **ya seç, ya seçil**.

seçilən sayılan. saylanan. sayqı dəğər. qiymətli. -seyyidlər içində sayılan seyyidimiz var.

-düz seçilən diləklər, mutlu yaşam sağlatar. (**sağlatar**: tə'min edər)

-yaşamında seçilən, seçdiyini yaşırsa, bul yaşama sözüm yok.

seçilər **-**işdir dosdur yoldaşdır, **tuşlayıban seçilər**.

seçilər **-**korla görən **bir göz ilə seçilər.**

seçili saçılı. qayırlı. dalqılı. dalqışlı. tanalı. tanqışlı. fərqli.

seçilib -**seçilib oxunamıyan yazı:** koraş. koraşı. koraz. korazı.

seçiliq **seçilik. saçılıq.** qayırçılıq. dalqılıq. dalqışlıq. tanallıq. tanıllıq. fərqlilik.

seçilir fərqlənir**. -birbirindən seçilir, fərqlənir:** özara ayratılır**.** birbiriylə tutuşmur.

seçilirti -fındıqsaldıda hər yanın fındığı çox olsaydı, **o seçilirdi**. (**fındıqsaldı**: qozuqsaldı. seçgilərdə səsvermə, rə'y salma yolu, biçimi, formu, usulu).

seçilmə **-yaşamında seçilmə**, seç yaşa.

seçilmək -**başqalarından seçilmək:** saylanıvermək. ayrılı vermək. dalqıcıtmaq.

seçilməqin **-**yollar sərik yaşamda, **seçilməgin seçəməgin sənlə yar.**

seçilmətən **-seçilmədən bir soluqla bir yaşamdı başlayır**, çalış seçin son soluğun gələndə. (**son soluğun gələndə**: işlərivi bitin ölmədən)**.**

seçilməz **-**əğri yolu bilmədən, **düzgünlüklər seçilməz**. (**düzgünlüklər**: sədaqətlər) (yalançılığı tanımayan, sadiqligin nə olduğun bilənməz).

seçilməz tananmaz**. -ürək yurtda erkək dişi tananmaz**, yaman olan iyi alqış alanmaz. **1.** sayrılmaz. -bura haq qapısı qaytı doğru sayılmaz, çirkin gözəl birbirindən sayrılmaz. (**qaytı**: qələt). (baş yarqıc odur. tanrı qapısı hamını alqılar, qəbul edər)**.** saylanmaz.

-ağ qaralı var ilan, **ey kötüsü seçilməz**!. (**ey** eyi. iyi).

-küllükdən kül seçilməz.

-**alçaqlar birbirindən seçilməz**. (-kül külə oxşar. -hər bağlığın öz barı var, hər güllüyün kəndi gülü, hər gülün öz iysi var).

-kişiçilik bir alan, ərkək dişi seçilməz. (**kişiçilik**: şəxsiyyətçilik. qayratçılıq)

-yaxşı yaman seçilməz, ölçək daşın olmasa. (**ölçək**: əyar)

-yoxsa ışıq, **ağla qara seçilməz**. (yağmurluqda yaşar gözlər bəllənməz).

-gecə gözü **qara sicim ağ sicimdən seçilməz.**

seçiltin **-**qismət adlı nərsə yox, **ya seçildin ya seçdin**.

seçiltiyin **-**kimi seçdiyin güdür, **kimi seçildiyin**.

seçim 1.ərim. qozinə. **1.** ərk. azadlıq. -**seçim olsa**, düşünməyə nə qaldı!.

-çoxludan **seçim güc olur**, azlıqdan **seçim yox olur**

-dilənçiyə seçim yox.

-doğru seçim yaşam yolun güllədər, yanlış olsa güllərini küllədər.

-gedmək seçim, **seçim yaşam**

-min yol sezim, bir yol seçim. (**sezim**: yoxlaş. yoxlama)

-ölməlikdən qaçaq yok, **ölməyə yol seçim çok**.

-ən kötü durum, **ən kötü seçim**. -ya ölüm, ya öldürüm.

-yanlış seçim gəlir başa qınamam, yalnızlığın düzlüyünə inanmam. (seçimin doğrulmasa geri oturma, qır dəğiş). (yaşamda hər nə qaytanır (təkərlənir. tikrarlanır), yaşamdan sıvay)**.**

-bu bir seçim, hanqı dili seçərsən, ol dilədə nökərsən.

-yaşam öz başına qurulmaz, çalxanan su durulmaz, asda gedən yorulmaz, **seçim seçiş olmasa, yazın belə yazılmaz**. kəndivə güvən, yaşamla yürən. **(yaşamla yürən**: yaşamla çağdaşlaş).

-yaşamda ağır seçim "yakışanla, yapışan" ortasında durur.

-seçim səndə. -sevgi var yakışar. -sevgi var yapışar.

-seçdiyin seçim, səni seçdirir. (**seçdirir**: mütəmayiz edir)**.**

-bacarışlıq gərəkir, **doğru seçim yapmağa**.

-başqa seçim, başqa yaşam.

-minlər seçim, tək bir sevim.

-yaşamda seçim ana yasa, ya seç, ya seçil.

seçim **-çoxda seçim seçməlik deyil**, yaşamda başa gələn yaşanır.

-seçimlərin alın yazın yazırı, **seçim yoxsa kişi yolun azırı**.

-yalnızlıq baş yazı deyil**, bir seçim**. {yalnızlıq baş yazı deyil, tutduğun yolun sonucu. (seçdiyin yolun sonucu)}

-düşüb qalmaq bir olay, **qalxıb gedmək bir seçim.**

-yaşamda seçim,nəyi yapmağın gərək, nəyi yapmağın gəlir.

seçim **-qadın seçim,** hər kiminə özünkü.

seçim seçənək. yeğləş. yeğləmə. ixtiyar. opsiyon. opşın.

-doğru seçim doğru amac bitirir

-seç seçimin, tut yolun, yoxsa seçim yar yolun, seçimlə olsa yolun**,** yaşam dadı min artar. (**yar** : aç. yarat)

-seçim gücü olmadan, dəğişməyə umut yox.

-güclü seçim, yoğun sicim.

-özün ol. **doğulmada seçim yox**, kim olduğun seç barı.

-yaşam seçim olasılığın həmməşə sənə bıraxmaz. (**olasılığın** : imkanın)**.**

seçim **-seçim**,əkim, biçim.

seçim **seçiş.** saylanış. -**doğal saylanış**: təbii seçim. tənazüi bəqa'.

-**qısıt seçim**: **qıstı seçim**: bir görəvlinin dolmuş iş (görəvlik) sürəsin yeniləmə seçim.

-**qıstı seçim**: **qısıt seçim**: bir görəvlinin dolmuş iş (görəvlik) sürəsin yeniləmə seçim.

-**bir görəvlinin dolmuş iş (**görəvlik**) sürəsin yeniləmə seçim.** qıstı seçim. qısıt seçim.

seçimçil qoltuqçu. qoltuqçul. öznəçil. dərimçil. arxaçıl. yarqaçıl. keyfiyyətçil. başqalçıl. netəlikçil. necəlikçil.

seçimə -hərdən dolur nisgil içimə, **çatmır əlim başqa seçimə**.

seçimin **-seç seçimin, tut yolun, yoxsa seçim yar yolun**, seçimlə olsa yolun, yaşam dadı min artar. (**yar** : aç. yarat)**.**

seçimintir **-kimliyin seçimindir**, gürəşəndə ölür, yatanda.

seçimlə -aşq birinciylə doğur, sevgi birinciylə gedir, **baş seçimlə yaşır.**

seçimlə -seç seçimin, tut yolun, yoxsa seçim yar yolun, **seçimlə olsa yolun, yaşam dadı min artar**. (**yar** : aç. yarat)**.**

seçimlə -yaşamı könüllə duy, **başınla sür**, seçimlə yür.

-könüldə sevginiz var olmalıdır, **seçimlə bacarıq qovuşmalıdır**, böylə bir durmuşun yaşanmalıdır. (**durmuşun**: yaşamın).

-seçimlə gələn könüllə gedmir, təpiklə gedir. (seçimlə gələn seçimlə gedmir, təpiklə gedir). (iran adlı ölkədə evliliklərin çoxunu belə bitir, sevgilər itir, könüllə kitir).

seçimlər -bacarışlı **doğru seçimlər yapmış**.

seçimləri -seçənlərin dəğərin **seçimləri bəlqürür**.

seçimlərin **-seçimlərin alın yazın yazırı**, seçim yoxsa kişi yolun azırı.

seçimlərtir -yaşam bu!bizi, **biz edən seçimlərdir**.

seçimli -sıçan yaşır, seçən yaşır karvan durmaz yolundan, **seçimli dur yaşamda**, dən götürqıl yoldaşın. **(dən dənğ**: uyqun).

seçimli -**seçimli incimli:** sayqılı qayqılı. kövərək gözənək. özlü gözlü. çox güdəril, güdürül, güdülü, saysallı, diqqətli.

seçimtə **-**mutluq gülü içində, **əkib qurmaq seçimdə**. (mutluq içdə doğur)**.**

seçimtə **-**sürmək üçün bir yolun, **seçimdə var min yolun**.

seçimtən **-dəğişmələr seçimdən doğur.**

seçimtir **-seçimdir yaradan bizi**, yaşadan eyni pisi. (**eyni: eyini).**

seçin **-**gülməz üzə sürən devran həmişə, **çalış seçin doğru yolu düz işə**.

seçin **-**seçilmədən bir soluqla bir yaşamdı başlayır, **çalış seçin son soluğun gələndə**.

(**son soluğun gələndə**: işlərivi bitin ölmədən)**.**

seçin **-**yaşamı qoyub düşünmə, **yaşamı seçin üşünmə**.

seçin **-seçin**,əkin, biçin.

seçir **-könül seçir sevgini**,baş onayırsa oni, uçmuq olur çevrəniz. (**uçmuq**: cənnət)

-göz gördüyün seçir, könül sevdiyin.

-kəndi gözündə seçə bilməz dirək, **başqa gözüdə , seçə bilmiş qıl.**

-kişioğlu çoxun seçir 'kəndi kəndin aldatsın'. (**çoxun:** əksərən**).**

seçiş **-**yaşam öz başına qurulmaz, çalxanan su durulmaz, asda gedən yorulmaz,

seçim seçiş olmasa, yazın belə yazılmaz. kəndivə güvən, yaşamla yürən.

(yaşamla yürən: yaşamla çağdaşlaş).

seçiş **seçim.** saylanış. -**doğal saylanış**: təbii seçim. tənazüi bəqa'.

seçit sicill. kimlik. şinasnamə.

seçitlə -**seçitlə yaşa**, saçıtla yox. (**saçıtla**: şansla. düşətlə. uğraşıtla)**.**

seçitliq **seçitlik**. seçərlik. muxtariyyət. qocabaşlıq. yöntəmənlik. yönətim üçün seçilmiş olan başaqlıq.

seçitmək saçıtmaq. qayırmaq. dalqıtmaq. tanıtmaq. tanatmaq. tanğatmaq. bilgitmək. fərq qoymaq.

seçqilərtə -**seçgilərdə səs vermə, rə'y salma yolu, biçimi, formu, usulu:** fındıqsaldı. qozuqsaldı. -**fındıqsaldıda** hər yanın fındığı çox olsaydı, o seçilirdi.

seçqin **seçgin**. seçmə. qapalaq. qabalaq. qabaca. qabacalaq. qaban. iri. qos. çuqar. çoqar. çomar. tanığ. tanğıl. tanğal. kökcək. köksək. köksük. qopar. qotan. kotan. böyük. kökərək. kökələk. - **qabalaq** düğü dənələri.

seçqinliq **seçginlik.** muxtariyyət. qocabaşlıq.

seçmə **-**bıraxmayıb ağız deyib qulaq duyan sözləri, **evlənməyə gözlə seçmə qızları.**
-qulaq duysun sözləri, **evlənməyə gözlə seçmə qızları.**
-gözəl seçmə gözəllədən seç
-dul gözilə **əş seçmə**.

seçmə seçgin. qapalaq. qabalaq. qabaca. qabacalaq. qaban. iri. qos. çuqar. çoqar. çomar. tanığ. tanğıl. tanğal. kökcək. köksək. köksük. qopar. qotan. kotan. böyük. kökərək. kökələk. - **qabalaq** düğü dənələri.

seçmə -**nərsənin dərdə dəğən bölümün götürmə, seçmə**: gülləmə.

seçmək -**qurdalayin ən iyisin seçmək, tanlamaq:** kavzalamaq. kovzalamaq.

seçmək saylamaq. -duran günün **saylansın**, keçən günlər **saylanmaz**.

seçmək -**tuxumluq üçün, iri başaqlıları, başlıları seçmək, tanlamaq:** kəllə çəkmək.

seçmək saylamaq. tanlamaq.
toranlıq toran. qaranlıq. (tirə. tarik). pus **(bük).** - **pus düşmədən**: qaranlıq enmədən. - gözləri **puslanmış**: toranmış. - **ala pusan**: ala toran.

toranta -küçük təpə kölgəsi , **böyüksünər toranda**. (boy atırsa axmaqların kölgəsi , qoyar günəş üzün yürür batmağa). (böyür axmaq kölgəsi , günəş gedirsə batası). (yamanlar, pislər qaranlığı gücləndirər. bilgisizlərə, kahıllara ‘‘yaman’’ böyük görünər).

toratan 1.atator. duzağçı. **1.**buça**.** (**burça**). bürümcək.cıddan toru.

toratan torumca. hörümcək. kəlatan. kələfatan. kələkatan.

toratan 1. **koratan**. **çoratan**. hörümcək. 1. qurquçu**.** qurnuqçu. qoynıqçı. qurqaçı. qurqançı. qurqaşçı. qurqatçı. qurquçu. qurqunçu. qurquşçu. qurqutçu. qurucu. quynıqçı. burnuqçu. dolab çevirən. kələk quran. düzməçi. dartac. totiəçi. desisəçi.

-**çatı bucaqlarında oluşan toratan toru, qurumu, boru için arıtlamaq üçün ucuna bağlanan parça, cında:** qurbağı.

torba **. 1.** kəvəltə. kəvələt. kiçik çuval. kəvətir. küpə. kiçik küp. heybə. yançıq. **1.** qılıf. qılıv. qınıv. heybə. yançıq. qubur. < qabur. qapur.

torba **-kiçik torba:** kavcar. kavçar. kavcır.

torba **-**qışda çıxıb yaz gəli, **tikib bitincə torba**, dizdən olunca yonca.

-yonca bitdi, **torba tikdi**, eşşək öldü.

-yonca bitər**, torba tikər**, eşək qalsa yər.

-**ortasından çiğindən asılan iki qollu, başlı, ağızlı torba:** çatanağ. heybə.

-yandan, böyürdən, kürəkdən aslanan torba, kif, bağlı: yan tobra**.** çanta. çantağ. yantağ.

-yan tobra: yandan, böyürdən, kürəkdən aslanan torba, kif, bağlı. çanta. çantağ. yantağ.

torba -**yasıt torba**: kağız torba.

torba 1. kisə. 1. qılıf. qubur. < qabur. qapur. 1. qovuğ. qoğuq **(**< **kov**) **. 1.** qılıf. kələk. quraq. eşvə. eşvəl. işvə. işvəl. qurbağ. qurbal. qurbac. aldağ. 1. qoğuq. qovuğ (< **kov**) . 1. qovuğ. qoğuq **(**< **kov**) . 1. qoltuq. heybə. yançıq.

torbacıq -**dişi ərkək sevişməsində, ərkəkliyi tuxumluğuna ət ətə dəğməməsi üçün, ərkəyin ərkəkliyinə keçirilən qoğuq, torbacıq:** qoğuc. qoruc. qapuc. qapuş.

kandom. pirezervativ.

-**körpə uşağ daşıma üçün qucağa, kürəyə bağlanan torbacıq:** götürgə. götürək.

torbaçı kisəçi. .

torbalamaq kisələmək. qılıflamaq. kələkləmək. aldatmaq. quburlamaq. < qaburlamaq. qapurlamaq.

torbalı **-torbalı, uzun, sallaq məmə**: kavuq <> qavqu <> avuq <> avqu <> ovuq <> ovqu <> oğuq <> oğqu. - **kavuqlu** davarsütlü olur.

torbası **-**bitilmişsə yoncası , **tikilmişsə torbası**, eşşək ölmüş nəyinə

-dilənçinin xurcunu dolsada, **göz torbası dolmaz**.

-**əl torbası, sakı, kifi:** çarığ. yarığ.

torbası -**qasıq (**fətq**) bağı, torbası:** götürgə.

-**at eşşəyin başına taxılan yem torbası:** qıyıncı. qıyınçı. qıncı. qınçı.

torbasın **-**azıqsız çıxan yola, **gəzər gözü el torbasın**.

torbata **-**azıqsız yola çıxanın **iki gözü torbada qalar**.

torbataqın **-**küpçü bilir küpdəkin , **torbadakın dilənçi**.

torbataqın **torbadakın.** çuvaldakın. heybədəkin. -çuvaldakın dilənçi, qabdakını yeyənçi bilir.

torbava **-**istəklə sevincin ayı doğmaz, **əl çalmaq ilə, torbava dolmaz.**

-dilənçi yanında **əl torbaya girilməz.**

torcalamaq tutcalamaq. duzaqlamaq. ilgəkləmək. ilməkləmək. tələkləmək. cələkləmək.

torıq qursaq. baş. ağıl. əğl. zəka.

torqa torqa. uşaq. axmaq. -ata oğul dış bolmuş, doğma doğan yad olmuş, **torqa başlar baş olmuş,** şoraqlıqda göy çıxmaz, böylə eldən el çıxmaz. **(dış bolmuş**: yad olmuş). (**doğma doğan**: qohum tanış). (**şoraqlıqda: çoraqlıqda**).

torlamaq toğlamaq. toxumaq. əğirmək. əkirmək. (birbirinə) əğləmək. əkləmək. eşmək. hörmək. bükmək. bağlamaq. saplamaq. çevirmək. dolamaq. döndürmək. dürçələmək. bürgələmək.

torlu -**ağdan balıq alma üçün, torlu, ağlı kəpçə**: gədəl. (< . 1. **gəvəl**: **oyuq . 1**. < **gəpəl**: **qapal**: **qapma aracı**).

torlu ipək. -altı qat ağ torlu yapınc: altı qat ağ ipək yorqan. (**qat**: sıra. qur).

torluq **turluq.** salıq. bayraqlıq. devlət yeri. rəsmi yer. idarə.

tormuz -**tormuz vurduqda təkərlərin sürüşməsi:** qazağ yapmaq. qazaqlamaq. (qazaq: qızaq. qıyaq. qayaq. yüngül görəvli kimsə).

toroşqe **doroşke**< **daşqa**. daşıqa. qanğı. qağnı. qaynı. qonqı. qonqa. qaydırıb, sürüb, sürükləyərək daşıma aracı.

torpaq bax > **topraq.**

torpaq **-**batı doğu yerində, **başqa torpağ neylərəm**, kəndi evim yurdumda, günüm doğsa düz doğar.

torpaqa **-**gündüzün günəşə, gecənin aya, uşağın anaya, quşun yuvaya, **ağacın torpağa, torpağın suya**, yalğının yaluğa gərəksini var. (govgan). (**yalğının yaluğa gərəksini var**: insanın insana ehtiyacı var).

torpaqın **-**gündüzün günəşə, gecənin aya, uşağın anaya, quşun yuvaya, **ağacın torpağa, torpağın suya**, yalğının yaluğa gərəksini var. (govgan). (**yalğının yaluğa gərəksini var**: insanın insana ehtiyacı var).

torsu **-incə, yufa, tül (tor), torsu tutu, pərdə:** önüc. önc. - gözünə **önc** gəlmiş (naxonək). - başı **önclü** gəlin.

tort -**suyuq nərsələrin üzərində yığılan tort:** gərəylənmək.

torta qılta. qalta. qınta. qıyımıq.

torta **-**nə çox sevən bacarmamış sevməsin, **düşən torda kəndi görmüş ölməsin**.

torta tot. qıyımıq. çöp. çöküntü. kilkə. gilgə. kitgə. xılxa. -yağ **kilkəsi**.

torta qıyımıq. qalıntı. -**qıyımıqlı yağ**: nehrədən çıxan tortalı yağ.

tortaqi **-yoğurt, boza (**şərab**) dibində qalan köçək, dürd, torta ki yoğurt çalma, boza qoymağa yarar:** qur**.** maya.

tortalı -**nehrədən çıxan tortalı yağ:** qıyımıqlı yağ. (**qıyımıq**: qalıntı. torta).

tortası -**ərimiş yağın, quyruğun tortası:** qırqa. xırqa. qoğutdaq. cızlıq.

toru **-**doğru yalan açılsa, **düşman toru pozular**. (doğru yalanı açarsan, düşman torun qırarsan).

-cıddan toru: buça**.** (**burça**). bürümcək. toratan.

toru -**çatı bucaqlarında oluşan toratan toru, qurumu, boru için arıtlamaq üçün ucuna bağlanan parça, cında:** qurbağı.

toruq 1. **toruk.** rəsmi. -keçmişin **toruk qaynaqlarına** güvənmək olmaz. qıyın qıyçaq (zalim zülmkar) buğaların devrində doğru ötük yazıla bilər mi??.**1.doruq**. uluc.zirvə.

toruq **doruq.** kəli. kəltə.

toruq **doruq.** qartın. zirvə. dağ təpəsi.

toruqtan **-doruqdan dabana**: təpədən tüpənə. kəllədən tipənə.

toruqu -**dağların təpələrin doruğu, təpəsi, sırtı:** gəriş. geriş.

toruqun **-**dərə yudun sel almış, **dağ doruğun yel çalmış.**

torula **-**gedi evrən. -**keçib gedər heç torula tutulmaz**, yoğundu bu darboğazla utulmaz, sevgiyə vermənin var əsirgəmə vergilən, verməyinlə sevgi kanı qutulmaz. (**gedi**: keçəri)**.**

torumca toratan. hörümcək. kəlatan. kələfatan. kələkatan.

torun **-ərkək uşağdan olan torun, nəvə:** oğulbalı. oğul torunu, ağtını, axtını.

torun **törün.** enənlər. döl döş. dən döş. firu'. əffad.

-ipək üzlü , can üzücu ilanlar. sanma qıraq kəndivi. **çoğunlayar iyilərin çevrəsin, torun qurar baş alıcı dən səpər.** (**çoğunlayar**: çörəklənər. çəmbərləyər)**.**

torun qıdıl. qıtıl. xıdıl. qardaşoğlu. qardaşqızı. bacoğlu. bacıqızı.

-çoğun bizə əğri bakır, əl oynadır avsun oxur, **yol ortası dənə tökər, torun qurar başımıza.** (**çoğun**: fələh).

torunu **-**oğul torunu, ağtını, axtını: oğulbalı. ərkək uşağdan olan torun, nəvə.

torut 1. {**dorud** (fars)}. **durut** > dursun. yaşasın. **1.** (> **dorud**(fars): yaşa). **<** durud. qaldır. yaşat.

tos -bağışlamadan **dos qalmaz.**

-dos doğru dos, gərəkli gün dos qalar, **iç oğru dos**, gərəkli gün pox olar. (**pox olar**: yox olar)

-bağışlamaz, **dos tapmaz**

-dos kimliyi qara gündə bəlqürür.

-dərək bilsə yeni gəlsin yad deyil, **dərək bilməz əski olsun dos deyil**.

-çin dos tapsan qın gündə, qulluğun ed hər yöndə.

-unutmaqdan qolayın tapmamış o, **gələnlə dos gedənlə yad olarmış.** (**qolayın**: qolay iş)

-altun yaraq, **dos inaq**. (**inaq**: andaş). (**yaraq**: arac)

-dəniz kimi xoşgörülü, topraq kimi alçaqkönül, yuturqan, dağ kimi ulqarlı, sel kimi ilqarlı, eykuluq, yardamda axarsu tək, ısıq ısğutda günəş kimi, dos kəs kütün örtmədə gecə kimi, qızıb öfgədə ölü kimi ol. (**yuturqan**: mütəvaze'). (**ısıq ısğutda**: rəhm şəfəqətdə). (**kəs kütün**: ayıbların)

-sayqalı dos ağrışmaz, sayqasız dos barışmaz. (**ağrışmaz**: inciməz). (**sayqalı**: hesablı). (**sayqasız**: hesabsız).

-azaşdığın kim aydar, **doğan aydar dos aydar**, düşən yolun doğru deb, yağu aydar yoz aydar. (**düşən yolun**: batası yolun) (**doğan**: qardaş). (**deb**: deyib)**.**

-dosdunisə ver gedsin, **dos değilsə at gedsin**.

-yalançı, dos başın yeyər.

-tos toğalaq qızıl daş, tümün açun andən xoş. (**tos toğalaq**: gip girdə). (**andən**: ondan)(**tapmaca). (gün).**

-dos verən gülüm, tikansız olur!**.**

-əlivi sıxır, **dos demə,** canıvı sıxır, yoz demə. (**yoz**: yov. düşman)**.**

-bilgi artır dos becər, düşman ocaq başında.

-yalançını dos görən, uzun gedməz üzülür, ulların saymıyan, yaşam sürməz, sürünür.

-önyarqıdan yad olur, **düz ilqarlı doğru dos**. {**önyarqı:** soxa. qərəz. (pişdavəri. prejüj)}.

-görünsədə düz, bulğan gedər içində, **görünsədə dos kimi**, əsgi düşman dosd

olmaz.

-düzgünə dos az olsada uz olar.

-düşman ayaqa, **dos başa baxar**. (kişi ayaqdan yıxılar, başdan qalxar). (düşman ayaqa baxdıqda, sənin yıxılmağıvı özlər, güdər, dos başa baxmaqda sənin ucalmağıvı ölçər).

-kəndivi düşün, kəndivi tanı, kəndivi bil!, **dos deyirsən**, kəndi özün tanıtsın.

-dos dosda ulaşsın, qan qana bulaşmasın.

-nədə çox dos tanışın olsa sənin, dar günündə tapmağı qın arasan bircə kömək. (**qın**: zor)**.**

-igit gürəşdə, **dos darlıqda**, aşqın acrıqda. (**igit**: gənc. güclü). (**darlıqda: darıtlıqda**: giriftarlıqda). (**aşqın**: pişmiş. təcrübəli). (**acrıqda**: acrqlananda. qəzəbdə)**.**

-yaxşı isən dos tapılar, gedər isən yol tapılar, işləyirsən pul tapılar.

-yaz bayramı iş çağlamı, kef oyçamı, **dos toyçamız** qutlu olsun. (**oyçamı**: əyyamı). (**toyçamı**: toylanma çağı. yığnağan oy)**.**

-qəhbə yalnız tən satar, **könlü qəhbə dos satır**.

-yalan yalın qalmaz, **doğru dos tapmaz**. (**yalın**: lüt. tək)**.**

tos **dos**. sağdıc. sağdış. yoldaş. qayran. qayğıran. (< **qayğımaq**: qayğısına, dərdinə qalmaq). qarran. qarıyan. (< **qarmaq**: **baxmaq**. **gözləmək**) > **nigəran.**

-əsirsə yel oxşasun saçun, yağsa yağış sulasun bağun, **çevrə bərin dos tanış dolu, daş əzsin başun hardasa yağun.** (**yağun**: düşmanın)

-dos dosduna börk qoyar, özgə baxar mat qalar.

tos **-**doslar içidə həkim az tapılır, **həkimlər içidə dos**.

-unut unutanı, **dos tuttunsan tanı**.

-hey dos mənə, tutanmırsan əlimdən,ayağımdan qaydırma.

tos 1. **dos.** kimsə. sağdıc. sağdış. yoldaş. tanış. çox **kimsəli** biri. **1.** kirvə. kitvə. yaxın. yar. arxadaş. sağdaş. sağdış. sadıç. göldəş. könüldəş. tutşı. tutşu.

tutsu. tuştu. tuşsu. ortaq. qıcım. birbirinə çox yaxın, sıxı bıkı arxadaş. kiprə. kirvə. oğur. oğuş. quraş. -o mənim **qıcımdı**.
-görmüşüdüm gül kimi, tikən kimi batındı, **sanmışıdım dos kimi, yılan kimi soxuldu**, kor mənidim baxa baxa görmədim, yaşım keçdi gəncliyim savuldu.
-**yaxın yar, arxadaş, dos:** girvə. kitvə. kirtə.

tosbaqa **tosbağa**. qaplumbağa. keşəv. çəkəv.

tosca **-xoşca qalın dosca qalın !**.

tosçulluquz **-**gopbaçılar dosçulmuş, **doğru yolda dosçulluğuz gərəkməz**.

tosçulmuş **-gopbaçılar dosçulmuş**, doğru yolda dosçulluğuz gərəkməz.

tosi < **tozi** >(> **tusi) < tozuq.** kül bayası.

tosqa tusqa. tuzqa. qızılağac. alış. alaş. qolay işlənən ağac türü.

tosquna posquna. pusquna. duzağına. cələsinə. tələsinə**. -**avına boysanar çimənli düzlər, çimən solar , ceylan qaçar əylənməz, **bilgə aydar bilən dosduna, kim olar düşməsin ölüm tosquna**, çoğun fırlab salar yerin astına, qalan olmaz kimsə burda əylənməz**.** (**tosquna: posquna**: pusquna. duzağına. cələsinə. tələsinə). (**bilgə**: həkim. hikmətçi). (**çoğun fırlab**: fələk fırladıb).

tosla **-**doğma yurdun dəyəri, yadın yurtda bəllənər, eyi dosdun dəyəri, yaman dosla bəllənər. (**yadın**: yaban. biqanə).

toslamaq **tosulamaq**. kəlləmək. sozulamaq. buynuzlamaq.

toslamaq kəllələmək. buynuzlamaq. küpmək. küpləmək. güpmək. güpləmək.

toslar **-**aşıq deyər içindən, düşman deyər eşindən, **dəli söylər hər gələ, doslar deyər olandan**. (**eşindən**: kələk olan, uydurma işlərindən)

-dargündə tutan dosd əli **doslar yaşasın**.

-doslar sağ olsun. (sağlıq)**.**

-kitos, əğri yalançıdan dosd olmaz, **sınağ düşsə, sınar doslar yar qalmaz.**

(**kitos**: ikiüzlü).

-dar yer pis gün, çıxmazlara düşəli, sınağ düşdü, doslar sındı yar qaçdı.

-iyi qoşlar yaşlanınca **iyi doslar**. (**qoşlar**: cütlər)**.**

-kitoz doslar, yolara boşlar. -əl üz yuğuran, ayağ qaydıran sabın kimi doslar.

(**kitoz**: iküzlü).

-kitoz doslar, yolara boşlar. -**əl üz yuğuran, ayağ qaydıran sabın kimi doslar.**

(**kitoz**: iküzlü).

toslar **-**doslar içidə həkim az tapılır, həkimlər içidə dos**.**

tosları **-**sevgilər günü təkinə qalan, **alahı günlər dosları yalan**.

-yaman çağun dosları, güşatlıqda alnı açıq gəzirlər. (**güşatlıqda**: <gövşadlıqda. açıqlıqda. fərahlıqda)**.**

-sən dosları sorağla, düşman ocaq başında.

-yaman günün dosları, gündə durmaz yol üsdə. (yaxcılar az raslanır)**.**

tosları **-gəlinin qızlıq dosları:** qısalqı. qızalqı. -**qızalqılar** qız hamamına gedirlər.

toslarım **-söyləyib sırlar içidən mənqə barça doslarım**, xoş qılurlar təkməni, eyləb oratuq qəmləri. (**təkməni**: mən təkini. həqiri. bəndəni). (**oratuq**: müştərək).

tosların -**gəlinin dosların yığıb verdiyi yeməkli qonağlıq:** qırıntı.

toslarıvı **-doslarıvı artırma, doslarıvı arıtla.**

toslarıvın **-tükan olsa doslarıvın ovlağu**, alver köçər , çıxar onun çovlağu. (**çovlağu**: şoru. çürüyü)**.**

toslaşmaq 1. **doslaşmaq**. dosd edinmək. giriklənmək. qırıqlanmaq. qırınlanmaq. -hər gələnlə **qırıqlanma**. **1.** qırışmaq. qıraşmaq. boğuşmaq. oylaşmaq. gürəşmək. vuruşmaq. sancışmaq. süsüşmək. sosuşmaq. buynuzlaşmaq.

toslaştırmaq **toslaşdırmaq.** qıraşdırmaq. qırışdırmaq. boğuşdurmaq. gürəşdirmək.

toslu **-**uslu özün övməz, **doslu kişi təkəz qalmaz**. (**təkəz**: **təkiz. təkin**. yalın. köməksiz. tənha < **tanqa**).

toslu -**çox doslu kimsə:** qırxqırıqlı.

tosluq **dosluq.** isiniş. isinim. isniq. isnişiq. ısnış. ısınış. ısınım. isnıq. ısnışıq. ısıq. sevgi. tutluq. sıypa. sığpa. (sıypa. əriklik. ərimlik. əriplik. əriçlik. ərislik. mulayimət. müdara). mehr. məhəbbət. şəfəqət. şəfqət. -el ilə **ısıqlı** ol. -**ısnışığın** çəkiylə göstərirdi: məhəbbətin, sevgisin damcı damcı verirdi, tərazıyla çəkib verirdi. -qurulmamış dünya sevgi təməlində, qurmalısın onu, isti əllərində, isti sözləridə.

tosluq **dosluq.** islik. isiklik**.** məhəbbət. -**islik** könüldə gərək.
-alver dosluq götürməz, bütöv ağız hər bir söz ötürməz.

tosluq **dosluq.** qardaşlıq. sevgi.

tosluq **-iyi dosluq üçün**,-oxşarları tap, ayrıqları bil. (**bil**: tanı. e'tiraf ed. qəbul ed).

tosluq **dosluq**. 1. tutşılıq. tutşuluq. tutsuluq. tuştuluq. tuşsuluq. kirvəlik. kitvəlik. yaxınlıq. yarlıq. arxadaşlıq. 1. (**əş <> daş**) yelkəş. yeltəş. yalqaş. yaltaş. kipərlik. kiprəlik. sevgilik. yarlıq. arxadaşlıq. 1. qoxaş. qoxuş. qoxuc. qoxac. qoxluş. qoxluc. könüş. kövüş. canış. çalış. söyük. söylük. sevlik. sevlik. məhəbbət. mehr.

tosluqlarta -bağda ərik varıdı**, dosluqlarda sazıdı**, bağda ərik qutuldu, **dusluqlarda qırıldı**.

tosluqlarta **-dosluqlarda küsmə barış olası**, sevgilərdə nə küsməyin yeri var, nə barşığın adı.

tosluqu **-dosluğu uca tut**. -sözün dosd ağzına dadlısı, düşmanlara ağrısı gəlsin.
-dosluğu var bir itin, cana dərman, bir dosduvun itligin, yağu alman. (**alman**: almaz).

tosluqu **-**ölçüsüz bazar **dosluğu pozar**.

tosluqun **-olursa tuş qırıqlarla dosluğun**, qaçır çağın, qısatmadan ömrüvü. (**qırıqlarla**: yanlışlarla: pozuqlarla).

tosmaq tavuşmaq. səs çıxarmaq. -yanmasa düdməz, **düşməsə tosməz**.

tosman **-dosman başan baxar**, düşman ayağan. (dos baş ucalığın güdər, düşman ayağın altın qazmağı).

tosməz tavuşmaz. səsi çıxmaz. -yanmasa düdməz, **düşməsə tosməz**.

tossuz **-**dosdu kəndi dışında arayan, **dossuz qalar**.
-kişi qalırsa dossuz, dərdin deməz gəbərir, kişioğlu çəkənməz, bölüşməli dərd olsa.

tossuz **-dossuz başım** ,duzsuz aşım. (əli,könlü açıq çörəyin tək yeyənməz)**.**

tossuzta **-**dosda bağlanma, **dossuzda qalma**. (dosda bağlan, qapılma, dossuzda qalma).

tost **-dosd arama çiləsiz**, el söyləyir biləsiz. (**çiləsiz**: dərdsiz)
-öz yağında öz yağınla kəndin üçün ışıqlan, **dosd olmaza, yad ellərə öz yağınla yaxuşma**. (**yaxuşma**: yaxınma. yanma)**.**

tost **-**saçağı güdən **dosd olmaz**. (**saçağ**: süfrə. yemək astarlığı. **asdarğan > dəsdərxan**)**.**

-dargündə tutan dosd əli doslar yaşasın.

-dosluğu uca tut. -**sözün dosd ağzına dadlısı**, düşmanlara ağrısı gəlsin.

-yaxcı elər pis elər, **hər nə elər dosd elər**. (kişi bildiklərindən tanıdıqlarından öğrəşir)**.**

-altın ayır dosd artır, düşman ocaq başında.

-görünsədə düz, bulğan gedər içində, görünsədə dos kimi, **əsgi düşman dosd olmaz**.

-əldə malın, qolda gücün, başda usun olursa, **düşman dönüb gələr sənə dosd olar,** yoxsul olsan qaçar səndən dəh döşün, yaman çıxar yaxcı qılığ işlərin.

-kitos, əğri yalançıdan dosd olmaz, sınağ düşsə, sınar doslar yar qalmaz. (**kitos**: ikiüzlü)**.**

-oğul beldən, **dosd ürəkdən**, arvad eldən.

-andlı yağu, dönən yardan **dosd olmaz**. (**andlı yağu**: əsgi yağu). (**dönən**: sözün, bəfasın qıran)**.**

-su küzədə, gün bacada, **dosd ürəkdə durur**, içi gülməz, dosdu saymaz, durmuşundan olur. (**durmuşundan**: yaşamından)**.**

-gözü poxda olacaq **qarqa ilə dosd olanın**.

-yamandan yeğ küsərmiş, yaman yeğdən küsənməz, dartmaz qoymaz dənini. **yamanla dosd olan son, paysız qoymaz dosdunu** (**yeğ**: yaxşı)**.**

-bir gülüşlə **dosd olmaz**.

-**dost, yoldaş axtarmaq:** əşirgənmək.

tost -**dosd edinmək**: doslaşmaq. giriklənmək. qırıqlanmaq. qırınlanmaq. -hər gələnlə **qırıqlanma**.

-ağsa yoxsul, düşman belə dosd olur, düşənlərdən, ən yoxunlar yox olur. (**ağsa**: yüksəlsə).

tosta **-köçdüyün yeri dosda satma**, yaman atı yoldaşa.

tosta -uzun dərin bolluğuna bir yaşam, **arzulayaq hər bir dosda ürəkdən**.

-paravı dosda bildirmə, bilgivi yağuya.

-dos dosda ulaşsın, qan qana bulaşmasın.

-dosda bağlanma, dossuzda qalma. (dosda bağlan, qapılma, dossuzda qalma).

-dosda eşmədən ver bir telin , əğrilirsə qır qutar. (**eşmədən**: qatmadan. ipdən). (ipin ucun özgəyə vermə).

-bacqardaşın dosdunisə nə yaxcı, **dosdan mosdan bacqardaşlıq çıxanmaz**.

-evin yıxar kişinin, dosdan gələn dönüklük, düşman verən yönüklük. (**yönüklük**: tədbir)

-aldan ala düşərmiş, **uyan yada dosda, doğan olub yoldaşa**.

-yaxcı dosda can qurban, yerin tutmaz yaxçı olsa qardaşın.

tosta -**qının dosda aytma koni göynədi**, qının yada aytma koni söynədi. (**koni: ki oni**). (**söynədi**: sevindirər)**.**

tostan **-düşman dosdan tez tapar**, yaman yamanın yapar. (düşman ocaq başında, dosdun qapı dalında).

tostan -əsgi yoldan **əsgi dosdan** ayrılma.

tostoqrusu **-dosdun düzü içində qalır, dosdoğrusu sənin**lə **qalır**, yoldaş tanış pay gözlər, umut güvən sinində yatır. (**sinində**: içində. ruhunda).

tostu **-dosdu kəndi dışında arayan**, dossuz qalar.

-qazan başında yağu, **çalış qazan dosdu sən**.

-ən gözəl dosdu durur hər kəsçün kəndi özü.

-su küzədə, gün bacada, dosd ürəkdə durur, içi gülməz, **dosdu saymaz**, durmuşundan olur. (**durmuşundan**: yaşamından)**.**

-bilinməmiş doğma yurdun törküzü, özgə yurda aşmasan, bəllənməmiş doğru dosdun untayı, **yaman dosdu görməsən**. (**törküzü**: yararlığı. dəğəri). (**untayı: (onat:** dik. düz. uca**).** bahası. dəğəri).

-pulu sana, **dosdu sına.**

-eşit qıl dosdu yarı təklik olmaz əşimiz, tikə ağır olsa işimiz, bir bir qırar qoymaz qala dişimiz.

tostu **-yarmadı çağun ər arvadlığa, dosdu tutun üç günluğa**, sürsə uzun vur ged başa, sürmədisə vur çıx daşa. (**yarmadı çağun**: doğru fəsil olmadı. uymadı zaman).

tostu -**yazıçı dosdu:** qələm arxadaşı**.**

tostu -**yemək dosdu**: xaşalqardaş.

tostum **-**oğul sana söylədim, dosdum sözdən anlaqıl.

-dosdum dönə çıxdı, itim dona qaldı.(**dönə**: bəfsız) (**dona qalmaq**: şaşmaq. mat qalmaq).

-dosdum olan güzgü kimi aytar manım üzümə, yağum olsa gülgü ilə manım örtər gözümdən. (**manım**: aybım)**.**

tostun **-dosdun çini** qın gündə.

-ən gözəl güzgü **dosdun gözü**.

-dosdun içi düz gərək, qoşluq tayı tuş gərək. (**qoşluq**: cütlük)

-dosdun görsən kişinin, sonu bəllər işinin. (**görsən**: tanısan).

-qıyşıq buruq, uzun olsun yol olsun, yaman oğul, **kitoz dosdun olmasın**. (**kitoz: kitos**. iki üzlü, kinli).

-doğma yurdun dəyəri, yadın yurtda bəllənər, eyi dosdun dəyəri, yaman dosla bəllənər. (**yadın**: yaban. biqanə)**.**

-dosdun yoxsa yaşamda, **könül bağın açılmaz**, söylə dadlı dadlı duy, dil çiçəkdir suvarmasan göverməz.

-bilinməmiş doğma yurdun törküzü, özgə yurda aşmasan, **bəllənməmiş doğru dosdun untayı**, yaman dosdu görməsən. (**törküzü**: yararlığı. dəğəri). (**untayı: (onat:** dik. düz. uca**).** bahası. dəğəri).

-işlər pulun, aran yarın, gedən yolun, yaran dosdun, yatan yastın, yolçu çustun tapar. (**işlər:** işləyən). (**aran**: arayan). (**yaran**: uğur yetirən). (**yastın**: çöndəmin. yöndəmin). (**çustun**: çarığın. ayqqabın)**.**

-könül dostun tapar, istəyin yapar.

-bu gün günü, **sayğar dosdun**, yarın gəlsə gec olur. (bu gün çağıdır, yo mluyacaqsan dosduvu yoxla, yoxsa yarını güdsən olsunki gec ola).

-oğru gəlib bulduğun alar, **dosdun gəlib bildiyin yapar.** (oğru tanınmaz, dosduvu tanı)

-eyi dosdun olduqda, güzgü sana gərəkməz.

-birinə güvənən, kəndin aldatır, güvəndirən, dosdun**.**

tostun **-dosdun düzü içində qalır, dosdoğrusu səninlə qalır**, yoldaş tanış pay gözlər, umut güvən sinində yatır. (**sinində**: içində. ruhunda).

tostun **-dosdun ikiz**, düşman sekiz.

-düşman ocaq başında, **dosdun qapı dalında**. (düşman dosdan tez tapar, yaman yamanın yapar)

-yaşam içrə doğma dosdun içində, doğru yolun özündə, nə dosduvu yadırqa, nə öz yolun azırqa.

-yüngül dosdun, yükü ağır olar.

tostuna **-**avına boysanar çimənli düzlər, çimən solar , ceylan qaçar əylənməz, bilgə aydar bilən dosduna, kim olar düşməsin ölüm tosquna, çoğun fırlab salar yerin astına, qalan olmaz kimsə burda əylənməz. (**tosquna: posquna**: pusquna. duzağına. cələsinə. tələsinə). (**bilgə**: həkim. hikmətçi). (**çoğun fırlab**: fələk fırladıb).

tostuna **-dos dosduna börk qoyar**, özgə baxar mat qalar.

tostunan **-ər ərdəmi dosdunan,** boydaş seçən xanımdan.

tostunisə **-dosdunisə ver gedsin**, dos değilsə at gedsin.

-bacqardaşın dosdunisə nə yaxcı, dosdan mosdan bacqardaşlıq çıxanmaz.

tostunla **-dosdunla aşır aşı,** daşı daşı. (dosla kölgəli gəzmə)**.**

tostunsa **-dinləgənin dosdunsa**, dilin sözün düz olsun.

tostunu **-**iş işindən dönürsə, **göz dosdunu yov görür**. (**iş işindən dönürsə**: iş tutmasa). (**yov:** düşman)**.**

tostunu **-**yamandan yeğ küsərmiş, yaman yeğdən küsənməz, dartmaz qoymaz dənini. **yamanla dosd olan son, paysız qoymaz dosdunu** (**yeğ**: yaxşı)**.**

tostur **-işdir dosdur yoldaşdır**, tuşlayıban seçilər.

tostur **-**o nədir oxşayır dəmir yükünə, ağırlıq edər alsan çiğinə, atar pasın qoysan yerinə. -o dosdur oxşur dəmir yükünə, ağırlıq edər alsan çiğinə, atar pasın qoysan yerinə.

tostuvu **-**dosduvu borca, qonşuvu aşa öğrətmə.
-oturuşmadan **dosduvu tanı**.

tostuvu **-dosduvu vara**, qonşuvu paya öğrətmə. (arvadı vara, qonşunu paya öğrətmə). (çevrəvi vara, qonşuvu paya öğrətmə).
-yaşam içrə doğma dosdun içində, doğru yolun özündə, **nə dosduvu yadırqa, nə öz yolun azırqa.**

tostuvun **-**dosluğu var bir itin, cana dərman, **bir dosduvun itligin**, yağu alman. (**alman**: almaz).

tostuza **-yaşam sizi dosduz bilə ötürür,** bülbül güllügə, qarqa küllügə götürür. (**dosduza: dosduzla**).

tosulamaq **toslamaq.** kəlləmək. sozulamaq. buynuzlamaq.

tosulq **-**deyirlər. -arvadı gözələ **dosulq çoxun verilər**!**.**

tosun iş bilməz. naşı. -bir çivi düşəli taxa düşdü, taxa düşəli , bir at düşdü, at düşəli , bir igid düşdü, igid düşəli , bir döğüş batdı, döğüş batalı, bir ölkə batdı, **həpsinə ucub tosun çiviçi**. (**ucub:** nədən. bais)**.**

tosun **kələ**. boğa.

tosun tosun. tovsun. (odlu). (< **tov**). sərkeş.,odlu, həvəsli, istəkli. **-könül tosun**, odlu, **həvəsli, istəkli olursada**, baş duymalı, düşünməlidir.

tosun **tozan**. asav. -**tosun** at ondu. **(ondu**: <> **oldu**. öğrəndi**.** qoydu. qondu. qoydu. qonğdu. düzəldi. yola gəldi. ram oldu).
-**burlumuş yılxı (**heyvan**), özəlliklə tosun:** gizir. gəzir. qısır. kəsir.

toşab -**çaxır, pəkməz, doşab düzəltməyə əl verişli üzüm çeşiti:** geçəmcək. geçiəmcəyi. geçiməməsi. geçimöməsi.

toşab -**qarla qarıştırılmış süzmə yoğurd, doşab:** qarsamba. qarsanba. qarsambac.

toşab -**doşab boyasın andıran at donu çeşiti:** qızıl qır.
-**gündə bəslənən, hazırlanan doşab, pəkməz:** günbalı.
-**qarla doşab, bal kimi süycü nərsələrin qarışıltığından yapılan qaytıq, mə'cun:** qoytulmac. qoyultmac. qoyurtmac. quytulmac. quyultmac. quyurtmac.

toşabın -**qarla doşabın qarışğı olan qar çalbası, halvası:** qarsanbac. qarsamba. qarsanba. qarsambac.

toşaq **-oşaq doşaq: oğşaq doğşaq. oğşaq döğşək. əğşək dəvşək. oğuq döğük**.

toşalmaq **doğşalmaq. oşalmaq. döğşəlmək. doşalmaq. oğşalmaq. əğşəlmək. dəvşəlmək.** oğulub, yeyilib, sürtülüb aradan qaçmaq, gedmək. -olan canım, qalan malım **təvşəldi**. -ip **oğşalıb** qırıldı.

toşalmaq **doşalmaq. dolaşmaq**. tovalaşmaq. buruşmaq. buralışmaq. (sürünmək). çalaşmaq. -əl ayağ **doşalmaq**: əl ayağ itirmək. nə edib edmədiyin bilməmək. -gözləmirdim onu burda görüm, görən kimi **əlayağı doşaldı**.

toşəmbə **doşəmbə**. **doşənbə.** gülüsər. bazartəsi.

toşənbə **doşənbə. doşəmbə**. gülüsər. bazartəsi.

tot torta. qıyımıq. çöp. çöküntü. kilkə. gilgə. kitgə. xılxa. -yağ **kilkəsi**.

totaq **-anmır dodaq adıvı, əsgimişmi nə bilim**. o keçən anılar, ən gözəl umutlar, ən gözəl uykular, ən gözəl oykular əsgidilər gözümdə,silindilər könlümdə.

-dodaq görkü gülüşdü, üzün görkü gözlə qaş. (**görkü**: gözəlliyi).

totaq **dodaq.** çəkük. çəküc. kəçüc. soruc.

-**qaçıq dodaq gülüşsüz**, ağlar gözlü hölüksüz (qalmaz). (**hölüksüz**: nəmsiz. yaşsız)

-qulaq nəyə öğrəşsə, **dodaq onu tutaqlar**.

-qulaq nəyə öğrəşsə, **dodaq onu tutuqlar**.

-uçar quşdur qanatsız, pişər qızar ocaqsız, tutmağına topla tüfəh , utmağına dillə **dodaq gərəkməz**.(tapmaca). (**yel. hava. dəm**).

-doğan sevgi doğurdan , yer salırsa ürəkdə, **dodaq gülər**, üz açılar, göz gülər. (**doğurdan**: gerçəkdən. həqiqətdən)**.**

-könl açır hər gülüşün qonsa dodağ üzrə sənin, damlasıda qoparır axdığı göz yaş sənin. (**qoparır**: qiyamət edir)

-dedi neyçün dodaq üzrə qonuşubdur gülüşün, dedi dərtdir acırır küydürür içdən içimi. (**acırır:** acı gördürür).

totaq **dodaq.** kərtik. kərtük. nərsəni qırağı, ağzı. ləbə.

-gilə dodaq: girdə, kiçik ağızlı.

totaq -**dodağ qaçırma:** qıymışa. qımışa. qımışıq. qıymışıq. qıymışma. təbəssüm. ləbxənd.

-**dodağ qaçırmaq**:qıymışmaq. qımışmaq. qımşınmaq. qıymışmaq. qıymışınmaq.

-**dodaq qaçırtma:** gülşük. gülşüc. gülücük. gülcük. gülsəmə. gülsəyiş. gülümsəmə. gülüt. kiçik, yumuşaq gülüş.

-dodağ qaçırma: gülcük. 1. qıssa, kiçik gülmə. 1. rişqand. birin nərsəni ələ sarma üçün atılan, ilətlən gülüş.

totaqa **-**yaşama yaşça könül, **dodağa gülüş gərək**, gərəkinsən yaşamın xoşca keçə. (**yaşça:** gənc. çılqın. çalqın). (**gərəkinsən**: ehtiyac duysan)**.**

totaqa -**yanağa, dodağa sürülən qırmızı boya, pudr:**qızılca. qızıllıq. qızıllıq. ənlik.

totaqı **-dodağı qaçmaq**. gülümsəmək. ağzının sarığı qaçmaq.

totaqı **dodağı.** irni. -**ərik irni yağlı**, ərməğu başı qanlı. (**ərik**: çərik. çevik. çalağ). (**ərməğu**: gəvşək. təmbəl)

-qurd adı çəkilcək**, it dil dodağı qarışar**. (qurdun adı çəkilcək, it dinclikdə durmaz).

totaqı -**üst dodağı yarıq, ya da burnuna yapışıq olan:** gədük. qıtuq.

totaqlar **-**öz işinği özün qıl, **batsın dodaqlar yağa**, ax vaxıvı qoy yada , tövərəgivə dad olsun. (**tövərəgivə**: dövrə bərivə).

totaqlarıntan -**dodağlarından gülük** (gülügi, gülüş) **əriməzdi**. (**əriməzdi:** qutulmazdı)**.**

totaqlı **dodaqlı.** kərtikli. kərtüklü. qırağılı. ağzılı. ləbəli.

totaqlı **dodaqlı.** qıylı. qıylıqlı. ləbəli. qıraqları çıxıntılı olan. -**qıylı** kasa. -**qıylı** qazan. -tabaq **qıylı**, çömçə saplı gərək. -**qıylıqlı** şüşə.

totaqlıq **dodaqlıq.** qıy. qıylıq. herə. ləbə.

totaqta -gözdən axan bir damla yaş, **gül tək açan dodaqda qaç**, minlərcə sir gizlədiri, min gömükə izlədiri. (**gömükə**: içdə qalan nərsəyə). (**izlədiri**: nişan verir. yol açırı)

-donuq sözlər axıb dodağda donar, yanıq sözlər gözyaşilə uçar.

-gülər üzlüm gülüş gülü dodaqda, yazbayramı çiçək olar budaqda.

-nə dodaqda gülüşün var nə yaşam sundu sənə dadla duzun, nə quraqlarki qurarmış bu çoğun çevrənənə. (**çoğun**: fələk). (**çevrənənə**: durana. yaşayana)**.**

totaqtan **-**ağlar gözdən yaş kəməlməz , **gülər dodaqdan gülüş**. (qəm qəmi gəttirir, dəm dəmi)**.**

-o dodaqdan duz əsgik olmasın.

-dodaqdan boğaza dadı qalır, ondan sora adı. (**dodaqdan boğaza dadı qalır**, ondan sora yadı).

totalmaq **toxalmaq. toğalmaq. (> toralmaq) . tomalmaq. topalmaq. toçalmaq. dolalmaq.** kökəlmək. köməlmək. köpəlmək. köbəlmək.

totulu -**dodulu gəlmək:** düllü gəlmək. dollu gəlmək. ələ sarmaq. dolandırmaq.

totumusuz -**hançı il doğumusuz:**kaçlısız. yaşız neçədir.

touyulmaqa **-douyulmağa dəğər, şayistə**: doyluğqan {**lığqan. (alığqan**. -e**liğgən**. -ə**liğgən**. -ı**lığqan**. -i**liğgən**. -u**luğqan**. -ü**lüğgən**. -o**luğqan**. -ö**lüğgən**}. douyudurulmalı.

tov **1.> təb.** qızıq. sıtma. -**sinirsə qızıq canına** can çıxınca durar. (**qızıq**: sıtma. tov. təb) **1.** dov. sıra. kəz. devir. novbət. -illər keçər **dov dolar**. (hamıya sıra gəlir). (hər qapının dəvəsi günündə yatar). (tələsmə, dalın gör). (yaşa ha yaşa, gün gəli başa).

-**dov yarışı**: qoşu. qaçuv. yügürüş.

-elə sınmış qanadım uçamağa artıq tov yox, nə bileydim yadav ölkə qonağun doğçalamaz. (**doğçalamaz**: doğma saymaz)**.**

tov **-tov, tav verilmiş:** tovlu. tavlı. qavruq. qovruq. birişdə. bürüşdə. qızarmış.

tov **1.** istilik. yaxınlıq. sinğlik. səmimiyət**. -**ölü **tov götürməz**. **1.** tova. döğ. döğü. qov. qovu. qoğu. qor. qoğ. sov. sovu. hovu. hov. köpük. qızqınlıq. həyəcan.

tova tov. döğ. döğü. qov. qovu. qoğu. qor. qoğ. sov. sovu. hovu. hov. köpük. qızqınlıq. həyəcan.

tovac toğac. qıysat. qıstac. qımıc. qınıc. gəmıc. qızqı. qısqı. qızıq. qısıq. şikəncə. güdaz. basqı. ürk. cəza.

tovaçlıq **tovğaçlıq. 1.**güclülük. baturluq. -qızqın olub dingin durasan, varlı olub yoxsul qılnasan, acından ölüb onur güdəsən, ərkli olub əkdi qalasan, **tovaçlıq deyil, hovanlıqdır**. (**qızqın**: hırslı). (**dingin**: aram). (**ərkli**: qurətli). (**əkdi**: müəddəb). (**hovanlıq**: axmaqlıq).**1.tovçalıq.** cürət. cəsarətlilik. baturluq. bağraqulluq**. -gahdan tovaçlıq seçdiklərin deyil**, boşverdiklərindir. (**boşverdiklərindir**: vaz geçdiklərindir).

tovaquc **tovağuc**. ışıq, tov yığan dəzgah. akümülatör.

tovalaq boğalaq. çoxalaq. çoğalaq. qalxız. qalxuz. oxlası. oxulası. ən çoxu. ən sonu. ən olası. həddiəksər. - **qalxuz** axşamacan çatarıq.

tovalaq **tovarlaq**. **qoparlaq**. **koparlaq**. **qovalaq**. **qovarlaq**. **topalaq**. **toparlaq**. **yopalaq**. **yoparlaq**. **yovalaq**. **yovarlaq**. **yubalaq**. **yubarlaq**. **yuvalaq**. qobalaq. qopalaq. kopalaq. kümük. yuvarlaq. yumru. girdə.

tovalanmaq tovalaşmaq. tovlanmaq. hovlanmaq. kələclənmək. qorlamaq. qorqamaq. qoralamaq. qorallamaq. qorlanmaq. qorqanmaq. qoralanmaq. qorallanmaq. odlanmaq. qızqınmaq. coşuşmaq. coşunmaq. coşqunmaq.

odalınmaq. odalıcmaq. odalışmaq. sovlanmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. həyəcanlanmaq.

tovalanmaq tovlanmaq. sovlanmaq. hovlanmaq. oğunmaq. koğunmaq. dalğalanmaq. dalğınmaq. sınğınmaq. saçınmaq. saçğınmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. qorlanmaq. həyəcanlanmaq. ayqaşmaq. ayaşmaq. uyqaşmaq. uyaşmaq. müztərib, pərişan olmaq.

tovalanmaq tovlanmaq. qızıqmaq. sovlanmaq. hovlanmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. qorlanmaq. həyəcanlanmaq.

tovalaşmaq tovlanmaq. tovalanmaq. hovlanmaq. kələclənmək. qorlamaq. qorqamaq. qoralamaq. qorallamaq. qorlanmaq. qorqanmaq. qoralanmaq. qorallanmaq. odlanmaq. qızqınmaq. coşuşmaq. coşunmaq. coşqunmaq. odalınmaq. odalıcmaq. odalışmaq. sovlanmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. həyəcanlanmaq.

tovalat tovlat. sovlat. hovlat. döğlət. qaldır. oyat. canlat. coşat. coşut. odalışlat. odalıclat. qovlat. qovula. qoğlat. qoğulat. qorlat. həyəcanlat.

tovalı 1. tovlı. sovlı. hovlı. döğlü. qovlı. qoğlı. qorlı. quru qafa. quru baş. quru kəllə. tutqaf. tutucu. tutuqaf. tutubaş. uçbaş. uçubaş. uçuq. çomaq. qırlağan. qızqın. qızqan. qızışıq. qızışqan. həşəri. ifrati. şurlu. sırvac. tutğaq. tutağ. tuşağ. mütəəssib. fanatik. pan. fan. 1. tovlı. sovlı. hovlı. odalıclı. odalışlı. döğlü. qovlı. qoğlı. qorlı. qızmar. qızıqlı. kələcli. qorlayı. qorqalı. qoralı. qorallı. qorqanlı. qorqanı. yanqılı. odlu. yalbışlı. həyəcanlı. 1. tovlı. sovlı. hovlı. qıyın. döğlü. qovlı. qoğlı. qorlı. şəhvətli. həyəcanlı.

tovallamaq tovlamaq. toplamaq. topallamaq. yığmaq. dərləmək. birikdirmək. kotdalamaq. cotdalamaq. cotqalamaq. çotdalamaq. çotqalamaq.

kutdalamaq. cutdalamaq. cutqalamaq. tutdalamaq. tutqalamaq. kütdələmək. kitdələmək.

tovamaq tovlamaq {> **tab vermək** (**fars**) }. qatdırmaq**.** qaydırmaq. eşmək. eşgizmək. üşgütmək. qoşqutmaq. bükmək. bükütmək > pişitmək. piçitmək. əğirmək. -acun ipin **qayturar**, günü günə ardırar, yalın qulun yardırar (yaradar), oğur gəlməz (oğursuzun) öldürür (öldürməyinin çağı bəllənməz).

tovan **1. tufan**. tüpi (**tüpin. tupan. tüpən**). yel külək. -**tüpən** gəlsə qara bulut sürünər**.1.** ilim. ərdəm. güc. başarcaq. -**ilim** doğar bilimdən. (**ilim**: ərdəm. tovan. güc. başarcaq)**1.** tovaş. güc**. -**olsa açıq göz igid, gözü qalmaz diləkdə, yaşın aşsa altmışı, **tovaş qalmaz biləkdə**. **1.** güc. alqu. -**barça ondan alqu bular, öznü aldan ıraq qılar**, qara günün sonu çatar, danlar atar yollar açar. (**alqu**: boya. rəng. güc. tovan. bacarıq). (aldan: hamıdan). **(barça:** hərnə)**1.** bilək. güc. -mutluq edinməz əldə, dilənçilik edinsə, ilik bilək varınkən armanların edinsən. (**ilik**: bacarıq). (**armanların**: çatınmamış, edinməmiş arzuların). **-**bilik bilək birləşsə, **tapar tovan elimiz**, tovarlaşar yurtumuz. (**tovanlaşar**: güclənər). (**tovarlaşar**: baylaşar. varlaşar. zəginləşər)**.**

tovan 1. {> **təvan** (fars)} < tupanlı. tüpənli götürümlü. girqallı. girdallı. dözümlü. dözəmli. dayanımlı. dayaqlı. ayaqlı. kövüslü. köğüslü. dayanımlı. dayanıqlı. dayınıqlı. dayınaqlı. dayanışlı. çəkətli. çəkitli. çəkişimli. çəkimli. şəkibli. kəşişli. { > **kəşeş** (fars)}. cıtamlı. cıdamlı. çıdamlı. dartıtlı. çaqatlı. taqatlı. taqətlı. təhəmmüllü. qatlanışlı. qatlanımlı. durumlu. arxalı. arxaqlı. çəkişmə. könəlgəli. çönəlgəli. dönəlgəli. sığışlı. sığımlı. sığıqlı. qıtırlı. güclü. güvlü. guvlu. qocurlu. qurplu. qurclu. quvvətli. qudrətli. basınclı. zorlu. kürlü. gurlu. sıxlı. ərkli. ərkəli. örgəli. hörgəli. öğkəli. enerjili. çabalı. çapalı. gərmikli. yamanlı. biləkli. edərli. tablı. toxalı. istitaətli. hallı. acar. çağal. çağqal. sağlı. sağal. sağqal. tutamlı. onuşlu. duraqlı. bağdallı.

vəziyyətli. çaparızlı. sərin. qəvamlı. kitəmli. çitəmli. cıdamlı. tutağan. durna. dəvamlı. girgili. gərgili. olqumlı. olqamlı. onqumlu. onqamlı. səbirli. tovman > təvanmənd. tovana > təvana. qədir. qadir. qəhhar. təvana. muqtədir. iqtidarlı. -çox **köndümlü** kişi. **1. > təvan.** gücət. quvvə.

tovanı **-bizdə aldıq inam ilə tovanı** huv əlidən.

tovanım **-biliklə ösər gücüm tovanım,** biliksiz çökər elim tavanım. (**ösər**: çoxalar. köpər). (**tavanım**: damım)**.**

tovanın **-tutalım var tovanın**, işlədə bilmək gərəkir.

tovanlaşar güclənər. -bilik bilək birləşsə, **tapar tovan elimiz**, tovarlaşar yurtumuz. (**tovarlaşar**: baylaşar. varlaşar. zəginləşər)**.**

tovanlıq -> təvanayi. imkan.

tovanlıq **təvanlıq.** ərkə. nərkə. ərc. ərcə. dərc. dərcə. dircə. edi. (bilf'el). güc. quvvət. enerji. qudrət. niru.

tovansız encan. aciz.

tovar **-köpəz tovar: köpəz dəli. köpəz boğa**. pəhləvan pəmbə. (**köpəz**: pambıq).

tovarlaq **tovalaq**. **qoparlaq**. **koparlaq**. **qovalaq**. **qovarlaq**. **topalaq**. **toparlaq**. **yopalaq**. **yoparlaq**. **yovalaq**. **yovarlaq**. **yubalaq**. **yubarlaq**. **yuvalaq**. qobalaq. qopalaq. kopalaq. kümük. yuvarlaq. yumru. girdə.

tovarlaşar baylaşar. varlaşar. zəginləşər**. -**bilik bilək birləşsə, tapar tovan elimiz, **tovarlaşar yurtumuz**. (**tovanlaşar**: güclənər).

tovaş 1. güclü. -başın qoymaz söz dinləməz uşaqdan, işlək ərin tovaş yılığ yeğ gəlir. (**ərin**: ram. uysal. usal). **1.** tovaş tovan. güc**. -**olsa açıq göz igid, gözü qalmaz

diləkdə, yaşın aşsa altmışı, **tovaş qalmaz biləkdə**.**1.tovuş.** büküş**.** eşiş. neçə nərsəni birbirinə burma, keçirtmə, toxuma işi.

-olsa açıq göz igid, gözü qalmaz diləkdə, yaşın aşsa altmışı, tovaş qalmaz biləkdə. (**tovaş**: tovan. güc)**.**

-başın qoymaz söz dinləməz uşaqdan, **işlək ərin tovaş yılığ yeğ gəlir**. (**ərin**: ram. uysal. usal). (**tovaş**: güclü).

tovaşmaq qayışmaq**.** buruşmaq. kələk işləmək.

tovatmaq çağlamaq. yetişdirmək. -**fürcə tovatmaq:** çağına düşürmək çalımına gətirmək. fürcə tovatmaq.

tovca **-tovca ölüm bilməz**. (**tovca**: enerji)**.**

tovçalıq **tovaçlıq. tovğaclıq**. cürət. cəsarətlilik. baturluq. bağraqulluq**. -gahdan tovaçlıq seçdiklərin deyil**, boşverdiklərindir. (**boşverdiklərindir**: vaz geçdiklərindir).

tovqa **dovğa**. qatığaşı**.**

tovqaclıq **tovğaclıq**. **tovaçlıq. tovçalıq.** cürət. cəsarətlilik. baturluq. bağraqulluq**. -gahdan tovaçlıq seçdiklərin deyil**, boşverdiklərindir. (**boşverdiklərindir**: vaz geçdiklərindir).

tovqaçalım **tovğaçalım**. təvsiyə edəlim. tovsiyə edəlim. məsləhət görəlim.

tovqaçlıq **tovğaçlıq. tovaçlıq.** güclülük. baturluq. -qızqın olub dingin durasan, varlı olub yoxsul qılnasan, acından ölüb onur güdəsən, ərkli olub əkdi qalasan, **tovaçlıq deyil, hovanlıqdır**. (**qızqın**: hırslı). (**dingin**: aram). (**ərkli**: qurətli). (**əkdi**: müəddəb). (**hovanlıq**: axmaqlıq).

tovqanlıq **tovğanlıq >** təvanalıq . təvanməndlik < tovmanlıq. qocalıq . sağıclıq. deşğanlıq. qədirlik. qadirlik. qəhharlıq. müqtədirlik. muqtədirlik. iqtidarlılıq. hakimiyyət.

tovlamaq tovamaq. {> **tab vermək** (**fars**) }. qatdırmaq**.** qaydırmaq. eşmək. eşgizmək. üşgütmək. qoşqutmaq. bükmək. bükütmək > pişitmək. piçitmək. əğirmək. -acun ipin **qayturar**, günü günə ardırar, yalın qulun yardırar (yaradar), oğur gəlməz (oğursuzun) öldürür (öldürməyinin çağı bəllənməz).

tovlamaq 1. girə qoymaq. dilə tutmaq. uşağı **girə qoyub** işlədir. **1.** tovallamaq. toplamaq. topallamaq. yığmaq. dərləmək. birikdirmək. kotdalamaq. cotdalamaq. cotqalamaq. çotdalamaq. çotqalamaq. kutdalamaq. cutdalamaq. cutqalamaq. tutdalamaq. tutqalamaq. kütdələmək. kitdələmək. **1.** tel kimilər qatlayıb bükmək. burmaq. çağlamaq. çağlatmaq. tavlamaq. qıvratmaq. qıvrıtmaq. qıvatmaq. qıvnıtmaq. qıvlatmaq. qıynıtmaq. -toxuma iplərin **qıvratmaq** gərək.

tovlanma **-**(birbirinə) **tovlanma**, qızğınma, alışınma**:** eşişmə**.**

tovlanmaq 1. tavlanmaq. təplənmək. qayranmaq. səfərbərlik edmək. qılımlanmaq. qurağlanmaq. quşağlanmaq. qurşamaq. quşatmaq. quratmaq. saplanmaq. çağlanmaq. hazırlanmaq.**1. tavılmaq.** düğülmək**.** düğünlənmək. hörülmək. -qurmuş kiriş **düğülməz**, quruğ ağac əğilməz, hörgənlə dağ bükülməz.
-hər nə ilə tovlanmaq, qızınmaq: dəğirgənmək. özünə alıb, içinə tutub acıqlanmaq. xətrinə dəğinmək. aldırmaq. dəğmə düşərlik edmək. -hər nədən **dəğirgənmək** olmaz ki. -ona güldən arıq söz desən belə **dəğirgənəcək.**
-(birbirinə) **tovlanmaq**, qızğınmaq, alışınmaq: eşişmək**.**

tovlanmaq tovalanmaq. sovlanmaq. hovlanmaq. oğunmaq. koğunmaq. dalğalanmaq. dalğınmaq. sınğınmaq. saçınmaq. saçğınmaq. döğlənmək. qovlanmaq.

qovulanmaq. qoğlanmaq. qoğulanmaq. qorlanmaq. həyəcanlanmaq. ayqaşmaq. ayaşmaq. uyqaşmaq. uyaşmaq. müztərib, pərişan olmaq.

tovlanmaq tovalaşmaq. tovalanmaq. hovlanmaq. kələclənmək. qorlamaq. qorqamaq. qoralamaq. qorallamaq. qorlanmaq. qorqanmaq. qoralanmaq. qorallanmaq. odlanmaq. qızqınmaq. coşuşmaq. coşunmaq. coşqunmaq. odalınmaq. odalıcmaq. odalışmaq. sovlanmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. həyəcanlanmaq.

tovlanmaq tovalanmaq. qızıqmaq. sovlanmaq. hovlanmaq. döğlənmək. qovlanmaq. qovulanmaq. qoğlanmaq. qoğulanmaq. qorlanmaq. həyəcanlanmaq.

tovlanmaz **tavılmaz.** düğülməz**.** düğünlənməz. hörülməz. -**qurmuş kiriş düğülməz**, quruğ ağac əğilməz, hörgənlə dağ bükülməz.

tovlat tovalat. sovlat. hovlat. döğlət. qaldır. oyat. canlat. coşat. coşut. odalışlat. odalıclat. qovlat. qovula. qoğlat. qoğulat. qorlat. həyəcanlat.

tovlayıb -**qolların tovlayıb yerimək:** qolaçlamaq.

tovlı 1 . tovalı. sovlı. hovlı. döğlü. qovlı. qoğlı. qorlı. quru qafa. quru baş. quru kəllə. tutqaf. tutucu. tutuqaf. tutubaş. uçbaş. uçubaş. uçuq. çomaq. qırlağan. qızqın. qızqan. qızışıq. qızışqan. həşəri. ifrati. şurlu. sırvac. tutğaq. tutağ. tuşağ. mütəəssib. fanatik. pan. fan. **1** . tovalı. sovlı. hovlı. odalıclı. odalışlı. döğlü. qovlı. qoğlı. qorlı. qızmar. qızıqlı. kələcli. qorlayı. qorqalı. qoralı. qorallı. qorqanlı. qorqanı. yanqılı. odlu. yalbışlı. həyəcanlı. **1** . tovalı. sovlı. hovlı. qıyın. döğlü. qovlı. qoğlı. qorlı. şəhvətli. həyəcanlı.

tovlu güclü**. -**açmaz qapı bıraxmaz, **tovlu olsa sevgimiz**.

-ayrılıq ağrıqı tovlu ata bilməz kimsə, dava dərman bitər, bitməyi yok ayrılığın. (**ayrılıq ağrıqı tovlu**: hicrin acıdan, odlu kəsəli. hicr ısıqlığı, təb kəsəli).

tovlu tavlı. tov, tav verilmiş. qavruq. qovruq. birişdə. bürüşdə. qızarmış.

-tavlı, tovlu nərsə: kavırqa. qovurqa. qavurma. qovurma. qavırtlaq. qovurtlaq. qoğurtlaq. - **qavurma** qəhvə.

tovlu -**tovlu, tavlı, qızqın sığır:** kələş. boğa.

tovlu **tavlı**. qıvrışıq. qıvırcıq. qıvırıq. qıvrım. fer. mücəə'd. -**qıvrışıq** saçlı.

tovluluq 1 . tavlılıq. qıvrışıqlıq. qıvırcıqlıq. qıvırıqlıq. qıvrımlıq. ferlik. mücəə'dlik. **1** . tavırlılıq. tapataplıq. taptapallıq. kökkələnlik. kökkənlik. qasıntılıq. basağanlıq. basavanlıq. alangirlik. alımlılıq. alamanlıq. ululuq. bəğginlik. böykünlük. böyükənlik. kürəkənlik. çağaçılıq. yaxaçılıq. yekəxanalıq. çalamanlıq. çalmallıq. çalımçılıq. göğçəlik. göyçəlik. göğçənlik. göstənimlilik. göstənişlilik. göyçənlik. hobbanlıq. qıncıvırlıq. hovlaclıq. hovluluq. kirizlik. girizlik. kirizmanlıq. girizmanlıq. qurralıq. qurmulluq. oramanlıq. salamanlıq. sayaqanlıq. şişəginlik. şişəmənlik. fosluluq. kovlanlıq. koflanlıq. qoparlıq. dikəbəylik. çağataylıq. məğrurluq. qosquluq. qozquluq. təkəbbürlük. mütəkəbbərlik. xudpəsətlik. xodpəsəndlik. tibirlik. təpirlik. qurumluq. qurumluluq. möhtəşəmlik. kibirlilik.

tovman > **təvanmənd**. götürümlü. girqallı. girdallı. dözümlü. dözəmli. dayanımlı. dayaqlı. ayaqlı. kövüslü. köğüslü. dayanımlı. dayanıqlı. dayınıqlı. dayınaqlı. dayanışlı. çəkətli. çəkitli. çəkişimli. çəkimli. şəkibli. kəşişli. { > **kəşeş** (fars)}. cıtamlı. cıdamlı. çıdamlı. dartıtlı. çaqatlı. taqatlı. taqətlı. təhəmmüllü. qatlanışlı. qatlanımlı. durumlu. arxalı. arxaqlı. çəkişmə. könəlgəli. çönəlgəli. dönəlgəli. sığışlı. sığımlı. sığıqlı. qıtırlı. güclü. güvlü. guvlu. qocurlu. qurplu. qurclu. quvvətli. qudrətli. basınclı. zorlu. kürlü. gurlu. sıxlı. ərkli. ərkəli. örgəli. hörgəli. öğkəli. enerjili. çabalı. çapalı. gərmikli. yamanlı. biləkli. edərli. tablı. tupanlı. tüpənli {> **tovan**. **təvan** (fars)}. toxalı. istitaətli. hallı. acar. çağal. çağqal. sağlı. sağal. sağqal. tutamlı.

onuşlu. duraqlı. bağdallı. vəziyyətli. çaparızlı. sərin. qəvamlı. kitəmli. çitəmli. cıdamlı. tutağan. durna. dəvamlı. girgili. gərgili. olqumlı. olqamlı. onqumlu. onqamlı. səbirli. tovana > təvana. qədir. qadir. qəhhar. təvana. muqtədir. iqtidarlı. -çox **köndümlü** kişi.

tovmanlıq təvanməndlik < . təvanalıq < tovğanlıq. qocalıq . sağıclıq. deşğanlıq. qədirlik. qadirlik. qəhharlıq. müqtədirlik. muqtədirlik. iqtidarlılıq. hakimiyyət.

tovsar qaçar. qonar**. -**yaz gəlibdir yaşıl ösər, alğa çıxar, **topraq busar, bülbül güldən gülə tovsar yaz gəliri, yaz gəlir**. (**yaşıl ösər**: göy gögərər). (**alğa**: alala). (**busar**: bozarar. rəng dəğişər).

tovsun tosun. (odlu). (< **tov**). sərkeş.,odlu, həvəsli, istəkli. **-könül tosun,** odlu, həvəsli, istəkli olursada, baş duymalı, düşünməlidir.

tovşan **-**dovşan iki, bir oxilə vurulmaz.

-iki dovşan qovanın yoxdu karı, birisin tutsada qaçrar obirin.

tovşan -**dovşan kimi, iti qaçan heyvanların yavrusu:** qayıq.

tovşan **dovşan. doğşan. 1.** qopan. **1.** qırçıl. güvəgən.

-**dovşan çalısı:** qıvşaq.

-**doğşan, dovşan balası:** qırnaq. xirnək. xirtik. xırtıq.

tovşanı **dovşanı.** qoyannı**. -ikki qoyannı qovan**, heçdə birin tutmamış.

-iki dovşan bir **oxula vurulmaz**.

tovtay **tovday. tavday**. tovunda. tavında. isti isti. -dəmiri **tovday** təp, işi yoxlay yap. -xırmanı **tovday** qıl. (**xırman**: **xərmən**. bölüşmə çağı. üləş). (verdiyin payı böldüyün malı yubatma). bölüşmə çağı. üləş. verdiyin payı böldüyün malı yubatma).

tovtələb **dovtələb.** diləgən. istəgən. talib. amator. könüllü. -sevgisiz könül üşəgən olur, **sevgiyə dolu diləgən**. (**üşəgən**: çəkingən).

tovu **-ölüm dovu gəlincə igit qarı bəllənməz**, dan tez atar axşam düşər gün batar, qaranlıqda itən batan bəllənməz. **(dovu:** kəzi. sırası. novbəti).
-su dovu: nol. suvarma sırası. -**darıxma çox nol sırayladır**, çatırsa sıran alıbda gedər.

tovuq **tavuq. çapas**. **çapağ**. 1. irtin. sürət. 1. irtinik. səriən. sürətlə. şitabla. dirəngsiz. tam yeyinliklə. 1. axıcı. aşğınçı. yelkən. acil. səriüsseyr.

tovuqlaşmaq büklüşmək**.** çətinləşmək. çapraşmaq. eşgişmək. işgilləşmək. ğamizləşmək. kompilikləşmək. mürəkkəbləşmək. ağırlaşmaq. gücləşmək. zorlaşmaq.

tovun gücün**. -**çevrəndəki keçənləri dəğişməyə olan gücün yetincə, **topla tovun iç dünyavı dəğişsən.**

tovun gücün. -söykənməqıl soyuva , **tovun gedər suyuva**, bacar edin yaşamı, bayındırlıq yazıva. (**tovun**: gücün)**.**
-ötmədən qolunda tovun, qılında yaraq, geyinsəndə başqa dona, alacaq qalsanda sona, ölüm işi qaçılmaz, atırsa ox çaşılmaz.

tovunta **tovunda. tavında.** tovday. tavday. isti isti. -dəmiri **tovday** təp, işi yoxlay yap. -xırmanı **tovday** qıl. (**xırman**: **xərmən**. bölüşmə çağı. üləş). (verdiyin payı böldüyün malı yubatma). bölüşmə çağı. üləş. verdiyin payı böldüyün malı yubatma).

tovuş **tovaş.** büküş**.** eşiş. neçə nərsəni birbirinə burma, keçirtmə, toxuma işi.

toy tat. naşı. caylaq. qaraquş. qara. yabançı. tanımadıq. biləmədik. qərib. əcəmi.

toy toplantı. əğləncə. gəncər. gəncəş. gencər. gencəş. gendərək. gəndərək.

toy -**toy düğün, bazarlıq yapılma üçün geniş, gənə bol, örtülü gənəl yer**: qaydırma

-toy yarını, qız oğlan evinin birbirinə göndərdikləri yemək: qavum**.**

toy toy: əyləş. məclis**. -**yaxşı oğul öy düzər, **yaman oğul toy pozar**.

-buğda qıltıqsız, **toy çiltiksiz olmaz**. (**qıltıqsız: qılcıqsız).**

-toy daldıradı: yığva dağıldı. **(daldıramaq:** dağılmaq)**.**

-**toy bayar**: bayar şənlik.

-toy aldışı oynama, yas aldışı ağlama. (**aldışı**: rəsmi. adəti)**.**

-toy çalqısız, yas ağıtsız olmaz.

-dəlisiz el olmaz, **bəlisiz toy**. (on kişi bir ara gəli, arada var biri dəli).

-çağrılıbsan gedirsən (**toy**), çağrılmadan gedirsən (yas).

-toy qavqıya çöndü. (düğün döğünə döndü).

toy 1. tor (< **tuğ).** qısıl. qıtbaş. işbilməz. 1. qısıl. gənc. körpə. göyüt. göysüt. göysüq. göycək. gövcək. gövcə. göycə. gövərik. göğərik. göyərik. gövələk. göyələk. xam. göyəl. gövəl. gövlə. göy. bilgisiz. quş. çiğ. olqunlaşmamış. naşı. yabanı. 1. tat. yad. yaş. oğsuq. sapaq. savak. səfeh. quşdurum. külbaş. külbaşgörsüz. külbaşqaqlaq. kovbaş. kovabaş. başıboş. qanmaz. axmaq. avara. acız. nadan. cahil. xam. qotta. kodda > kəddi. kəndli. gəbiş. gəbəç. gəbəş. gəbiç. gic. girik. kirik. anlaqsız. bilgisiz. bilməz. çağala. çiğ. dəğməmiş. düşməz. düşünməz. gavara. göyala. göğərik. görgüsüz. görgüsüz. görüsüz. göyüt. göysüt. göysüq. gövala. gövcə. gövcək. gövəl. gövələk. gövərik. gövlə. göy. göyala. göycə. göycək. göyəl. göyələk. göyərik. güdələk. güdlək. hevərə. hoytulum. iliğ. ilik. iliyi boş. kal. bozu. bozuq. kaval. kavan. kavaz. kavdan. kavla. kavlan. kələş. kəlləpehin. kəvərə. çoramaz. çorkəsməz. çörəməz. kor. koraq. koramaz. korgu.

korkəsməz. kormaz. koruq. koryat. hoyrat. korata. kotaman. kotaz. kotqafa. kovabaş. kovan. kovdan. kovsuk. kovtulum. kovtum. kozaki. körəməz. körpə. küt. kütəz. kütgü. kütov. kütoy. kütuy. kütük. küvərə. qaba. qabal. qabla. qatanqaz. qataz. qatoy. qatuy. qazaz. qırıq. qarov. qıro. qırov. qıroy. qıruy. qıtıq. qıtmaz. qıtnaz. qıtanaz. qıtamaz. qıtov. qıtoy. qıtuy. qopaq. qora. qoraq. qoruq. qocaqafa. qocabaş. qocakəllə. vurdumduymaz. qavıqyelli. yellənmiş. yetişməmiş. yoxsuq. qotavuz. qotavaz. qatıvaz. qatuvaz. qatavuz. qatuvuz. qatvaz.

-**toy yarını, gəlinlə kürəkənin qız evindən ilk görüş gələnəyi:** qızartı.

-it küsübən çobandan, **qurda düşüb toy halay**. (**halay**: şənlik)**.**

-çoban küsdü itindən, **düşdü qurda toy halay.**

-küssə çoban itindən, **qurda düşər toy halay**. (**halay**: şənlik)**.**

-**toy düğünlərdə, böyük yığınlarda baş qulluqçu, yasaqçı:** koptaçı.

-**düğün, toy, yığva, qonağlıqdan sonra yapılan əğləncə, toplantı:** qılvan.

toya **-oldu gülər üz kişin , toya qalınmaz işin**, oldu qarabet qadın, yas yerindən sil adın. (**qarabet**: qara qabaq).

-toya isti çağın girsən yeğ, bitinmədən çıxsan yeğ.

-əbbəyin ayan aşa yetər, **donun ayan, toya.** (**əbbəyin**: çörəyin). (**ayan**: saxlayan. qoryan. qayğıran).

toya -**toya geyəsin.** (yeni geyim alqışı).

toyacaq -**göz doyacaq dərcədə:** olacağı kimi**.** qararca. qararınca. qarınca. gərağincə. ölçüsündə.

toyamaz **-ayrılıq olamaz dedim, bu sevgiyə doyamaz dedim, acılıq yoramaz dedim**, sevgi boşa, ayrılıq yola, acılıq yora, sanmazım ola.

toyamaz **-**yürüməyə üşənən, **qoşmaya doyamaz**. (**üşənən**: təmbəllk edən).

toyan **-**düşməz it, qarnı doyan evdən uzaq. (**düşməz uzaq**: ayrılmaz)**.**

-it qarnı doyan yerdən, aşıq könlü olan yerdən.

-aşiq olan, bıkıbda sevər, **sevgiyə doyan çəkibdə gedər**.

toyan **-**eşqə dolan dirilər, **eşqə doyan ölülər**.

toyanmasan **-doyanmasan aşına, tabaq dəyər başına**, eyi kötü gün keçər, dolub gələr yaşına.

uraqlıqla oraqlıqla. orqanlıqla. urqanlıqla. qıtaq. qıtqat. olanmaz. kəsinliklə. kəsginliklə. kərinliklə. kərintliklə. kərtiliklə. biçinliklə. biçginliklə. götrü. götürü. qətiyyən. qətə'n.

uralmaq (**ura: dura**: dik) . (dik) durmaq. qopmaq**.** qalxmaq. (buralmaq. iy qalxmaq, çıxmaq) çıxmaq. götürülmək. götərilmək. -boran **qopdu**: boran durdu. -yuxudan qopdu. -yuxar **qop**: dik dur. -quş qopdu: quş uçdu, götürüldü. (# **köpmək**: qoymaq. yatmaq. durmaq. -boran **köpdü, qoydu**: boran durdu. -bulğay **köpüsəyir**: qarışıqlıq astanır, yatışır. -istisi **qoyub**, acısı yox).

uran **-uran burğan qar yağsa**, kırıxmaz bulan balası, mun görməyincə, ər olmaz ata balası. (**bulan**: ceyran). (**mun**: qayğı. əzab)**.**

uranlamaq **quranlamaq**. şişinmək. kəndi qurqularına, uyularına qapınmaq.

urar biçər**. -əkirən urar**, bəkliyən görər. (**əkirən urar**: əkən biçər)
-əkən urar, edən görər.

urasa **vurasa**. **orasa**. **qorasa**. silkincək. göz dəğməsin diyə oxunan nərsə, nəzər duası, taxılan mıncıq, nərsə**:** nəzərlik. sədəqə.

urbüq 1. **urbük**. **vurbük**. **orbuğ**. **orbük**. qoni, qıf, tüng biçimli çuxur yer, oyuq, qab.
1. **urbük. vurbük.** orbuğ. orbük. fırtına. girtuk. girlab. girləv. girdağ. qatqan. qayqan. qayso. axar suların durqun, dönən, ən dərin yeri. gicoy. qıcov. qıcoy. qırna. qırnaq. qıvrambac. qıvrım. qıyov. qıyrım. dönəc. dönəməc. geysov. gicəvar. gicoy. qoylan. quylan. burulğan. çevrim. çəmbərik. dalqat. dalqaş. dalqum. - keçmə! **qıcovdu**, batarsan. - bu gicəvard**an** güclə qurtulduq.
- **orbuğ kimi sormaq**: hər nə gəldiyin içərmək, yemək, çəkmək.

urcah urcah olmaq. (< **vurulcaq olmaq**). tuşlanmq. ras gəlmək. ilişmək.

urcalıq batırlıq. güc. cəsarət**. -urcalıq yalnız tutmaqda deyil**, hərdən bıraxmaqdadır.

urça təsadüf. təsadüfi nədən.

-qocalar ölməyə qurça gəzər, **gənclər ölməyə urça. (qurça**: doğal mahana).

(urça: təsadüf. təsadüfi nədən).

urçalış çıxıntı. dirçəliş. tərəqqi. tərfi'.

urəq **-qanlı urək:** qaralı. qarakibli. qarakibil. qara içli. qaraqiç. azılı. qırınlı. gümənli. gümanlı. acılı. qınlı. qırçın. qınqı. qınqıl. öclü. sinli. sinəvər. sinqır. sindır. sindar. sinsax. korav. koralı. koravər. öclü. öcü. ötü. ötlü. kinəvər. kötü urəkli. hınclı. qırçın. qınqı. qınqıl. öclü. sinli. sinəvər. sinqır. sınqır. sindır. sindar. sinsax. koraçıl. koraqul. koraqur. korav. korasov. kinli. kinçi. qınclı.

urəqli **-kötü urəkli:** azılı. qırınlı. gümənli. gümanlı. acılı. qınlı. qırçın. qınqı. qınqıl. öclü. sinli. sinəvər. sinqır. sindır. sindar. sinsax. korav. koralı. koravər. öclü. öcü. ötü. ötlü. kinəvər. qaralı. qarakibli. qarakibil. qara içli. qaraqiç. qanlı urək. hınclı. qırçın. qınqı. qınqıl. öclü. sinli. sinəvər. sinqır. sınqır. sindır. sindar. sinsax. koraçıl. koraqul. koraqur. korav. korasov. kinli. kinçi. qınclı.

urq **urğ** (moğ). qarçuq**.** bobacuğ. gözün ortasında olan kiçik, qara av, xal. qopa. çil. çiğ. mıncı. mərci. mərcik. mərcək. mərcimək > mərdümək (**fars**). ədəs. ədəsi. lenz.

urqac **urğac**. **orğac**. arvad. ürəyən. törəyən. atan. doğan. doğuran.

urqaq **urğaq. 1.** > **oraq.** (< **urmaq. vurmaq**). **1.** orğaq. oraq. uraq. oras (> das).

urqalar əzib düzəldər**. -**yolçunu tapşır yola , yol özü urqalar onu.

urqamaq vurmaq. çalmaq. çalqamaq. kitrəmək. təkitmək. tikitmək. tikdəmək.

urqan örgən. hörgən. kəndir. ip.

urqan örgən. qılnap. qılpan. neçə sapsılardan högən. tənab.

urqan **-urğan sevinc almış canım**, ürpək canım nərə qaçım. (**urğan**: yıxıcı. ev yıxan). (**ürpək**: ürkük. qorxuya düşmüş. tükləri dik durmuş). (qorxusan sevmə, sevirsin qorxma).

urqanlıq oraqlıq. uraqlıq. orqanlıq. kərintlik. kərintilik. kərdərlik. kəsinlik. kəsginlik. aşutluğ. azıqlıq. acıqlıq. biçinlik. biçginlik. qıtqalıq. qatqılıq. qətilik. qətiyyət. qət'iyət. yəqinlik. -onun **kəsinliyinə** söola bilməz. -bu **kəsginlik** qarşısında kim ağzın açabilir.

urqanlıqla oraqlıqla. uraqlıqla. orqanlıqla. qıtaq. qıtqat. olanmaz. kəsinliklə. kəsginliklə. kərinliklə. kərintliklə. kərtiliklə. biçinliklə. biçginliklə. götrü. götürü. qətiyyən. qətə'n.

urqaşmaq **urğaşmaq. uğraşmaq**. vurğaşmaq. çataşmaq. sataşmaq. sancışmaq. uçraşmaq. düçar, mübtəla olmaq. -səni görüm yeddi yağırbel ata **urğaş** çıxasan.

urqulasız vurulasız. çapılasız. çarpılasız. çıptılasız. çaptılasız. lə'nətə gələsiz.

urqulmaq **urğulmaq. vurğulmaq**. **birkitmək**. **cirgilmək**. **bikrilmək**. irkilmək. yığqılmaq. toplanmaq.

urqunmaq (vurqunmaq). cəhd edmək. sə'y edmək.

urquz korluq. durquz. qasır. qaytaz. qaytoz. qotur. qotuz. tərs. çarpıq. çalpıq. qatuvaz. qatavuz. qatvaz. qısıq. qısnaş. qıtnaş. girtiş. kitriş. atraş. inad. - o sənə qarşı nədən **korluq** eləyir.

urquz qovzad. qoğzad. gür. gur. durquz. çalaba. danqaz. danaz. donaz. donqaz. qonaz. könəz. çönəz. keşovur. çəkovur. tərs. qısıq. qısıqçı. qısqaç. qısnaş. qıtnaş. girtiş. kitriş. inadçı.

urma **-**gəzmişəm onca olan ölkələri görməmişəm, **nazlı təbriz kimi olsun, duza kan urma təkin.**
-**arxa durma:** əsirgəmə. asırqama. yasırqama. acırqama. görmə. baxış. qoruma. qoruyuculuq. barındırma. uğur. qoltuq. geçindiri. çatqı. himayət.

urmaqı -əkməyin əkdiki, **urmağı qalsın**. (**urmağı**: biçməyi). (nə əkmiş, nə biçsin).

urmu **-ölməmişdən can verir urmu gölüm**, ağlayasu ağlaram dolsun gölüm. (**ağlayasu ağlaram**: doymadan, durmadan ağlaram)**.**

ursansın **-sevgiyə vergi qoyan ursansın**. (**ursanmaq**: cəzalanmaq). (sevgi koşul tanımaz).

ursıq **vursıq**. **orcıq**. **orsıq**. **sucuq**. **soxcuq**. qoxulu otlarla, başqa nərsələr qarışığı bağırsaq içinə soxmaqla (vurmaqla, qoymaqla) quşanan (hazırlanan) yemək.

ursun **-əkən ursun** tikən geysin.

urtac ortac. höyük. təpə. yığın. örən.

urtaq **urtağ**. **ortağ**. **kəpəz**. 1. xanların, xaqanların, şahların başına qoyulan tac. xanlıq tacı. 1. təpə. köbər. yüksək yer. 1. çığa. çuğa. tuqa. tuxa. tuc. tac. (< **tuq. çuq**). (əfsər). ibik. ibiki oluşturan tüklər. 1. başlıq. gəlin taxı, tacı. 1. dağların oyuq, quytu yerləri.

urtaşın **urdaşın.** savaşı. odaşmanı. ixtilafı. -əkin irdəşi, **biçin urdaşın qaldırır**. (hesaba yetişmə, hesabı aydınlatmaq, bitindəki savaşı (odaşmanı, ixtilafı) qaldırar). (**irdələmək. ardalamaq**. 1. incələmək. 1. hesab kitaba yetişmək).

urtuc səbəbkar. bais. -sən oldun gen yola çatmağa **urtuc**. -yazığlar (günahlar) çox, **urtuc** tapılmaz, **urtucsuz** günah yazılmaz.

urtuq -**yapıda artıq urtuq nərsələr qoyulan kiçik yer:** qozıq. gözük.

urtuşalı ortuşalı. odlaşı. -ucraq ilən ortuşalı, artışıb. (ras gələnlə savaşıb, ardıda (geri) qalmış). (**ucraq ilən**: ras gələnlə). (**artışıb**: ardıda qalıb)**.**

uruq oruq**.** zədə. zədəli.

uruq **uruğ.** tuxum. gilik. gilir. gilək. gilər. kitik. kitir. kitək. kitər. -**uruğ səpmə**: tuxum əkmək.

uruqun **-**öz dilini caydıran,-çöl əsri öz yurdunda qalanmaz, oğun səpsə, əkin əksə, **öz uruğun salanmaz. (oğun**: tuxum)**.**

urulmaq orulmaq**.** oraqlanmaq.

urulmaz biçilməz **-əkilməsə urulmaz**, edinməsə görünməz. (**edinmək**: əldə edmək)**.**

urulmuş orulmuş. horulmuş. üfürülmüş. pülənmiş. - yalqu (insan) **orulmuş** qab, yazılsa ağzı alqınar: insan pülənmiş tuluğ kimidir, ağzı açılsa içi dışa axar, çıxar. (kişi ağzıyla tanınar). - öfkəsindən **horulmuş**: hirsindən köpünmüş. - **horulmuş** od: iti od. pülənişlə qızarmış, alovmuş od.
od horlamaq: yelləmək.

urulmuş **vurulmuş. -əğilən baş urulmuş**, işləyən baş qutulmuş.

urumuna -**toz durumuna gətirmək:** tozlamaq. tozalamaq. kəvləmək.

urunma urunma. çalışma. -keçən günün yanlışını **doğrultmağa urunma**, ertə bu gündən başlır. (**ertə**: yarın). -**keçən günün aldışların doğrultmağa urunma**,

duran günün, qalan günün doğruluğun unutma. (**aldışların**: xətaların). {günüvü işlə, yarını keşlə. (**keşləmək**: keşikdə durmaq)}**.**

uruş -**əsəv uruş**: **əsvəylə uruş**. həvəsə qarşı , nəfsə qarşı döğüş. öz savaş. (özü ilə savaş). töz savaş. (tözü ilə savaş).

uruş **vuruş. -uruş söküş**, görüşməyə yer saxla.

-iləri uruş: çox ilərləmiş savaş**. -**iyi başlanış, **iləri uruş**.

uruşa **-əngəllərlə uruşa**, ilgəri yür utuşa. (mane'lərlə vuruşub, iləri yeri zəfərərə sarı).

uruşur **-**evrən çönər bir oxluda dayanmaz, günün biri barışır , **günü gəlir uruşur**. (**oxluda: oxluqda**: əksdə. mehvərdə. istiqamətdə)**.**

urut çalış. vuruş**. -dünü unut, indiyə urut**, yarına durut, ertirə umuq, ilgəri utut. (**durut**: dirəniş. muqavimət). **(ilgəri:** iləriyə.gəlquca). (**utut**: utuş. qələbə).

uryan vuryan. vırğın > viranə. oran. koran. çoran. kovla. kovlaq. kovala. kovalaq. kanvat. kanbağ. kavla. kavlaq. kavalaq. kalava. kavala. qalağa. qalağat. qalavat. qalğa. çalava. çalağa. çalavat. çalağat. korata. koratıq. körük. koruq. korfəz. koruv. korav. kovalaq. çovalaq. yıxıq. yıxlağ. yıxalağ. yıxılat. yıxıntı. qapan. xapan. çağmar. çaxmar. qaçmar. qaşmar. qaşqam. qırlan. qırıs. qırıntı. qıyıntı. qırcıq. qırqım. qığqım. qıymıq. qımqı. tör töküntü. töklüt. töküntü. tökələk. töklək. çöküntü. çöknüt. çökək. çökəv. çökov. sökək. döğlük. döğnüt. döğlək. köndü. çöndü. çöpür. uçuq. uçut. baxımsız. qalıntı. oğral. sökə. sökgə. söggə. xaraba. xəraba. xərabə. məxrubə.

-bir **xapan** tapıb özün boşaltdı, dincəltdi.

us **1.**ilik. iliğ. ilgik. ilək. qısıq. qısus. (qısımış, qəlizlənmiş su, nərsə). usarə. üsarə. özsu. çəkit. sümük boşluqların dolduran yalı özək, öğək maddə. kəşik. çəkik. kəşgə. çəkgə. çəkmə. çəkdə. süzmə. araq. çaxır. sıra. seri.

şirə. bəslək. bəsi. özək. içək. iç. cirgə. çöküt. çəkilmiş. çəkikmiş. çəkirdək. çiğgə. içgə. çala. çəkirə. çöküt. qurqa. sıxqı. qısqı. qıçqı. qıyqı. öz. özək. özlük. özsu. toz. qınus. qoyas. maye'. maya. 1.baş. ağıl. -kişi sılar aş verər, **tarı sılar baş verər**. (**kişi**: adam). (**sılar**: saylar. silər).

-əlin işdə us başda, bilik qazan yaşlıqda. (**yaşlıqda**: yaşkən. gənckən).

us 1.öküt. ökdə. ağıl. -**öküt başdan çıxar**, qızıl daşdan. **1.huş**. ağıl**. -**kişigə gərək is könüldə , **us başda**. (**is**: duyarlıq. yiyə çıxmaqlıq gücü. üns. ülfət).

-dil uzun **us qısa** , **us uzun** dil qısa.

-us saqqal ilə ösməydi. (**us**: ağıl). (**ösməydi**: böyüməz)**.**

-artıq inanc istəyi, usandırır us başı. (**usandırar us başı**: ağıl başı çaşdırır). (artıq inanc istəyi kor edərmiş gözləri).

-içərikən əsirir ərquşlar, **olduğundan oluru us huşlar**. (**əsirir ərquşlar**: keflənir, qızır quş kimi kişilər)**.**

-dolçası yox, ip sallamaz, su çıxmaz, **bilim almaz, söz öğrəşməz us almaz**. (**us**: ağıl).

-us başda, ut könüldə.

-edmə qul könlü gözə, ökdə başın yığ sözə. **(ökdə: öküt.** us. ağıl).

us say. qaparat. önəm. əhmiyyət. əhəmmiyyət.

usa **-**başla könül bir olsa, **usa sığmaz iş yapar**.

usal **-**başın qoymaz söz dinləməz uşaqdan, **işlək ərin tovaş yılığ yeğ gəlir**. (**ərin**: ram. uysal. usal). (**tovaş**: güclü).

usal **uysal.** qayqıç. qayqaç. qayar. qayqan. yumşaq. kövəgə. kövəg. köndən. çöndən. yöndən.

usanar **-ulu dağlar geniş topraq usanar**, doğma eli doğma dilin yadavsa, kəsər bolluq, olmaz qolluq ol elə, yaşan eli kəndi dilin danarsa. (**yadavsa**: yadırqasa). (**bolluq**: bərəkət). (**qolluq**: qulluqçu. köməkçi).

usanc oysanc. qaramıt. qızqı. qısqı. girtuk. qaranat. uğursuzluq. qurluq. üzük. üzünütü. qam. qama. qəm. bağul. bağıl. kədər. kitir. bıqqınlıq. çökəzlik. çökətlik. fənalıq.

usanc usanıq. usancan. utanqan. uyatcaq. əzilən. çəkingən. qaçınqan. singin. utanan. uyatcaq. utancaq. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

usancaq utancaq. uyancaq. kəmsincik. kəmsincin. kəmsincən. kəmsincək. məhcub.

usancan usanc. usanıq. utanqan. uyatcaq. əzilən. çəkingən. qaçınqan. singin. utanan. uyatcaq. utancaq. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

usanıq usanc. usancan. utanqan. uyatcaq. əzilən. çəkingən. qaçınqan. singin. utanan. uyatcaq. utancaq. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

usanqın usanmış. bıqqın. bıqmış. tutğun. oysanmış.

usanmaq dilgir olmaq.

usanmaq qarımaq. qarıqmaq. qarılmaq. qarqılmaq. qarınmaq. qasımaq. qasınmaq. koralmaq. kora qalmaq. əsginmək. bezarımaq. bıqmaq. korşumaq. - oturaq (otruş. oturuş. olturuş. cələsə). çox uzandı, daha **qarıdıq**.

usanmaq qıq demək. bıq demə. bəs demək. bıqmaq. korşumaq.

usanmaq 1. (qaytıdan, tikrardan) bıqqınmaq. bıqmaq. qaytınmaq. taqqınmaq. tıqqınmaq. - **qaytına qaytına** sordu: bıqtıracasına soruşdu. 1. oysunmaq. oysanmaq. sansırmaq. qazınıb qalmaq. xiyalatlı olmaq.

usanmaq gizikmək. gizgimək. bezikmək. bezgimək. qaçıtmaq. qaçınmaq. qaçqınmaq. bıkmaq. bıkınmaq. çəkinmək. sakınmaq. nərsədən soğumaq.

usanmaz **-**yalan deyən, **öğurluqdan usanmaz**.

usanmazmaq utanmazmaq. uyanmazmaq. uytamazmaq. qaşarlanmaq. kaşarlanmaq. çaşarlanmaq. çaşqarlanmaq. qaslanmaq. qasarlanmaq. bərkinmək. aşqarlanmaq. azqarlanmaq. qızarqınmaq. çıpıtlaşmaq. yamanlaşmaq. pis, kötülükdə pişinmək, alışınmaq, alışqanmaq. aslağınmaq. asalanmaq. yalağınmaq. çalağınmaq. yırtınmaq. sarnıcmaq. süptünmək. sırtınmaq. sərtinmək. sırtarmaq. sıytarmaq.

usanmır **-**sevən könül acınmadan duranmır, sinsidirsə, sinsinmədən oyanmır, **sevgi gülü tikən içrə ösümsür, ayrıq oxu toxunmadan usanmır**. (**ösümsür**: becərilir).

usanmış usanqın. bıqqın. bıqmış. tutğun. oysanmış.

usanmış usmuş. ərişgin. çözgün. çözügün. üzgün. dağqın. solqun. durqun. qoşsuz. ruhsuz. üzgün. məhzun. qatı. ağır. yorqun. qıyaq. qıraq. qırıq.

usansız - **usansız, ağılsız davrananlara, alaylı öğüt olaraq söylənir:** ötüyü böyüyə oxut. (**ötük**: başmaq). (**oxutmaq**: görsətmək. göstərmək). dəli olmusan!.

usantı **-**söz sözü çəkdi yol uzandı, verən olmadı, qol uzandı, ayaq getdi baş usandı, yalan dünya yalan dünya.

usantırır **-**artıq inanc istəyi, usandırır us başı. (**usandırar us başı**: ağıl başı çaşdırır). (artıq inanc istəyi kor edərmiş gözləri).

usantırmaq **usandırmaq.** gizikdirmək. gizgiditmək. bezikdirmək. bezgiditmək. qaçıtmaq. qaçıtdırmaq. qaçqıtmaq. çəkindirmək. quşqulandırmaq. ötdəkləndirmək. sakındırmaq. bıkdırmaq. nərsədən soğutmaq, qoxutmaq. -ağzıvı açma, açısan hammını çevrəndən **gizikdirirsin**.

usar coşar. -**düşman qaçanda usar**, düşman görəndə pusar.

usarə üsarə. qısıq. qısus. (qısımış, qəlizlənmiş su, nərsə). özsu. ilik. iliğ. ilgik. ilək. us. çəkit. sümük boşluqların dolduran yalı özək, öğək maddə. kəşik. çəkik. kəşgə. çəkgə. çəkmə. çəkdə. süzmə. araq. çaxır. sıra. seri. şirə. bəslək. bəsi. özək. içək. iç. cirgə. çöküt. çəkilmiş. çəkikmiş. çəkirdək. çiğgə. içgə. çala. çəkirə. çöküt. qurqa. sıxqı. qısqı. qıçqı. qıyqı. öz. özək. özlük. özsu. toz. qınus. qoyas. maye'. maya.

usarmaq üsdə qalxmaq. coşmaq. çabıya düşmək. qeyrətə gəlmək. qələyan edmək.

usqan ussun. qoca. başlı. ağıllı.
-**gəlgeç**: **gəlgeç başlı**: **gəlgeç ağıllı**: **qarsov**. **qorsov**. **qoğsov**. **yarı dəli**. **dəlisov**. qudurman. quduman.

usqanlıq uslanlıq. ussunluq. başlıq. başlılıq. qocalıq. ağıllılıq.

usqıt ussuz. huşsuz. kovsaq. kavsaq. kavsalaq. kovsalaq. kavlaq. kovlaq. ağılsız. qarsala. qatsala. kovsuk. oğsuq. yoxsuq. başıboş. axmaq. kirik. girik. qırıq. qıtıq. güdələk. güdlək. saynağ. sanrığ. kovtum. kovtulum. hoytulum. quşdurum. kütdülüm. gay. gəy. xay. keh. gic. girəcula. başsız. gickəsəmə. giciksimik. gicsıq. gicqan. səfeh. qınto. qınta. qıntal. qantal. kovtum. səfeh.

usqun sığqın. sıxqın. çatqın. darqın. boğqun. çaşqın. dolqun. qısqın. basqın. fışqın. girgin. üzgün. dözgün. dayqın. qıpqın.

usqun **usğun. üzgün.** qırçal. qırçan. qırçıl. qırçav. qırça. qırçava. qırçov. qırço. qırqın. qırıl. qıyaq. qıraq. qırıq. sınğın. singin. tutuğ. ötgün. bitgin. yorqun.

uslaq **suylaq.** çoğur. çevri. quylaq. korlaq. oyulqan. oyultu. bulğac. burqaş. burqaç. boğac. çalboğ. çalbov. girdab.

uslan qapıl. qaplı. qapal. qapmal. yapıl. yapal. yapmal. yasla. yasal. yasıl. yasmal. ağırbaşlı. salğarlı. barqa. bilgin. bilgili. tarmal. tarmıl. tarmalı. tarımlı. tarımlı. kültürlü.

uslan uslaş. uzlaş. əslək. əsnək (**əslək** < **əsmək**). başlı. mə'qul. ağıllı. dikəbaş olmayan.

uslanqıl **-**kəndi usun yetinməz, **ussuz görüb uslanqıl**, başsız görüb başlanqıl. (**yetinməz**: yetənoq. kifayət edməz). (çevrədən öğrəşməyən, başarlıq edinəməz)**.**

uslanlıq usqanlıq. ussunluq. başlıq. başlılıq. qocalıq. ağıllılıq.

uslanmaq 1. əslənmək. durulmaq. qoyalmaq. qoyulmaq. qulağ asmaq, vermək. usmaq. etgilənmək. təpgilənmək. dinləmək. aldırmaq. düşünmək. düşləmək. öğrənmək. qonaylamaq. qonlamaq. qonamaq. onaylamaq. onamaq. tutunmaq. qəbullanmaq. **1.uzlanmaq.** əslənmək. yumşanmaq. köndənmək. çöndənmək. yöndənmək. uysanmaq. uysalmaq. duyar başlanmaq. sazlaşmaq. durulmaq. qoyalmaq. qoyulmaq.

uslanmaq öğlənmək. kəndinə gəlmək. toparlanmaq. ağlı başına gəlmək.

uslanması başlanması. ağıllanması**. -**başlı olub yaşlanması oluqlu, **yaşlı olub başlanması olanoq**. (**oluqlu**: olurlu. imkanlı). (olanoq: imkansız)**.**

uslaş uslan. uzlaş. əslək. əsnək (**əslək** < **əsmək**). başlı. mə'qul. ağıllı. dikəbaş olmayan.

uslatmaq öğlətmək. kəndinə gətirmək. toparlatmaq. ağıl vermək.

uslu **1.** mə'qul.**1.** huşlu. ağıllı**. -uslu başın dənin dartar**, ussuz başdan qəmin artar. (**qəmin**: dərdin)**.1.**ökdəli. ökütlü**.** ağıllı. -**ökdəli ol öğüt yığ**, ökdəsiz ol öğüt ver.

-at aldınsa yorqa bilən yüvrük al, **arvad aldın duzlu bilən uslu al**.

-uslu başlı ərənləriz, doğru yoldan gedənləriz.

-hovan sürər devranı, **uslu oyun aylanı**. (**hovan**: axmaq). (**oyun aylanı**: fikrin əsiri)

-başçı oldun uslu ol, yola çıxdın çuslu ol. (**çus**: yarıq. bağlarla ayaq üsdə bərkidilmiş gön yarığı, tikəsi. ayaqqabı çeşiti)

-dəğərlərin üstünü, **sağlı əğin uslu baş**. (**əğin**: tən)

-heçin uslu öz özünü öğməmiş, ussuz olan öğünməkdən keçməmiş. (**öğməmiş**: qaldırmamış). (**öğünməkdən:** qaldırınmaqdan).

-uslu başlı, ağır yaşlı, qələm qaşlı sığmaşmaz. (**sığmaşmaz**: bir yerə sığmaz)

-uzun dilli **güdə uslu**

-kəndini uslu sanan öyləsinə tuş qalır, mən sənə qıymam deyən, vurmuş yara dərindən. (**uslu**:ağıllı). (kəndivə güvən)**.**

-kəndimi uslu sandım, qıymam sənə mən deyəndən, dərin yaramı aldım.

-dəniz qayıqdan , dağ qurtdan qorxmaz, **uslu yaşam dad dolusu**, yaşandıqca doyulmaz. (**uslu yaşam**: saysanalı, hesab kitabla sevib, yeyib içib, çalışma).

-uslu özün övməz, doslu kişi təkəz qalmaz. (**təkəz**: **təkiz. təkin**. yalın. köməksiz. tənha < **tanqa**).

-dadlı uslu sözlər.

-kalva öğrətmiş, **uslu öğrənmiş**. (**kalva**: axmaq). (**uslu**: ağıllı)**.**

-uslu kişi uslu olsa üşlənməz, iş çağında oyaq olur düşlənməz. (**üşlənməz**: ikilənməz. quşqulanmaz. şəgg edərək çəkilməz)(**düşlənməz**: **düşlənməz**. mürgüləməz. yuxusun almaz)**.**

-uslu irsən hər bir sözə uymaqıl, hər gələnə uyanlar, düşər aldan ala.

-**huşlu uslu:** çaparat > hamarat. taparat. təpərət. qoçqarat (damarlı. cəsarətli). işinə, istəyinə düşgün, vurqun. qapsığan. qapcığay. sağnışlı. sağışlı. sağıclı.

müsəmməm. yenğişli. qanğırıq. yanğırıq. iştiyaqlı. həssas. zəkalı. sınac. sınacan. sinəcən. çox dəqiq. pounctilious. çalışqan. qeyrətli. salman. salaman. ərgin. sırvaş. sırvat. ciddi.

uslubaş **-**aşmış çayı dəlibaş, **körpü arır uslubaş**. (**toğarsız (**risksiz) kişi gəlişməz) **{tağar:** < **toğar. tuğar**.(< **tuğ**) (iki dalqa arasında oluşan qorxunc oyuq).təhlükə. risk}. (risksiz gənc pişməz)**.**

usluq usluq. mə'qul**. -bilgə ölər**, usluq bilgə bildiklərin öğrədər. (**usluq**: mə'qul). (bilgə ölər, usluq bilgə öğrətməklə bildiklərin qurtarar).
-sağlıq yaşam ayağı, **usluq onun açağı.**(**açağı**: tədbiri)**.**

uslusu başlısı. ağıllısı. -başlısı ras gəlmədi, dəlisi az gəlmədi. (**başlısı**: uslusu. ağıllısı).
-bir başçının uslusu, munbir işçi yönəldər, bir başçının ussuzu, bir elgəni göməldər. **(munbir: minbir).** (**yönəldər**: götürür. qutarır). (**elgəni**: milləti). (**göməldər**: batırar. zəlalətə çəkər)**.**

uslusu -**bir yığvanın, quruhun ən uslusu, ağllısı:** gözbaş. {"**göz. kös. qoz**". bir sözün önünə artırılaraq, ona **"kösmanlıq. gözmanlıq. öncülük. öncüllük. başlıq.** " anlamı verir}.

uslusun **-**gülü sev, tikənin qorun, **sözü dinlə, uslusun savun**.

usmaq 1. aldırmaq. tutşunmaq. tütşünmək. qibtələnmək. rəşg aparmaq. **1**. əslənmək. uslanmaq. durulmaq. qoyalmaq. qoyulmaq. qulağ asmaq, vermək. etgilənmək. təpgilənmək. dinləmək. aldırmaq. düşünmək. düşləmək. öğrənmək. qonaylamaq. qonlamaq. qonamaq. onaylamaq. onamaq. tutunmaq. qəbullanmaq.

usmaq 1. ummaq. qanazmaq. sanmaq. 1. qayqırmaq. qanğırmaq. sanğırmaq. aldırmaq. önəmsəmək. saltamaq. sayğımaq. saymaq. sıymaq. sıylamaq. hörmət göstərmək.

usmamaq halamamaq. önəmsəməmək. aldırmamaq. qıloymamaq. aldırış, təvəccüh, diqqət edməmək. umursunmamaq. umursanmamaq. sincikməmək. saysalmamaq. saylınmamaq. taxınmamaq. omuz silkələmək.

usmanlı usmuş. qulağı kəsik. görmüş keçirmiş. çox sınav keçirmiş kimsə.

usmuş usanmış. ərişgin. çözgün. çözügün. üzgün. dağqın. solqun. durqun. qoşsuz. ruhsuz. üzgün. məhzun. qatı. ağır. yorqun. qıyaq. qıraq. qırıq.

usmuş usmanlı. qulağı kəsik. görmüş keçirmiş. çox sınav keçirmiş kimsə.

ussallıq **osallıq**.

ussun usqan. qoca. başlı. ağıllı.

ussunluq usqanlıq. uslanlıq. başlıq. başlılıq. qocalıq. ağıllılıq.

ussuz **-**heçin uslu öz özünü öğməmiş, **ussuz olan öğünməkdən keçməmiş**. (**öğməmiş**: qaldırmamış). (**öğünməkdən:** qaldırınmaqdan).

-uslu başın dənin dartar, **ussuz başdan qəmin artar**. (**uslu**: **huşlu**. ağıllı). (**qəmin**: dərdin)

-bir başçının uslusu, munbir işçi yönəldər, **bir başçının ussuzu, bir elgəni gömeldər**. **(munbir: minbir).** (**yönəldər**: götürür. qutarır). (**elgəni**: milləti). (**gömeldər**: batırar. zəlalətə çəkər)

-ussuz olan iş sonunu qaramaz, buğda əkən, qoğun qarpız baramaz, bilgə içə yoldan keçən yaramaz, öğrəşib qıl gördüklərin unutma. **(baramaz**: bar endirəməz)

-gülü susuz, yaşı duzsuz, **başı ussuz bıraxma**. (**yaşı**: yaşamı. hayatı)**.**

-kəndi usun yetinməz, **ussuz görüb uslanqıl**, başsız görüb başlanqıl. (**yetinməz**: yetənoq. kifayət edməz). (çevrədən öğrəşməyən, başarlıq edinəməz)**.**

ussuz 1. korabaş. orabaş. orbaş. korafəhim. 1. **usuz.** qursuz. qorsuz. xımsız. himsiz. özülsüz. yandıq. qandıq. dibsiz. təksiz. köksüz. köməncsiz. kötəncsiz. kökəncsiz. köməcsiz. kötəcsiz. kökəcsiz. köməşsiz. kötəşsiz. kökəşsiz. tözsüz. dözsüz. tüzsüz. düzsüz. özsüz. təməlsiz. timəlsiz. soysuz. quşaqsız. dölsüz. öğəsiz. ilkəsiz. ilkəcsiz. ilkəşsiz. dayanaqsız. cıtamsız. cıdamsız. cıtansız. cıdansız. qıvansız. qıtansız. tıxansız. tıxamsız. cıtancsız. qıvamsız. qıtamsız. qıvancsız. qıtancsız. tıxanc. dabansız. doğusuz. damarsız. ayaqsız. covhərsiz. sübstanssız. əsl nəsəbsiz. rişəsiz. əslsiz. payasız. parasız. əsassız.

ussuz 1. qaparatsız. önəmsiz. saysız. əhmiyyətsiz. əhəmmiyyətsiz. 1. huşsuz. usqıt. kovsaq. kavsaq. kavsalaq. kovsalaq. kavlaq. kovlaq. ağılsız. qarsala. qatsala. kovsuk. oğsuq. yoxsuq. başıboş. axmaq. kirik. girik. qırıq. qıtıq. güdələk. güdlək. saynağ. sanrığ. kovtum. kovtulum. hoytulum. quşdurum. kütdülüm. gay. gəy. xay. keh. gic. girəcula. başsız. gickəsəmə. giciksimik. gicsıq. gicqan. səfeh. qınto. qınta. qıntal. qantal. kovtum. səfeh.

usta **1.**attım.atlım. mahir. **1.** çəpər. peşəkar. uz. -**uz** kamançı.

-boq görməyən sıçdığını boq sanar, **asda usda düz gedən, yaşar sürər yorqalar**. **(boq: pox). (yorqalar**: çox qolayına istəklərinə çalışar). (evrənin görgəzdiklərin tam varlıq, tüm varlığın sanma, bətəri var. azdan gedib azışma, çoxdan gedib üzüşmə, güdə görub yürüşmə, uzun görüb büzüşmə. kəndivə güvən, yularlı yürən). (**yularlı yürən**: ortamı, yoxlamı tut. toxdan, kontrol ed. e'tidalı saklan).

-heç bir kəzin yaman ilən yürüşman, yamanlama, yalan ilə barışman, **asda yürən usda gedmiş yorulman**, ağzıala köpçülüyə baş bolma. (**yürüşman**: yoldaşlıq edmə) (**ağzıala**: sözü bir olmayan. müttəhid olmayan). (**köpçülüyə**: cəmiyyətə).

-usda görən usdə ular. (usda görməmiş usdə ərməmiş). (boşqadan baş çıxaran, başaq bağlamaz). (**başaq**: önüm. hasıl).

usta 1.**uzta. -**dalqasız su **uzta üzən yetirməz.1.**kəsgin. qırdıma. qırdırma. qıvcıv. qırval. qırvac. qıvral. qıvrac. cəld. çalıt. qurnaz. qura. zirək. zirəng. iti. qılav. qılac. bilən. mahir. çaçur. sivir. bacarıqlı. güpərim. küpərimli. güpərimli. kipərimli. -**kəsgin oxçu**: doğru nişançı.

-asta gedən uz gedər, **usta gedən düz gedər**. (**uz**: uzaq)**.**

usta **usda.** gitrə. gitər. girət. girdə. çəpər. -bu işin **girdəsi** bu yurdda tapılmaz.

-**sınıq, qırıq nərsələri iyi onaran usda:** qordoğuran. qırdoğuran.

ustaçı bacarçıdan. peşəkardan. -bacarçıdan iş qalar, sözərindən söz qalar, igid ölər iz qalar, odu sönər köz qalar, karvan köçər yurt qalar. (**sözərindən**: bilgədən. çeçendən. xətibdən. ədibdən).

ustam **-**ilmək sallam pul allam, ustam qızını allam, **ustam qızın verməsə, ilməyi tərsə sallam**.

ustan **usdan**.başdan**. -**vardan yoxsul keçərlik, **usdan yoxsul ömürlük**.

-usdan güc alan minin yıxmış, qoldan güc alan birin yıxmış

-usdan güdə uzun dilli olur.

ustası -**iş usdası**: iş bilən. iş qurdu. qocaəl. dənəmli sınavlı kimsə. orağ. oynağ. çağlağ.

ustattan **-gündə varıb savaq alsan ustaddan**, bağlı qapı yarıq olar üsqatdan.

(**savaq:sabaq**: dərs)**.**

ustə **-**usda görən **usdə ular**. (usda görməmiş usdə ərməmiş). (boşqadan baş çıxaran, başaq bağlamaz). (**başaq**: önüm. hasıl)**.**

ustələnilmək götürmək. yüklənmək. ibermək. ebirmək. aparmaq. yaparmaq. evirmək. öhdələnilmək.

usu **-**bir doğalaq dışı var, altından yoldaşı var, onu bilən yigidin, **başı bilən usu var**. (**doğalaq**: dövirək. girdə. şar). (**dışı**: görnüşü). (**tapmaca**). (ay. gün).

-usu qısa uzun dil**.**

usullu saya. baya. normal. (yörəl. yürəl). düzənli. qaydalı. qayqalı. qatdalı. qatqalı. yasqalı. yasalı. yasqal. yasal. yatqalı. yataqlı. yatalı. yata. yatal. yönəli. yönəl. yönətli. yönətil. yöngəli. yöngəl. yürətli. yürətil. yürtəli. yürtəl. yörətli. yörətil. yötəli. yötəl. yör yötəli.

usullu **-usullu baş yaşamında ən gözəli neyləyir**, **dadımlı baş yaşamına gözəlliklər ağdaranı axdarar**. (**dadımlı baş**: yaşam dadın seçən kişi)(**ağdaranı**: köçürdəni. gətirəni).

usum **-**nisgil dolur sənsiz ötən günlərə, könlüm gəlmir bağçalara bağlara, yas saxlayır qaragünlər ağlara, **sənsiz usum başdan uçar gecələr**. (təkin)**.**

usun 1. huşun. ağlın. -qoymaz dincə qala bir gün, **yığsan usun başa dünya**.

-könül çəkər inama, unutsa baş usunu. **usun başda yığılsa**, könlü yular düz yola. (həvəsə qapılma). (könül istər istəməz güvən arar, inanmağa çəkilər, istərki inansın, dinc bulsun. ağlıvı yığ başıva, könül cilovun, noxdasın yığ, düz yola yönət). (ağılsız könül düz yolun bulanmaz)**.1.**ağlın-**usun dəngi**: usun, ağlına görə.

-əldə malın, qolda gücün, **başda usun olursa**, düşman dönüb gələr sənə dosd olar, yoxsul olsan qaçar səndən dəh döşün, yaman çıxar yaxcı qılığ işlərin.

-kəndi usun yetinməz, ussuz görüb uslanqıl, başsız görüb başlanqıl. (**yetinməz**: yetənoq. kifayət edməz). (çevrədən öğrəşməyən, başarlıq edinəməz)**.**

-altun bilim birgəşsə, **könül usun dincələr**. (para ilə bilgi birləşsə, **könül usun dincələr**: canın başın dinc alar)**.**

usun **-gur qoşun, usun**: qalın suv.

usunla **-**çoxluqla ötüş , **öz usunla yür**. (**çoxluqla**: başqalarla). **(ötüş:** gəngəş**)**

-doğru yola könüllə inan, **usunla yürü.** (**usunla**: ağılla).

usunu **-**könül çəkər inama, **unutsa baş usunu**. usun başda yığılsa, könlü yular düz yola. (**usunu**: ağlın). (həvəsə qapılma). (könül istər istəməz güvən arar, inanmağa çəkilər, istərki inansın, dinc bulsun. ağlıvı yığ başıva, könül cilovun, noxdasın yığ, düz yola yönət). (ağılsız könül düz yolun bulanmaz)**.**

usunuş önəriş. pişnəhad vermə.

usuş **-**dilindi varlığın sənin, dilsiz varlıq nəyivə gərək, öykün oyun, sayın sanağın, dil oylanış, usuş qanış kişiyə gərək. {dil oylanış (sözlə duşünmə) birgə yaranmış}. (öykün oyun, sayın sanağın: zikrin fikrin). (**usuş qanış**: düşünüb qanma)**.**

usuva ökdəvə. öktüvə. ağlıva**. -**könlə qul edmə gözü, **ökdəvə yığqıl sözü**. (**sözü**: mə'nanı)**.**

usuz -**usuz bucaqsız:** kərtil. engin.

usuz **ussuz.** qursuz. qorsuz. xımsız. himsiz. özülsüz. yandıq. qandıq. dibsiz. təksiz. köksüz. köməncsiz. kötəncsiz. kökəncsiz. köməcsiz. kötəcsiz. kökəcsiz. köməşsiz. kötəşsiz. kökəşsiz. tözsüz. dözsüz. tüzsüz. düzsüz. özsüz. təməlsiz. timəlsiz. soysuz. quşaqsız. dölsüz. öğəsiz. ilkəsiz. ilkəcsiz. ilkəşsiz. dayanaqsız. cıtamsız. cıdamsız. cıtansız. cıdansız. qıvansız. qıtansız. tıxansız. tıxamsız. cıtancsız. qıvamsız. qıtamsız. qıvancsız. qıtancsız. tıxanc. dabansız. doğusuz. damarsız. ayaqsız. covhərsiz. sübstanssız. əsl nəsəbsiz. rişəsiz. əslsiz. payasız. parasız. əsassız.

uş **iş**. göstərici ön ək.

-**işbu**: uşbu. (**iş + bu**). bu. bu biri.

-**iştə**: (**iş + tə**. **də**: o. hə). belə. bəs. belədi ki.

-**uşol o**: o biri.

-**uşunca**: o qədər. o dənli. o dəkli. o canlı.

-**uşunda**: orda.

-**uş**undaq: beləliklə.

uşa -**uşa yeriməyə başlamaq:** köstəği qırmaq, çözmək**.**

uşaxbaz **uşaqçı.** oğlançı > qulamçı (> **qulambarə**).

uşaxbazlıq **uşaqçılıq.** oğlançılıq > qulamçılıq (> **qulambarəgi)**.

uşaq - **uşağ oyunu adı:** qapba qapba.

-oğul, uşağ doğan: oğlaman.

- uşaq, oğul əldən vermə acısı: oğul üzüyü.

-uşağ baxcası: (məhdi kudək). oğunduruq.

-ögey, üvey uşaq: oğulluq.

-oğlan uşaq: **oğul uşaq**: çoluq cocuğ. ev tünlüyü.

-uşağ yiyəsi olmaq: oğullanmaq.

- əziz uşaq: oğulbala. oğulcuq.

-uşağ oyunu: qapqaraqazan.

-uşağ oyunu adı: qaraqzan

-uşağ oyunu adı: qatardüzək.

-yeriməsində gecikən uşaq: oturaq. yerimə çağı gəlibdə yeriməyən cocuq.

-çox bilmiş uşaq: qart.

-yassı, qayqan kiçik daş. bu daşı ayaqla itərək, vuraraq oynanan uşağ oyunu: qaydıraq. qayadaşı.

-evlilik dışı ilişgidən olan uşaq: qatır. qırıq dölü. bic. bij. qopıl. qopuq. vələdüzzina. vələdülzina.

uşaq **1.** çaluğ**. -**yaluğ sözdən, **çaluğ gözdən**, yılığ yemdən bəslənər. (adam sözdən, uşaq gözdən, heyvan yemdən bəslənər). 1.torqa. axmaq. -ata oğul dış bolmuş, doğma doğan yad olmuş, **torqa başlar baş olmuş,** şoraqlıqda göy çıxmaz, böylə eldən el çıxmaz. **(dış bolmuş**: yad olmuş). (**doğma doğan**: qohum tanış). (**şoraqlıqda: çoraqlıqda**). 1.çapat. sapat. oğul. soy, kök göstərən ək olaraq ada quruqlanır. -xan**çapat**: xanzada. -əli**sapat**: əlizada əlizadə. **1.**xırda. çıpa. (**sıpa). (**< **çırpmaq**). bir para heyvan balalarına verilən ad.**1.** oğlan. cocuq. -oğlan əlinə daş vermə. (**uşaq nədir** tüfək nədir). (**uşaq nədir** piçaq nədir). (nə yapdığın bilməz).

-uşaq nədir tüfək nədir. (uşaq nədir piçaq nədir). (nə yapdığın bilməz). oğlan əlinə daş vermə. **(oğlan:** cocuq. uşaq).

-uşağ kəlləsinin ortasındaki yumşaq bölüm: əmlik**.** (məlac).

-uşaq daşqası, kalısqası, çərxi: çağarac.

-**uşaq yumşaq:** cocuq sucuq.

-**uşaq, yumşaq:** uşaqla, yumşaq olmalısan.

-**uşaq yarağının biz başı**: cüvək. civik. süvək. sivək. sibək.

-**uşaq** sınğarı.(**sınğarı:** kimi).

-əkdisiz uşaq yaşamış, yarımamış. (**əkdisiz**: ədəbsiz. tə'limsiz)**.**

-könülsüz uşaq gülə bilməz, **könüllü uşaq** dura bilməz. (**könülsüz**: qussəli). (**könüllü**: sevincli. şad)**.**

-kişi uşaq doğur körpədə ölür, pişməyi güdür, pişməmiş ölür. (adam ha dək yaşlansın belə çiğ qalır)**.**

-atanası sevən kimi **sevəmədi heç uşaq atanasını**.

-ölüm boğur, qırır oğur, tüm yollara yasaq qoyur, hər gedişə pasqal (mane') törür , **uşaq bilməz qoçaq bilməz**, sıcaq bilməz, soyuq bilməz, yaşıl görsə pozur qoyur, axar sular donur qoyur.

-**uşaq yana: bala yana:** oğşağu. balavı.

-**kişi uşaq doğulur, uşaq yaşlanır, uşaqda ölür**. (kişioğlu uşaq gəlir uşaqda gedir).

-**uşaq muşaq**: ucuq bucuq. oğlan moğlan. balaca malaca. xırda mırda**.**

-yıxılıb qalxar, **qalxıb düşər öğrəşər uşaq** ayaqda durmaq.

-uşaq olan tələsməz, ağır işə ilməşməz. (**ilməşməz**: can atmaz. maraqlanmaz)**.**

-doğursa bir uşaq ana, boşludur ana, anadil ona.

-kiçik uşaq, cocuq: bızdıq.

-qızıqlı olsa uşaq dinləyə öğüd, işi başda, barmağı aşda. (**qızıqlı**: maraqlı. əlaqəli).

-yaş keçirsə, ürək yaşalıb qocalar, **sevgi varsa, könül yaşar uşaq qalar**.

-hər günün başqa, **yeni bir uşaq**, yetərki yeni gözlə bax.

-kişi qudur artıq dəğər biçərsin, **uşaq çürür**, **artığına sevərsin**, çiçək qurur, artqısına suvarsın. (**qudur**: **qudurur**. azır)**.**

-dəliylə uşaq, sıçanla muşaq. (**muşaq**: pişik). (evrən başa çevrilir)

-dəliylə uşaq, düşük quşaq. (**düşük quşaq**: tumanı düşük. burda anlam genətməsi, onlardan nə desən, çıxar. gözlənilməlidirlər).

-əsrik uşaq içindəki dilində.(**əsrik**: kefli)

-sevgim ana mən bir uşaq, vurub əzsə genə ondan qaçanmam. (**sevgim**: eşqim)

-**çağa, uşağ kimi, sayağlı olan:** çağatay. çağası. uşağsı.

uşaq -**sapa düzülmüş, sağanaq biçimli, uşağ oyuncağı** (sağanaq: qırılmadan, şırdırğı yağan yağmır) gilgilə. -ördək **gilgiləsi**.

uşaq -**uşağ muşaq:** uşqa çuşqa. kərdəzən. kərgələk. çoluq cocuq. hər nəyin ovağı, xırdası, kərtəsi.

-uşağ yerişi kimi kiçik, iti addımlarla: qıbıtıq qıbıtıq. qıpıtıq qıpıtıq. qıbıl qıbıl. qıpıl qıpıl. qıbış qıbış. qıpış qıpış. kip kip. qıp qıp. -**qıpıtıq qıpıtıq** gedmə, açıq addımlarla qaç.

-qavruq, cılız **bir uşaq**.

-uşağ salmaq: kestimək. kestəmək. kestirmək. düşürmək. siqt, kurtaj edmək.

-çəmbər biçimli uşağ oyunçağı: qındırlaq.

-uşağ ayaqqabısı: gədik. qırağan.

. -**kəlləli qulaqlı, bilgin uşaq:** kələbala.

uşaq **-uşaq gördüyün götürür**, böyük götürdüyün görür. (**götürür**: öğrəşir)

-uşaq kimi: uşaqsini. **-**danla atıb günlə batam, **uşaqsini yerdə yatam**.

uşaq -**yaşlı başlı olaraq uşağ qılıqlı olan:** qıllı bəbə.

uşaq **qoşaq. qoğşaq.** söz gəzdirmə. süxənçinlik. -**qoğşaq** söz: aralıq sözü.

-**çox cürə doğulan uşaq:** qırşda. qıynaq. qısılca. qırşad. qırışda. qırışad. qını. kiçik. köçək. köçük. kövçək. kövçük. qırtca. qıtca. kərdil. qımıcıq. qımıq. qındıq. cürə. -qonşunun qızı bir **qıynaq**.

-**qucağda gəzdirilən uşaq:** qucaq cocuğu.

-**yeni çıxmış, göyərmiş, törənmiş uşaq:**körpə. körmə. görbə. görmə. gözbə. gözmə. kürbə. cürbə. sürmə. sürbə. sürəb. törmə. törbə. törəb. çapma. çapra. çarpa. sapma. sapba. saçma. düşmə. düşbə. düşəb. çox gənc. nobar.

-**yaşlı olubda uşağ yana davranmaq:** qoca bəbə. qoca qoduq. (**qoca**: yaşlı).

-**körpə uşağ daşıma üçün qucağa, kürəyə bağlanan torbacıq:** götürgə. götürək.

-**uşağ oyuncağı olan başı təkərli çubuq:** qıldırqı. qıldırqı. qındırqı.

-**uşağ oyunlarından "çəlik" oyunu:** qıldırıqııc. qındırıqıc.

-bir uşağ oyun adı: **qırqır.** { -oynayanda uşaqların biri deyirdi "bir quşum var bir belə, qanatları var bir belə"}**.**

-**gənlliklə uşaq, cocuq:** qırı. qırıq. qıdıq. qıtıq. qıru. qoduq. körük.

evlilik dışı ilişgidən olan uşaq: qırıq dölü. bic. bij. qopıl. qopuq.

-**uşağ dilində gözəl, kiçik, inci minci, yeni geyim, nərsə:** qırcı. qırıc. qıcı. cici. balama **cici** alacam.

-**"yaman uşaq. qırılası. vırqına gəlmiş" uşaqlara qızaraq söylənir:** qırlıqan. qırılıqan.

-**evlilik dışı ilişgidən olan uşaq:** qırma. düzqanlı, taysoylu olmayan. soysuz. qırıq dölü. bic. bij. qopıl. qopuq. vələdüzzina. -bu **qırma** ilə əl ələ sürtmə.

-**qırxın doldurmamış uşaq:** qırxlı.

-**bir kərədə, birlikdə bir anadan doğulan uşaq**: qoşa ikiz. qoşa ekiz. qoşa əkiz. qoşman. toxulu. (> **do qulu** (fars)}.

-**birbirin qoğalaraq yapılan uşağ oyunu:** qoşmaca. qaçmaca.

-**ərkək oğul, uşaq, cocuq:** qızan. qıran. -**qız qızan** birbirinə qarışmış oynurdular.

-**qız qızan oxul**: qız oğlan qarışıq mədrəsə. -**qız qızandan** nəyin var.

-**ərköyül nonor ərkək uşaq:** qızbibi. ürəgən, ürkən, ürkük, qorxaq ərkək oğlan. eva xahər.

-**günü çatmamış, çağ öncəsi doğan uşaq, olan iş, olay:** günsüz.

-**kiçik uşaq**: kiçik kişi. qıtım. qırım. qıtam. qıtımıq. qıtalaq. qıtamıq. qıram.

-**uşağ oyunu:** kospalan.

-**uşağ oyunu:** gözyumma.

-**uşağ oyunu:** köçköçü.

-**uşağ yorqanı:** köpənə.

uşaqa -**uşağa yapılan kiçik çörək:** çilik. gilik. kitik.

uşaqa **-yeni diş çıxardan uşağa pişirilən buğda yeməyi:** dişək. (**dişlək).** diş yeri.

uşaqbaz **uşağbaz**. oğlançı. uşaqçı.

uşaqbaz qırıqçı .

uşaqca uşaqyana. balaca. kudəkanə. bəççəqanə. -**balaca** danışma.

uşaqçı **uşaqçı. uşaxbaz.** oğlançı > qulamçı (> **qulambarə**).

uşaqçılıq **uşaqçılıq. uşaxbazlıq.** oğlançılıq > qulamçılıq (> **qulambarəgi)**.

uşaqı **- süt uşağı**: süt oğul.

uşaqı -evin **ilkin uşağı**: { **ilkinc. ikin**. **}**. bircin. birinc. ilkin. ilkinc.

uşaqı **-uşağı güdüb, gözləyən kimsə:** ətəkə**.** atağa. lələ.

-**evdə işləməyə tutulan qız uşağı**: qaravaş. (keçmişdən yoxsul ailələlərin, rəiyyətlərin uşaqları , öksüz uşaqlar bu işə tutulurdular).

-analar aldanmaz, atalar aldatmaz, sevişib doğar uşağı, ozaldan budur uğraşı.

-dəvəçi uşağı, qənov qırağı, zəncan piçağı.

uşaqı -**uşağı sütdən açmaq, ayırmaq:** kəstirmək. kəsitmək.

-evin ən kiçik uşağı: kərdi. eni. ini. sonbeşik.

-**qol uşağı:** gəmir. çəmir. gəmik. çəmik. sırbaş. sırıbaş. sırabaş. mübsür. gözçü. gözəç. düzün yardımçısı.

uşaqı **-yatıb, sevişibdə, uşağı olmasının qabağın almasına görə bu adı almış:** qısıq. qıcıt. qızmış. keşgilli. çəkgilli. çəkilli. şəkilli. peşgilli. deşgilli. keşgil. çəkgil. çəkil. şəkil. peşgil. deşgil. pisgilli. pisgil. oynaq. qəhbə. -**qızmış** qızar soğumaz, qıyın qırar doyumaz.

-**körpə uşağı qırxında yumaq:** qırxlamaq**.**

-**qol uşağı:** girgid. mübsür.

-**qol uşağı**: polis işçisi.

-qız uşağı: kişə. kiçə. kiçgə. -**kişəni** ağlatma.

qol uşağı: qoca baş. büksür. mübsür. bir yerdə düzən yasam görəvlisi.

uşaqın **-(**uşağın ayaq açması): təti pati yerimək. itlənmək**.**

uşaqın **-**gündüzün günəşə, gecənin aya, **uşağın anaya, quşun yuvaya**, ağacın torpağa, torpağın suya, yalğının yaluğa gərəksini var. (govgan). (**yalğının yaluğa gərəksini var**: insanın insana ehtiyacı var).

-uşağın gücü atanasına çatar!**.**

uşaqın -**uşağın başının əmziyi, yumşaq yeri:** gənğiz. genğiz. geniz. gənzik. genzik. -uşağ yıxılıb **gənziyindən** yarıldı.

uşaqın -**uşağın adın qoyan kimsə:** ad atalıq.

-**oğlan uşağın kəstirmədə təməl ortaqlığı olan kimsə: kəsmə atalıq.** girvə. kitvə. kirtə.

-uşağın poxu, böyüklər yıxar. (uşağ su tökər, böyük yıxılar. **(su tökmək:** əl suya yetirmək. sıçmaq).

-**uşağın iç geyimi:** kitlik. kittik.

-uşağın, ölənin qırxıncı günü: qırxım**.**

uşaqıtıq **-uşağıdıq qaçdı kölgə bizdə onun dalıca**, söndü ışıq itdi kölgə, bizdə onun dalıcan.

-uşağıdıq qaçdı kölgə bizdə onun dalıca, **söndü ışıq itdi kölgə, bizdə ışıq ardıca**.

uşaqla **-uşaqla pulu əldəkən qoru**, bıraq izin qapdıqda börü. (**börü**: qurd). (qapdıqda börü: qurda yem olursa. doğru yoldan sapırsa)**.**

uşaqla -**uşaqla, yumşaq olmalısan:** uşaq, yumşaq.

uşaqlar **-bir əmikdən, döşdən, qaynaqdan soran, doyulan uşaqlar, doyulmuş olanlar:** əmikdaş**.**

uşaqlar **-bir qarından olan uşaqlar:** qarındaş. qadaş (< **qa**: **qab** + **daş**).

-**bir qarından, birlikdə olan uşaqlar:** əkiz. ekiz**.** qarındaş. qadaş (< **qa**: **qab** + **daş**).

uşaqlar -**uşaqlar üçün mıncıq düzüsü bilək, boyun bağı:** qıyqı. qıycı. qıyıc. qığı.

uşaqlar -**uşaqlar üçün ortası dəlik, həlqə biçimli çörək**: gülür. kövür.

uşaqlara -**kiçik uşaqlara söylənən sevgi sözü:** cıyan. sıyan.

uşaqlara -**bir yaşından ikiyə dək uşaqlara verilən ad:** qırqım. qırım.

-**"yaman uşaq. qırılası. vırqına gəlmiş" uşaqlara qızaraq söylənir:** qırlıqan. qırılıqan.

uşaqları **-uşağları dala** dib otağa səsləri gəlməsin. (**dala**: cala. qat. qoş).

uşaqları -**uşaqları bir gündə doğmaq:** qırxları qarışmaq.

uşaqların - **uşaqların birbirlərinin üstünə minərək yaptığları yığın, çoğa**: qayım

-uşaqların yarım yarım, tutar tutmaz danışması: qayısı qayısı. qaysı qaysı.

uşaqların **-uşaqların ilkəsi**: bir ev uşaqlarının lap böyüyü. (**ilkə**: əkə. ilk. birinici. lap böyük).

uşaqların -**uşaqların omuriliyi oynamaq, sancımaq:** gəvrəyi batmaq.

uşaqların -**uşaqların evçilik oynarkən, palçıqdan, daşcıqdan yapdıqları ev:** qozıq. gözük.

-**uşaqların başın qatmaq üçün danışılan nəğil:** qut ötəsi. qut nağılı.

-**körpə uşaqların oynamağı üçün sapa düzülən oyuncağlar:**qırqır mıncığı.

uşaqlı **uşağlı.** çağatay. çağalı.

uşaqlı -**arvad uşaqlı böyük ev**: köş kitlət. köş kilfət. qoş kitlət. qoş kilfət. -**köş kitlətdən** qurtulsaydım, bilərdim ip kimin əlindəndir.

uşaqlı qırıqlı. qoduqlu. dayçalı.

uşaqlıq balalıq. balacalıq.

-uşaqlıq bənğlük simgəsi. (**bənğlük**: durğallıq. turuzluq. əbədilik). (böyük cocuq böyükməz, cocuq qalan ölükməz).

uşaqlıqın **-uşaqlığın dadın**, böyüdükdə anlarsan.

-uşaqlığın dadını yaşlandıqda bilərsin.

uşaqlıqın **-uşaqlığın itirən**, güntaylığın basdırar. (**güntaylığın basdırar**: xoşbəxliyin quylkr. güntay ola bilməz. ürəkdən sevinə bilməz).

-uşaqlığın unudan, sevgisinə utuzar.

uşaqlıqtan **-tüm böyüklər uşaqlıqdan böyümüş**, ama çox az böyük uşalığın anıqlar. (**anıqlar**: xatırlar)**.**

uşaqlıqtan **-uşaqlıqdan böyüdük, böyüklərlə yürüdük**, baş çatdısa uluduq, çatmaz başdıq çürüdüq. (**baş çatdısa**: ağlımız oldusa). (**uluduq**: böyüdük). (**başdıq: başıdıq**).

uşaqsı **uşağsı.** çağası. çağatay. çağa, uşağ kimi, sayağlı olan.

uşaqsı -**uşaqsı davranan, qonuşan:** qıcımıq. qısımıq. qıtımıq. qoduxlanma. cocuqluğa özənən.

uşaqsini **-**uşaq kimi**. -**danla atıb günlə batam, **uşaqsini yerdə yatam**.

uşaqsız korocağ. sonsuz. quşaqsız.

uşaqta **-atana gözü oğul ilə uşaqda**, oğlun gözü avlu ilə bayırda.

uşaqta -kişi uşaq doğulur, uşaq yaşlanır, **uşaqda ölür.** (kişioğlu uşaq gəlir uşaqda gedir).

uşaqtan **-başın qoymaz söz dinləməz uşaqdan**, işlək ərin tovaş yılığ yeğ gəlir. (**ərin**: ram. uysal. usal). (**tovaş**: güclü)**.**

uşaqu **uşağu**. **oğşağu.** uşaq yana.balavı. bala yana.

uşaqyana uşaqca. balaca. kudəkanə. bəççəqanə. -**balaca** danışma.

uşalıqın **-**tüm böyüklər uşaqlıqdan böyümüş, **ama çox az böyük uşalığın anıqlar**. (**anıqlar**: xatırlar)**.**

uşbu -bayram qutlaması. -qutlu bayramlar, tanrı yarqısı sizlərqə bolsun, ömrünüz ışınlı uğra dolsun, **sağuclar yetirdi uluğ günlərqə, uşbu günləriz qutatqu bolsun**. (**yarqısı**: rəhməti). **(sağuclar:**şükürlər). (**qutatqu**: yolağçı, bərəkətli)**.**

uşqa -**uşqa çuşqa:** uşağ muşaq. kərdəzən. kərgələk. çoluq cocuq. hər nəyin ovağı, xırdası, kərtəsi.

uşqış -**uşqış uşqış**: **uçqış uçqış**: **quşqış quşqış**. tut tut. itləri tumağa çağırma ünləmi.

uşqun **uşğun**. ısğın**.**

uşqutmaq **uçqutmaq**. qurdurmaq. qurqadmaq. qurmaq. qurşatmaq. qurşutmaq. qurutmaq. qurnutmaq. qoynıtmaq. qurqatmaq. qurqutmaq. qurcutmaq. quşqutmaq. körsələmək. körükləmək. körüklətmək. kürükləmək. qundaqlamaq. qurdaqlamaq. küydaqlamaq. qordaqlamaq. yelləmək. yellətmək. təhrik edmək. (**quşqış quşqış**: **uşqış uşqış**: **uçqış uçqış**: tut tut. itləri tumağa çağırma ünləmi).

uşuq eşq**. -uşuq sevgi odu,coşqunluğu:** oduq**.** -**oduq** canı qımıdar (oynadar).

uşuq məhəbbət. eşq. -**çın** uşuq: çin məhəbbət, eşq. **(çin**: çınğ. teyxa. nab. xalis).

ut **-sevən səni ağıysada ut**, sevməyən səni balisə unut.

ut utanc. həya**. -yalançıya ut taxsan,** yalançı utar, ut utanar.

-oğruya ut gərəkməz, sallaca əsrik gərəkməz. (**ut**: həya). (**sallaca**: cəllada). (**əsrik**: əsirgəlik. rəhmgöyüllük)**.**

-çevirəngə görə könlüvü gen tut, **istəklərin artıq gəlirisə diləyin ut.**

-könüldən çıxan **ut bilməz**. (könüldən qavulandan hər nə gözlənir, ut, utanmadan

sıvay).

-damcı axmaz sel olmaz, **dilənçidə ut olmaz**. (**ut**: utanc. həya).

-sevirsə səni acısında ut, sevmirsə səni balında unut.

-us başda, **ut könüldə**.

-ut nə bilir ilqarsız, ilqarsızlar utanmaz.

utacaq **-qara topraq həp varlığı utacaq**, üzqaralıq qaykişiyə qalacaq.

utaman **udaman**. **qudaman**. **qocaman**. **ocaman**. **ucaman**.

utan danan. -**utan butan**: danan danmayan (iqrar edən).

-acun işi, qapan götdü, utan öttü, gileyliyə yer qalmaz. (**acun**: evrən)**.**

-dilindən utanma, **durundan utan.** (**durundan**: halından).

-tutuzuş varsa **utan var,** utuzan var.

-utan aldı utuzan qaldı.

utan **-**utuzmağı düşünsən, **utan kimi yaşarmaz**. (**yaşarmaz**: yaş sürməz)**.**

utana -**utana sutana**: qıvrıla sıvrıla.

-**utana utana**: qırpına qırpına. qaypına qaypına. çəkinə çəkinə.

utanan **1.** utğan**. -utğan kişi** qorxaq görünər.**1.** uyatcaq. utancaq. əzilən. çəkingən. qaçınqan. singin. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. usanc. usanıq. usancan. utanqan. uyatcaq. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

utanar -**kişi kişiyə baxar utanar**, üzüm üzüme baxıb qızarar.

-yalançıya ut taxsan, **yalançı utar, ut utanar**. (**ut**: utanc. həya)**.**

utanc **1.** ut. həya**. -**yalançıya ut taxsan, yalançı utar, ut utanar.**1.**tutanc. tutğaq. darğuq**.** durğuq. həya. şərm. -**darğuqluq** bu nədən. -**durğaqdan** girdi sözümün arasına. -qanmazdan **durğuq** gözləmə.

-inac ilə özümü, **utanc ilə üzümü**, əkic ilə sözümü, sözüm ilə işimi uğurladım. (**uğurladım**: düz yola qoydum). (**əkic**: ədəb).

utanc -**utanc verici durum:** qırac. rusvayçı.

utancaq usancaq. uyancaq. kəmsincik. kəmsincin. kəmsincən. kəmsincək. məhcub.

utancaq utanan. uyatcaq. əzilən. çəkingən. qaçınqan. singin. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. usanc. usanıq. usancan. utanqan. uyatcaq. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

utancına utanmaqdan. -**utancına** üzü qızardı.

utancıntan -**utancından qısılmaq, sıxılmaq:** ərimək. ərgimək. -o sözləri eşidib **ərimədin**.

utanclı əksikli. əsgikli. yoxsun. qıyıq. qıtıq. alçaqlı. aşağlı.

utanılacaqlı -**utanılacaqlı durum:** qızcağan. qırfacan. qırvacan. qırğacan. qırcağan.

utanır -qavun qavundan alalır, **kişi kişidən utanır**. (**alalır**: **al alır:** rəng alır). (qaykişidən ut güdmə. (**qaykişidən**: namərddən). (**ut**: utanmaq).

utanqan usanc. usanıq. usancan. uyatcaq. əzilən. çəkingən. qaçınqan. singin. utanan. uyatcaq. utancaq. məhcub. ehtiraz edən. sıxılqan. qızlac. qıslac. qıylac. duruğcan. tutuncan. sakınqan. xəcalətli.

utanma **-dilindən utanma**, durundan utan. (**durundan**: halından)**.**

utanma qızartı. qızarma. qızarış. xəcalət çəkmə. şəsmsari. şərmginlik. şərməndəlik.

utanmaq **1.** budanmaq. ütənmək. yolunmaq. -bağım baxcam **budanmış**.

1.tutğanmaq. tutanmaq. darğunmaq**.** durğunmaq. həya, şərm edmək. xəcil, şərmgin olmaq. -burda özgə yoxdu nədən **tutğanır**.

utanmaq tutqunmaq. durqunmaq. kəsdüşmək. pozulmaq. korlanmaq. qısılqanlamaq. qızılqanlamaq.

utanmaq 1. küllənmək. tutqunmaq. örtünmək. (# güllənmək: kövlünmək. pörtünmək. açılmaq). 1. qırpınmaq. qaypınmaq. çəkinmək. tutqunmaq. durqunmaq. üşənmək. üzənmək. korlanmaq. qısılqanlamaq. qızılqanlamaq. -**qaypınmadan** iləri gəldi. -iyi baxsan görərsən kim kimdən **qırpınır**.

utanmaqın **-**qurralığın özüvə, **utanmağın yeri var.** (qurralıq, qurur kimsəbirinə satma, kəndivi kəndin bəğən, kəndivə güvən, utanmamaq yügümək, utanmaq qısılmaq deyil).

utanmaqtan utanmaqdan. utancına. -**utancına** üzü qızardı.

utanmalı utun. sakıncalı.

utanmasın utun. hayasın. -**utun utmuş**, sevin atmış. **{**utun utmuş, suyun atmış. (**suyun**: içə hopan gözəlliyin)**.**

utanmatın **utanmadın.** ərimədin. -o sözləri eşidib **ərimədin**.

utanmaz . 1. kəvəlalası. sarnıc. salağı. sadağı. (başqalar sırtından keçinən). aslağ. asalağ. yalağ. yalamıq. çalağ. çalamıq. yırtığ. arsız. ağgöz. gözüağ. aşarı. oratsız. utasız. çıpıl. sıpıl. səpil. çəpil. həyasız. **1.** qımız. qımızı. aşarı. ağgöz. gözüağ. həyasız.

utanmaz -çaq kişi verirsə söz tutanmaz, qırar ilqar, dönər üzün utanmaz. (**ilqar**: əhd)**.**

-nankor kişi doğru yolda duranmaz, əğri olan doğru birlə olanmaz, min söz desən

bir sözüvü tutanmaz, **min bal yedir, bir acını utanmaz**, ilan çalsa, ağu damar dad verməz.

-tutuzlular utanmış**, tutuzsuzlar utanmaz**. (**tutuzlular**: bəfalılar)**.**

-ilqarlılar utanmış , **ilqarsızlar utanmaz**.

-ut nə bilir ilqarsız, **ilqarsızlar utanmaz**.

-tutub duran utanmış, **atıb qaçan utanmaz**. (**atıb qaçan**: bəfasız). (**tutub duran**: bəfalı).

-başla könül tutanmaz, könül başdan utanmaz, istəklərin ölçülə, duraqları bilqilə.

-sıra çatsa qutsuza, **utsuz çıxar qarşına**.

-sıra çatsa qutsuza, **utsuz çıxar qarşına**. (**utsuz**: utanmaz)

-cığan verməyinə qısqanar, **yalan deyər utanmaz**. (**cığan**: paxıl).

-yalançılar **utanmaz**.

utanmaz ısız**. -alp artunqanı öldürər, ısız acun çaldırar**, ötlək öcün aldrar, indi bağır çalayar (ürək yırtılar). (**artunqanı**: əfrasyabı).

utanmaz uysuz > üzsüz. ısız**.** namussuz. -**ısızlar** bayramı. -alp artunqanı (əfrasyab) öldürər, **ısız** acun çaldırar, ötlək (zəmanə) öcün aldrar, indi bağır çalayar (ürək yırtılar).

utanmaz 1. gön üzlü. yaman üzlü. arlanmaz. ağgöz. gözüağ. kösələ üzlü. (**kösələ**: dəri. gön). 1. qızyıq. qıycıq. qırcıq. azıq. azquq. pişgin. ağgöz. gözüağ. üzlü. üzü germiş. üzsüz. hırsız. arsız. aldırmaz. həyasız.

utanmazın **-utanmazın** qorxusu olmaz.

utanmazlıq qızyığlq. qıycıqlıq. qırcıqlıq. sarnıclıq. süptünlük. aşarılıq. aşarıllıq. aslağlıq. asalağlıq. yalağlıq. yalamığlıq. çalağlıq. çalamıqlığ. yırtığlıq.

utanmazmaq uyanmazmaq. usanmazmaq. uytamazmaq. qaşarlanmaq. kaşarlanmaq. çaşarlanmaq. çaşqarlanmaq. qaslanmaq. qasarlanmaq. bərkinmək. aşqarlanmaq. azqarlanmaq. qızarqınmaq. çıpıtlaşmaq. yamanlaşmaq. pis, kötülükdə pişinmək, alışınmaq, alışqanmaq. aslağınmaq. asalanmaq. yalağınmaq. çalağınmaq. yırtınmaq. sarnıcmaq. süptünmək. sırtınmaq. sərtinmək. sırtarmaq. sıytarmaq.

utanmış **-ilqarlılar utanmış** , ilqarsızlar utanmaz.

-tutuzlular utanmış, tutuzsuzlar utanmaz**.** (**tutuzlular**: bəfalılar)**.**

-tutub duran utanmış, atıb qaçan utanmaz. (**atıb qaçan**: bəfasız). (**tutub duran**: bəfalı).

utantırıcı **utandırıcı**. qızartıcı. koğuzluq. koğruzluq. koğarızlıq. kovuzluq. kovruzluq. kovarızlıq. qaqarızlıq. qağrazlıq. qağrızlıq. kir. çir. çır. çirk. çih. pis. çök. çöküc. salaq. çalaq. düşüc. alçaq. koruz. korus. koruc. korunc. koruq. koruqlu. çoruqlu. korasa. çorasa. pislik. korasalıq. çorasalıq.

utantırmaq **utandırmaq.** 1. qızcatmaq. qızartmaq. qırfacatmaq. qırfıtmaq. qırvatmaq. qırvıtmaq. qırğatmaq. qırğıtmaq. qırcatmaq. qırcıtmaq. qırf, qırv, qırğ, qırc edmək. 1. qızartmaq. xəcalət vermək. şəsmsar, şərmgin, şərməndə edmək.

utantırmayın -sizi tanrım, **utandırmayın**. (**sizi tanrım**: siz allah. sizi and verəyim).

